Xalqın qəzeti!

# Xalq qəzeti

№ 123 (30527) 12 iyun 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Avropanın nizamı pozulur



Səhifə ⇨ 3

# TANAP: Azərbaycandan Türkiyəyə qaz dəhlizi




**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan təbii qazı ölkənin hüdudlarından kənara nəql edən Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) ilk hissəsinin istifadəyə verilməsindən 6 il ötür. Xatırladaq ki, 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində boru kəmərinin birinci hissəsinin açılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Həmin ayın 30-da isə Türkiyəyə ilk qazın nəqlinə başlanıb.**

(ardı 5-ci səhifədə)

# Azərbaycan–Rusiya əməkdaşlığı yeni layihələrlə zənginləşir

Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə



**Hörmətli Vladimir Vladimiroviç!**

Sizi və Sizin şəxsinizdə Rusiyanın bütün dost xalqını dövlət bayramı – Rusiya Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımız arasında uzun əsrlər ərzində formalaşmış möhkəm dostluq və mehriban qonşuluq ənənələri Azərbaycan ilə Rusiyanın münasibətlərinin uğurlu və ardıcıl inkişafının etibarlı əsasıdır. Biz strateji müttəfiqlik xarakteri daşıyan Azərbaycan–Rusiya qarşılıqlı fəaliyyətinin əldə olunmuş səviyyəsini yüksək qiymətləndiririk.

Bu gün bizim ikitərəfli gündəliyimizdə əməkdaşlığın demək olar ki, bütün sahələrini əhatə edən və şübhəsiz, həyata keçirilməsinin təkcə ölkələrimizə və xalqlarımıza deyil, həm də bütövlükdə regionun rifahına xidmət edən məsələlərin geniş spektri yer alır.

Əminəm ki, Azərbaycan–Rusiya münasibətləri və dost ölkələrimizin maraqlarına cavab verən çoxplanlı qarşılıqlı fəaliyyət gələcəkdə də yüksələn xətlə səmərəli şəkildə inkişaf edəcək, yeni məzmun və birgə layihələrlə zənginləşəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyun 2024-cü il**

## Radikallar İrəvanda qan tökməyə də hazırdırlar



Səhifə ⇨ 6

## Qlobal sülhə təhdid



Səhifə ⇨ 3

## Pakistan–Çin tərəfdaşlığı Hindistanı niyə narahat edir?



Səhifə ⇨ 11

## Meşələr dünyamızın cənnət məkanıdır



Səhifə ⇨ 8

# Cənubi Qafqazda sülh və Orta dəhliz məntiqi

*O'Brayn əvvəl nə deyirdi, indi nə deyir?*

**"Biz, həmçinin Mərkəzi Asiyadan Aralıq dənizinə qədər regionda davamlı sülhün bərqərar olması, iqtisadi imkanların genişləndirilməsi səylərini təşviq edirik. Ermənistanla Azərbaycan arasında davamlı sülh yaranarsa, bu imkanlar daha da genişlənəcək. Bu baxımdan biz səylərə töhfə verməkdən məmnunuq".**




Bu fikirlər ABŞ Dövlət Departamentinin rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms O'Brayna məxsusdur. Cənab O'Brayn bunları Ermənistan–ABŞ Strateji Dialoqunun yekun iclasının açılışında deyib.

ABŞ rəsmisi İrəvana ikitərəfli əlaqələr çərçivəsində müxtəlif sahələrdə yardımın olduğunu təsdiqləyib. Onun sözlərinə görə, son illər erməni xalqı islahatlara can atdığını dəfələrlə təsdiqləyib və baş nazir Nikol Paşinyanın hökuməti ölkənin qlobal iqtisadiyyata inteqrasiyasına imkan verəcək addımlar atır. Bu yerdə dərhal bildirək ki, Ermənistanın iqtisadi inkişaf tempində başlıca pay Rusiyadan gələn gəlirlər hesabınadır.

Amma o da faktdır ki, kollektiv Qərb üçün Cənubi Qafqaz regionunda balanslaşdırma xətti aktualdır və bu mənada İrəvana dəstək ilə əlaqədar müxtəlif formullar işlənir. Çox güman, C.O'Brayn da məhz həmin formullardan söz açır. Daha doğrusu, bilavasitə ABŞ tərəfindən həyata keçirilən addımlardan. Hərçənd, Ağ ev rəsmisi "Ermənistanda iqtisadiyyat son illər aktiv şəkildə inkişaf edir və bu, regionda öz tempi ilə diqqət çəkir" – deyərkən, bu il aprelin 5-də Brüsseldə Avropa İttifaqı–ABŞ–Ermənistan formatı çərçivəsindəki görüşü yada salır. Sözügedən görüşə nəzərən Ermənistanın qlobal iqtisadiyyatdakı payının artırılması üçün geniş perspektivlərin olduğunu vurğulayır: "Ölkələrimiz bu gün gömrük sektorunda məlumat mübadiləsinə dair saziş imzalayacaq. Nəticədə gələcək illərdə ticarət və biznes asanlaşacaq. Bu, Brüsseldə müzakirə edilən məsələlərin bir hissəsidir".

Sırf erməni xalqının can atması kimi ritorikaya gəldikdə, belə görünür, pafosa əsaslanmaq ABŞ rəsmisinin fərdi ifadə tərzidir. Yəqin, O'Brayn Ermənistanı daha yaxşı tanıyır ki, erməni xalqının demokratik mühitdə daha sərbəst yaşamaq istəyinə dəstək verməkdən söz açır. İnanırıq ki, Dövlət Departamentinin təmsilçisi digər xalqların demokratiya şəraitində ömür sürmək niyyətində olmadıqlarını bildirmək istəmir. Yəni, sözümüz ondadır ki, hər bir xalq layiqli yaşamaq barədə düşünür, təkcə ermənilər yox. Görünür, O'Brayn fikrinə vaciblik libası geyindirir ki, bunu da müəyyən mənada təbii saymaq mümkündür. Eləcə də onun Birləşmiş Ştatların prosesə töhfə verməkdən qürur duyduğunu vurğulamasını.

Daha sonra diplomat fikrini bir qədər dolğunlaşdıraraq deyib ki, Ermənistanda baş verən siyasi proseslər xalqın demokratik istəklərini əks etdirir. Onun sözlərinə görə, Vaşinqton Paşinyan iqtidarının ABŞ-ın qismən köməyi ilə atdığı addımlardan məmnundur. Söhbət qanunun aliliyinin təmin olunması, korrupsiyaya qarşı mübarizənin və cəmiyyətdə plüralizmin gücləndirilməsi sahəsindəki addımlardan gedir: "Biz həm hökumət, həm də yerli səviyyədə çalışarıq ki, bütün bu addımları asanlaşdıraq".

Bəli, əsas məsələ təhlükəsizlikdir. Dövlət Departamentinin rəsmisi bu baxımdan sülh mühitinin yaranmasını vacib saydığını vurğulayıb. Əslində, onun sülhün təminatı faktoru kimi də iqtisadi amilləri qabartması müsbət haldır. Bu baxımdan yazımızın başlanğıcındakı sitata xüsusi diqqət yetirilməlidir. Həm də ona görə ki, O'Braynın həmin fikirləri Ermənistanın bəzi siyasi dairələrində, eləcə də media orqanlarında birmənalı qarşılanmır. Onlar bildirirlər ki, dövlət katibinin müavininin "Mərkəzi Asiyadan Aralıq dənizinə qədər iqtisadi imkanlar" ritorikası Orta Dəhliz məntiqindən başqa bir şey deyil. O məntiq ki, onda "Zəngəzur dəhlizi" də yer alır. Erməni siyasilər bunu Azərbaycanın və Türkiyənin maraqlarının qorunması kimi qiymətləndirirlər. Bu barədə sonda söz açacağıq.

Hələlik isə qeyd edək ki, C.O'Brayn Amerikanın Ermənistanla ədliyyədən tutmuş müdafiə sisteminə qədər müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirməyə hazır olduğunu təsdiqləyib. O, Birləşmiş Ştatların ölkə ilə keçən il birgə hərbi təlimlər keçirməsindən də məmnunluğunu dilə gətirib. Habelə, İrəvanın ərzaq təhlükəsizliyi baxımından ehtiyacları ödəmək məsələsinin həllinin zəruriliyindən söz açaraq, Vaşinqtonun bu istiqamətdə də yardıma hazırlığını dilə gətirib: "Əməkdaşlıq keçmişdəkindən daha dərin və güclüdür. Strateji dialoqun strateji komissiya səviyyəsinə yüksəldilməsi planları var ki, bu da daha dərin əməkdaşlığa imkan yaradacaq", - deyə O'Brayn fikrini tamamlayıb.

İndi isə gələk "Zəngəzur dəhlizi" ilə bağlı məsələyə. Məlum olduğu kimi, C.O'Braynın adı keçən ilin sonlarına doğru məhz bu mövzu əsnasında çəkilmişdi. O da məlumdur ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq Azərbaycanın Qərb rayonlarından Naxçıvana yol vermək istəmir.

(ardı 4-cü səhifədə)

## Odlar yurdu alternativ enerji ölkəsinə çevrilir





Səhifə ⇨ 7

## E.Ə.Məmmədovun Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Elçin Əli oğlu Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun rektoru təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2024-cü il**

## Filippin Respublikasının Prezidenti Zati-aliləri cənab Ferdinand Romualdez Markosa

**Hörmətli cənab Prezident.**

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Filippin əlaqələrinin inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyun 2024-cü il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri cənab Prezident.**

Dost Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir və xoş arzularımızı çatdırmaqdan sevinc duyuruq.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edir, münasibətlərimizin ortaq maraqlarımız naminə daha da möhkəmlənməsinə səy göstərdiyimizi vurğulayırıq.

Sizə uzun ömür, cansağlığı, dost Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi diləyirik.

**Ən xoş arzularla,**

***Əhməd Abdullah***
***əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

## Xarici İşlər Nazirliyi bildirir

**İyunun 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasına işgüzar səfəri çərçivəsində Ukrayna Bərpa Konfransında iştirak və çıxış edib.**



XİN-dən XQ-yə bildirilib ki, nazir Ukrayna ətrafında vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən göstərilən humanitar yardımlar, reabilitasiya proqramları və yenidənqurma işləri barədə ətraflı məlumat verib, ölkəmizin bundan sonra da müvafiq dəstəyini əsirgəməyəcəyi vurğulayıb.

Azərbaycanın hər zaman Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıran nazir Ceyhun Bayramov ölkəmizin Ukrayna ətrafında yaranmış vəziyyətin ilk günlərindən etibarən hərbi əməliyyatların ən qısa zamanda dayandırılmasını, habelə münaqişənin beynəlxalq hüquq normalarına əsaslanan diplomatik həll yolunun tapılmasını dəstəklədiyini qeyd edib.

Azərbaycanın Ukraynada infrastrukturun bərpası istiqamətində layihələrə dəstək göstərdiyi, bu xüsusda İrpen şəhərindəki məktəb binasının yenidənqurma işlərinin artıq yekunlaşdığı diqqətə çatdırılıb.

***

**Dünən Azərbaycanın xarici işlər nazir Ceyhun Bayramov Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşüb.**

Nazirlər Azərbaycan–Almaniya münasibətlərinə böyük əhəmiyyət verdiklərini, əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını qeyd ediblər.

Görüşdə bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi çərçivəsində Almaniya tərəfi ilə əməkdaşlıq üçün əlavə imkanların mövcud olduğu vurğulanıb. Bu çərçivədə Petersberq Dialoqunun birgə uğurlu təşkilinin, eləcə də hazırda keçirilən Bonn Konfransının əhəmiyyəti qeyd edilib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma prosesindən bəhs edərək, sülh prosesi çərçivəsində mövcud problemləri və imkanları diqqətə çatdırıb.

***

**Ceyhun Bayramov Berlində Bolqarıstan Respublikasının Baş naziri və xarici işlər naziri Dimitar Qlavçev ilə də görüşüb.**

Tərəflər strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə əhəmiyyət verdiklərini, tərəfdaşlığın müxtəlif istiqamətlər, xüsusilə də energetika, kənd təsərrüfatı, turizm, nəqliyyat, infrastruktur, innovasiyalar və qarşılıqlı investisiyalar sahələrində daha da gücləndirilməsi üçün səyləri artıracaqlarını vurğulayıblar.

Cənub Qaz Dəhlizindən Azərbaycan təbii qazının Bolqarıstan-Yunanıstan İnterkonnektoru vasitəsilə Bolqarıstana ötürülməsinin, yaşıl enerji daxil olmaqla energetika sahəsində artan əməkdaşlığın, "Həmrəylik Halqası" çərçivəsində birgə səylərin münasibətlərə əhəmiyyətli töhfə verdiyi qeyd olunub.

***XQ***

## Bonnda QHT-lər Azərbaycanın COP29 sədrliyini dəstəkləyib

**Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən fəaliyyətini təqdir edən bəyanat yayıb.**

31 ölkədən 102 QHT təmsilçisi və ictimai fəal imzaladığı bəyanatda deyilir: "COP29 Sədrliyinə və tədbirə ev sahibliyi edəcək Azərbaycana öz dəstəyimizi bildiririk. İqlim məsələləri ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasından tutmuş daha güclü iqlim siyasətinin icrasına nail olmaq üçün biz müxtəlif icmaların, xüsusən də həssas və təcrid vəziyyətinə düşmüş qrupların narahatlıqlarını danışıqlarda ön plana çıxarırıq. Bu baxımdan COP29-a sədrlik və ev sahibliyi edəcək Azərbaycanın bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığın təşviqində rolu çox əhəmiyyətlidir".

Bəyanatında daha sonra qeyd edilir ki, "həssas və təcrid vəziyyətinə düşmüş icmaların, o cümlədən yerli xalqların, qadınların və gənclərin səslərinin danışıqlar prosesində eşidilməsini və nəzərə alınmasını təmin etmək vacibdir. İqlim fəaliyyətinə təkan vermək üçün vətəndaş cəmiyyətinin əsas rolunu dərk etməklə, QHT nümayəndələrini qərarların qəbulu proseslərinə fəal şəkildə cəlb etməklə, insanların və planetin ehtiyaclarını prioritet elan etməklə, biz Azərbaycanın indiyədək ən inklüziv COP-a ev sahibliyi edəcəyinə inanırıq".

Sənəddə COP29 üzrə iqlim dəyişmələrinin həllində qlobal liderliyi öz üzərinə götürən Azərbaycanın mənalı əməkdaşlığa, iddialı öhdəliklər götürülməsinə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə konsensusa nail olacağına və hamı üçün bərabər və ədalətli gələcəyin qurulmasına doğru ciddi addımlar atacağına əminlik ifadə olunur. Bəyanat bu sözlərlə yekunlaşır: "Bonn konfransında iştirak edən vətəndaş cəmiyyəti təmsilçiləri iqlim sazişlərinin məqsədlərinə nail olmaq üçün bütün maraqlı tərəflərlə əməkdaşlığa hazırdır. Biz birlikdə əmin ola bilərik ki, COP29 dayanıqlı gələcəyə doğru mühüm mərhələni uğurla başa vuracaq".

Xatırladaq ki, son vaxtlar COP29-la əlaqədar Azərbaycana xarici QHT-lərdən ardıcıl dəstək bəyanatları qəbul olunur. 4 ayda 50-dən çox ölkəni təmsil edən 360-dan artıq QHT və ictimai fəal birgə bəyanatlar yayaraq, Azərbaycanın COP29 üzrə qlobal liderliyini təqdir edib.

***XQ***

## Əli Əsədovun Albaniya Baş nazirinin müavini ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 11-də Albaniya Respublikası Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Ballukunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, görüşdə Azərbaycan ilə Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib. Azərbaycan Hökuməti və Albaniya Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən birinci iclasının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın iqtisadi, ticari, energetika, sərmayə qoyuluşu, nəqliyyat, mədəniyyət, səhiyyə, turizm və digər sahələrdə genişləndirilməsi perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

## Milli Məclisin Sədri Sahibə Qafarova Belarusda



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Belarus Respublikasında səfərdədir. Bu ölkənin Prezidenti Aleksandr Lukaşenko Azərbaycan parlamentinin Sədrini qəbul edib.**

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan strateji münasibətlər uğurlu inkişaf yolu keçib. Aleksandr Lukaşenko Azərbaycana ötən ay baş tutmuş səfərini böyük məmnuniyyətlə xatırlayaraq, Prezident İlham Əliyevlə görüşləri və dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı nailiyyətləri yüksək qiymətləndirib.

Prezident Aleksandr Lukaşenko onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Sahibə Qafarova göstərilən yüksək qonaqpərvərliyə və ölkəmiz haqqında xoş sözlərinə görə, Belarus Prezidentinə minnətdarlığını bildirərək, Prezident İlham Əliyevin salamlarını Belarus Prezidentinə çatdırıb. Spiker xalqlarımızı ənənəvi dostluq əlaqələri, ümumi dəyərlər birləşdirdiyini və ölkələrimiz arasında münasibətlərin dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Görüşdə iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafı, bu sahədə mövcud olan potensial barədə fikirlər ifadə olunub.

***

Milli Məclis Sədrinin Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Belarus Dövlət Universitetində mərasim təşkil olunub. Belarus Dövlət Universitetinin Fəxri professoru diplomu və mantiyası Sahibə xanıma təqdim olunub.

Milli Məclisin Sədri Fəxri professor adına layiq görüldüyünə görə dərin minnətdarlığını bildirib. Sahibə Qafarova Belarus Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri qarşısında məruzə ilə çıxış edib.

Tədbirdə Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova çıxış edərək ölkələrimiz və xalqlarımız arasında münasibətlərə dair fikirlərini səsləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Dövlət Universitetinin xatirə kitabını imzalayıb.

***Əliqismət BƏDƏLOV***
***XQ***

## Müdafiə Nazirliyi xəbər verir

**Bu ilin hazırlıq planına uyğun olaraq, iyunun 12-də Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasında dislokasiya olunan bölmələri ilə taktiki təlim keçiriləcək.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, şəxsi heyət, döyüş texnikası, aviasiya vasitələri və pilotsuz uçuş aparatlarının cəlb olunduğu təlimdə əsas diqqət komandirlərin qərar qəbuletmə bacarıqlarının və onların peşəkarlıq səviyyəsinin daha da artırılmasına, eləcə də bölmələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldilib.

Azərbaycanla İran arasında əldə olunmuş razılaşma əsasında İran İslam Respublikasının Ordusunun müvafiq qüvvə və vasitələrinin cəlb edilməsi ilə eyni vaxtda qonşu dövlətin ərazisində də taktiki təlim keçiriləcək. Hər iki ölkədə keçiriləcək təlimlərdə strateji obyektlərin və kommunikasiya xətlərinin mümkün təxribat-diversiya fəaliyyətlərindən mühafizəsi üzrə müxtəlif tapşırıqlar koordinasiyalı şəkildə yerinə yetiriləcək.

***

**Dünən Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Avstriya Federal müdafiə nazirinin Baş katibi doktor Arnold H.Kammelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazir dost və tərəfdaş ölkənin nümayəndələrini Azərbaycanda görməkdən məmnunluğunu bildirib. Görüşdə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi, o cümlədən təhlükəsizlik sahəsində əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının Avstriyanın təşkilatçılığı ilə keçirilən müxtəlif kurs, seminar və treninqlərdə iştirakı yüksək qiymətləndirilib.

Müdafiə naziri avstriyalı qonağı bu ilin sentyabrında Bakıda keçiriləcək "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

A.H.Kammel Azərbaycan ilə Avstriya arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə Azərbaycan ilə Avstriya arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti müzakirə edilib, birgə hərbi əməkdaşlığın inkişafında qərargah görüşlərinin və qarşılıqlı səfərlərin vacibliyi vurğulanıb.

***XQ***

## Parlamentlərarası İttifaqda COP29 müzakirəsi

**Dünən Parlamentlərarası İttifaq "COP29-a hazırlıq: iqlim dəyişikliyi üzrə parlamentlərarası dialoq" mövzusunda onlayn iclas keçirib.**



Müzakirəyə qoşulan Milli Məclisin deputatı Soltan Məmmədov Azərbaycanın iqlim dəyişikliyi probleminin həllində və yaşıl enerjiyə keçiddə verdiyi töhfələri vurğulayıb. Diqqətə çatdırılıb ki, ölkəmiz bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşuna görə liderlər sırasındadır.

Deputat COP29 çərçivəsində Azərbaycan Milli Məclisi və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament toplantısının əhəmiyyətindən söz açıb, bu platformanın parlamentarilərə fikir mübadiləsi aparmağa, iqlim dəyişikliyi ilə mübarizədə təkliflərlə və yeni fikirlərlə çıxış etməyə mühüm imkanlar yaradacağına inamını ifadə edib. O, COP29-la bağlı məlumat verib, görüş iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

***XQ***

## Fransa Yeni Kaledoniyaya divan tutur

*Bakı Təşəbbüs Qrupu kanak xalqına informasiya dəstəyi verir*




**Afrikanın müxtəlif ölkələrindən olan bir qrup jurnalist, tanınmış bloger və vətəndaş cəmiyyəti fəalları, eləcə də Yeni kaledoniyalı jurnalistlərin iştirakı ilə iyunun 13-də "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda hibrid formatda dəyirmi masa müzakirələri və mətbuat konfransı keçiriləcək.**

Bakı vaxtı ilə saat 16:00-da başlayacaq mətbuat konfransında Fransa təhlükəsizlik qüvvələrinin Yeni Kaledoniyada yerli kanak xalqının dinc etiraz aksiyasına zorakılıqlarla cavab verməsi və bunun nəticəsində 10-dan çox dinc sakinin öldürülməsi, yüzlərlə insanın yaralanması və həbs edilməsi məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq. Belə ki, Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir.

Fransa polisi və jandarma qüvvələri tərəfindən törədilən vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. İnformasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün Bakı Təşəbbüs Qrupu hibrid mətbuat konfransı təşkil edir.

Konfransın məqsədi, həmçinin Yeni Kaledoniyada və Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq pozuntularına media vasitəsilə dünya ictimaiyyətinin diqqətini çəkmək, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi – neokolonializmlə mübarizə istiqamətində kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasının müzakirə edilməsidir.

***XQ***

# Qlobal sülhə təhdid

## Qərbin ikili standartlar siyasətində "boz" çalarlar

**Kollektiv Qərb Ukrayna mövzusuna tünd rəng çalarları qazandırmaqda israrlıdır. Yenə dünyanın "başbilənləri" bir yerə toplaşıb böyük toplantı təşkil edəcəklər. Tədbirin adı belədir: Qlobal Sülh Sammiti. Sammitdən məqsəd isə guya, Rusiya – Ukrayna probleminin həllidir. Məkan İsveçrədir.**




Hər halda, acınacaqlı durumdur. Ukraynanı girdaba mübtəla etmiş kollektiv Qərbin indi onun üçün çarə axtarması tamamilə miskin mənzərədir. Deməli, İsveçrədə keçirilməsi nəzərdə tutulan toplantı, əslində, sülh sammiti kimi dəyərləndirilə bilməz.

Bəli, timsahlar göz yaşı axıdacaqlar. Axı Ukrayna "öynə" üçün böyük yemdir. Nəzərə alaq ki, Avropanın ərazisinə görə ikinci dövləti həddindən artıq "bəslənib". Onu "yeyən" isə böyük ölçüdə Rusiya yox, elə Qərbin özüdür. Qərb "başbilənləri" hesab edirlər ki, Moskva üçün tələ qurublar. Bəlkə Ukrayna, həqiqətən, tələdir. Sadəcə, aydın görünməkdədir ki, tələyə düşən təkcə Rusiya deyil, həm də Avropanın özüdür.

Qətiyyətlə deyə bilərik ki, "köhnə qitə" ABŞ-nin tələsindədir və Ukraynada müharibə uzandıqca, Avropanın Birləşmiş Ştatlardan asılılığı daha da dərinləşir. Hadisələr eynilə İkinci dünya müharibəsi dövründəki kimidir. O zaman da savaşdan zərər görməyən ABŞ sonradan qitənin hamisinə çevrildi. Vaşinqtonun hamiliyinin hansı nəticələr doğurduğu isə hamıya yaxşı məlumdur.

ABŞ Ukrayna münaqişəsi fonunda təkcə bu ölkəni deyil, bütövlükdə Avropanın özünü də güdaza verir. İkinci dünya müharibəsindən sonra "Soyuq müharibə" ritorikası ilə SSRİ-nin məhvinə çalışmış və bu məqsədlə "köhnə qitə"ni "bəsləmək" yolu tutmuş Ağ ev hazırda onu Rusiyanı yox etmək naminə siprə çevirir. Bütün bunlar öz yerində, amma niyyətimiz Rusiya – Ukrayna qarşıdurmasına nəzər salmaq, mövcud istiqamətdə dəyərləndirmələr aparmaq, eləcə də ABŞ – Avropa klassik rəqabətinin pozulma trayektoriyasındakı ayrı-ayrı cəhətləri yada salmaq deyil. Əsas olan dünyanın Ukrayna üçün bu qədər canfəşanlığıdır. Görəsən dəyərmi? Yaxud niyə dəyməz?

Əlqərəz, kollektiv Qərb yenə də saxtakarlıq edir. Öz məqsəd və məramları naminə istənilən əmələ hazırdır. Doğrudur, Rusiyanın Ukraynaya hücumu hansı səmtdən yanaşsaq, işğalçılıq müharibəsi kimi dəyərləndirilə bilər. Çünki ikincinin beynəlxalq hüquqla təsdiqlənmiş ərazisi var. Ancaq vaxtilə Qərb İraqa, Əfqanıstana hücum gerçəkləşdirəndə, keçmiş Yuqoslaviyanı bombalayanda da beynəlxalq hüququ gözləmişdimi? Xeyr!

Deməli, Qərbin öz parametrləri olduğu kimi, Rusiyanın da fərdi baxış bucağının, maraq və mənafe dairəsinin mövcudluğu təbii qarşılanmalıdır. Fikrimizin təsdiqi üçün cəmi bir məqamın üzərində dayanaq. Rusiya Prezidenti Vladimir Putin 1998-ci ildən bu yana NATO-ya ölkəsinin sərhədlərinə yaxınlaşmamaqla bağlı xəbərdarlıqlar edib. Buna əhəmiyyət verilibmi? Əlbəttə ki, yox! Böyük ölçüdə yanaşsaq, bu gün davam edən Rusiya – Ukrayna müharibəsi həmin yaxınlaşmaq cəhdinin doğurduğu böhrandır.

Bəli, hazırda Ukraynaya dəstək məqsədi ilə çağırılan Qlobal Sülh Sammiti saxtakarlığa leqal don geyindirmək istəyindən başqa bir şey deyil. Ən əsası isə tədbir həm də ona görə saxta mahiyyətlidir ki, onun məğzində ikili standartlar siyasəti dayanır. Qərb aləmi və siyasi industriyası, həqiqətən, sülh barədə düşünsə, belə yanaşmadan uzaq durmalıdır.

Azərbaycan torpaqları otuz ilə yaxın müddətdə işğalda qaldı. Bir milyon vətəndaşımız qaçqın və məcburi köçkün həyatı yaşadı. Qərb nə etdi? Yalnız başdansovdu bəyanatlarla kifayətləndi. BMT Təhlükəsizlik Şurasının çıxardığı bir qətnamə bəzən cəmi bir gün ərzində icra olunduğu halda, qurumun torpaqlarımızın işğalına dair dörd qətnaməsi üç onillik ərzində mənasız kağız parçasına çevrildi.

ATƏT-in Minsk qrupu deyilən son dərəcə mənasız təşkilat, qurumun monitorinq qrupu adlandırılan ondan da lazımsız bir ortam, guya, sülhü qorumağa çalışdı. Əslində, məqsəd üzləşdiyi acınacaqlı durumu Azərbaycan xalqına qəbul elətdirmək idi. İstəyirdilər ki, vəziyyətlə barışaq, Qarabağı və digər işğal altındakı ərazilərimizi unudaq. Çalışırdılar ki, torpaqlarımız hesabına Ermənistana yeni ərazilər verilsin. Fikirləri bu yolla dünya erməniliyi üçün jest etmək idi. Jesti ona görə edirdilər ki, erməni lobbisi özlərinin qlobal maraqları naminə daim diri saxlansın. Bu gün də cəhdlərindən qalmırlar.

Həmin o kollektiv Qərb 44 günlük müharibə başlar-başlamaz cidd-cəhdlə istədi ki, haqq davamız işğalçılıq niyyəti kimi qiymət alsın. Özünün müxtəlif informasiya orqanları vasitəsilə elə ictimai rəy formalaşdırdı ki, sanki silahlı qüvvələrimizin əks-hücumu qəsbkarlıqdır. Ermənipərəstlik naminə bütün mütərəqqi dəyərlər qurban verildi. Saxta sentimentallıq hekayələri uydurulub dövriyyəyə buraxılaraq, azərbaycanlıların qəddar, qaniçən, ermənilərin isə məzlum obrazı yaradıldı. Azərbaycan bu cür riyakarlığa, aşkar ikili standartlar siyasətinə baxmayaraq, öz haqqını gerçəkləşdirməyə nail oldu. Ölkəmiz belə mənfi təmayüllərə qarşı qəti mübarizə əzmini ortaya qoydu və müqəddəs Zəfərinə qovuşdu.

Bəli, indi sərsəm xəyallarının daşıyıcısı olan Qərb dövlətləri Ukrayna üçün yenə bir araya gələcəklərsə, nəzərə alaq ki, əvvəllər də oxşar tədbirlər düzənlənib. Hazırda konkret məqsəd anti-Rusiya ritorikasını gücləndirmək, Kremlə qarşı qəzəb və hiddəti artırmaqdır. Çox güman, sammitdə kimlərsə ağzı köpüklənə-köpüklənə Moskva əleyhinə danışacaq, bəziləri Ukraynanın daha da qüvvətlənməsi üçün əlavə tədbirlərin görülməsindən dəm vuracaq. Bir sözlə, əvvəl nələri deyirdilərsə, yenə eyni kursu davam etdirəcəklər.

Ukrayna ilə bağlı Qlobal Sülh Sammitini keçirməkdə daha bir məqsəd rəsmi Kiyevi ruhlandırmaqdır. Əlbəttə, söhbət yalnız boş sözlərlə ruhlandırmaqdan gedir. Sammit, eyni zamanda, dünyaya mesajdır. Kollektiv Qərb yaxşı bilir ki, Ukrayna kampaniyasına münasibət əvvəllərdəki kimi deyil. Dünyanın ictimai rəyində artıq məsələnin uzanmasından ciddi narazılıq var. Hansısa formada bu narazılığı aradan qaldırmaq lazımdır. Buna görə də Rusiya ilə mübarizənin, müqəddəslik görüntüsünü, belə demək mümkünsə, zənginləşdirmək tələb olunur. Bu baxımdan Qlobal Sülh Sammitini 1095-ci ilin Klermon kilsə məclisinə oxşatmaq tam yerinə düşür. Həmin məclisdə Roma papası II Urban İsa Peyğəmbərin (ə.) qəbrini kafirlərdən xilas etmək kimi cəfəngiyyata baş vurmuşdu. Beləliklə, tarixi Səlib yürüşləri başlanmışdı. İndi qarşıya Rusiyanı parçalamaq, tamamilə zəif duruma gətirmək kimi bir məqsəd qoyulub. Yəni, hazırda səlibçilərin Şərqin zəngin torpaqlarına sahiblənmək kimi əsl niyyətlərinin yerini Rusiyanın məhvi məramı tutub.

Əlbəttə, bunları vurğulamaqla heç də Rusiyanı haqlı tərəf qismində göstərmək istəmirik. Necə deyərlər, kəsilmiş qoyun-keçi öz ayağından asılır. Problem ondadır ki, asmaq metodları bəşəri dəyər və prinsipləri arxa plana atır, gücün mütləq hakimiyyətini ortaya çıxarır, ədalətsizliklə müşayiət olunur. Bu isə hər şeydən əvvəl qlobal sülhə təhdiddir. Qlobal Sülh Sammiti də bu təhdidi gücləndirəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Avropanın nizamı pozulur

## Sağçıların qələbəsi qitədə islamofobiya və türkofobiya meyillərinin güclənməsinə aparacaq

**Avroparlamentə seçkilərdə uduzmuş Fransa, Almaniya və Belçika solçuları nə vaxt və harada səhvə yol verdikləri sualına cavab axtarışına başlayıblar. Səbəblər isə bir deyil, üç deyil.**



"Qoca qitə"də həm seçkiyə qədər, həm də dörd gün davam edən seçkilərin gedişində müşahidə olunan geosiyasi vəziyyət və cəmiyyəti narahat edən problemlərin mövcudluğu onu göstərdi ki, Avropa, bütövlükdə, dərin siyasi böhran içində çapalamaqdadır. Avropa İttifaqının nəzarətində olan strukturlarda, ilk növbədə, Avropa Parlamentinin özündə zəruri islahatların həyata keçirilməsinin vaxtı çoxdan yetişib. Amma təəssüf ki, "köhnə dünya"nın yetkililəri bu barədə düşünmək belə istəmirlər.

* * *

Ümumiyyətlə, son vaxtlar Aİ-nin Avropa Parlamenti problemlər girdabında çapalamaqdadır. Bu, sadəcə, bəzi avroparlamentarilərin adlarının korrupsiya qalmaqallarında hallanması ilə bağlı deyil. Onların "böyük güclər"in siyasi sifarişlərini yerinə yetirdiklərinə dair təkzibolunmaz faktlar da üzə çıxıb. Elə son bir ildə Azərbaycana qarşı qəbul olunan qətnamə və bəyanatların "istehsal mexanizmi" doğru–düzgün araşdırılarsa bunlardan daha maraqlı və sensasiyalı qanun pozuntularının aşkar ediləcəyi şübhəsizdir.

Bunlar bir yana, budəfəki seçkilər Aİ üzvü olan aparıcı dövlətlərin daxilində də siyasi qüvvələr nisbətinə ciddi korrektələr etməkdədir. Belçikada sağçıların həm də yerli seçkilərdən qalib ayrılması artıq baş nazirin istefası ilə nəticələnib. Deməli, seçkilər həmin ölkələrdə hakimiyyət böhranına da yol aça bilər. Yunanıstan Xarici işlər naziri Giorgos Gerapetritisin dünən "ERT News"-a müsahibəsində dediklərinə də məhz bu kontekstdən yanaşmaq lazımdır: "Avropa Parlamentinə seçkilərin nəticələri Avropa İttifaqında və ayrı-ayrı dövlətlərin daxilindəki vəziyyətə əhəmiyyətli dərəcədə təsir edəcək. Avropa İttifaqının iki hərəkətverici qüvvəsində – Fransa və Almaniyada seçkilərin nəticələri bu dövlətlərin illərlə formalaşmış daxili siyasi ab-havasını xeyli dəyişəcək".

Avropa Parlamentinə seçkilərdə ifrat mərkəzçi–sağçıların qitənin Femidasının tribunasını ələ keçirmələri Fransa Prezidenti Emmanuel Makronu əməlli–başlı şoka salıb. Seçkinin nəticələrinə görə, Makronun rəhbərlik etdiyi İntibah partiyasının Avroparlamentdəki deputat yeri 102-dən 83-dək azalıb. Hazırda yerli medianın müzakirə etdiyi əsas mövzulardan biri Fransa liderinin yaxın ətrafı ilə parlament seçkilərində də sağçıların qalib gələcəyi təqdirdə vəzifəsindən istefa vermək variantı ətrafındadır. Bu barədə "Europe 1" radiostansiyası məlumat yayıb.

"Prezidentin istefası keçilməz tabu deyil. İndi bütün ssenariləri nəzərdən keçirmək məqamıdır", – radiostansiya Makronun yaxın adamlarından birinin bu sözlərini sitat kimi dövriyyəyə buraxıb. Doğrudan da, son günlər Makron yaxın silahdaşlarından biri ilə görülə biləcək son tədbirlərin "ssenarisini" müzakirə edibmiş.

Avropanın 27 ölkəsində gerçəkləşən seçkilərin heç də tam şəffaf və qüsursuz keçdiyini söyləmək olmaz. İndi müstəqil media qurumları seçki məntəqələrində qeydə alınmış texniki qüsurlarla yanaşı, seçkiöncəsi təbliğat kampaniyasında yol verilmiş qanun pozuntularından da bəhs edirlər. Bunlara misal olaraq, Belçikada səsvermə prosesinin gedişində elektrik cərəyanının kəsilməsi, məlumat bankının yerləşdirildiyi kompüterlərin sönməsi kimi xətalar baş verib. Əslində, korrupsiya faktları üzrə məhkəmə araşdırmalarının davam etdiyi Avropa Parlamentinə seçkinin tam demokratik və obyektiv keçiriləcəyini düşünmək də sadəlövhlük olardı.

* * *

Beləliklə, AP-yə seçkilərlə bağlı əksər ekspertlərin verdikləri bədbin proqnozlar özünü doğrultdu. Doğrudur, radikal sağçılar budəfəki seçkilərdə AP-dəki kürsülərinin sayını artırsalar da, mərkəzçi qüvvələr hələ də daha çoxsaylı fraksiyalara malikdir. Beynəlxalq analitiklər hesab edirlər ki, ifrat sağçıların uğurunu, əsasən, onların seçicilər arasında artan populyarlığı, eləcə də elektoratın həm öz ölkələrinin, həm də Aİ-nin rəhbərliyindəki sol mərkəzçi və populist qüvvələrdən, sadəcə, bezməsi şərtləndirib. Bununla belə, burada əsas məqamı qeyd etməyimiz vacibdir. AP-yə seçkilərdə ifrat sağçıların üstünlük qazanması təkcə Olaf Soltsun Almaniyada məğlubiyyətinin deyil, həm də Emmanuel Makronun Fransada yarıtmaz daxili siyasətinin qaçılmaz çöküşünün göstəricisidir.

Yelisey sarayının müvəqqəti sahibi ilkin nəticələrin elan olunduğu iyunun 9-da axşam saatlarında xalqa müraciətindən sonra başında durduğu İntibah partiyasının Avropa Parlamentinə seçkilərdə məğlubiyyətini etiraf etdi. Ardınca da Senatın aşağı palatası olan Milli Assambleyanın buraxıldığını elan etdi. Amma qarşıdakı parlament seçkilərində intibahçıların səslərin çoxunu qazanacağına heç kəs zəmanət verə bilməz. (AP seçkilərində Marin Le Penin rəhbərlik etdiyi sağçı Milli Birlik Partiyası Emmanuel Makronun partiyasından iki dəfədən də çox səs toplayaraq (14,5 faizə qarşı 31,5 faiz) təsirli qələbə qazanıb) Verilən son məlumatlarda qeyd olunur ki, Fransada parlament seçkilərinin birinci turu iyunun 30-da, ikinci turu isə iyulun 7-də baş tutacaq.

Bu arada "Associated Press" agentliyi maraqlı açıqlama yayıb. Nüfuzlu agentliyin seçkilərlə bağlı analitik məqaləsində bu ifadələr yer alıb: "Hazırda ifrat sağçılar Avropada miqrasiyadan təhlükəsizliyə və iqlimə qədər siyasi məsələlərdə əsas oyunçu olmağa hazırlaşırlar". Bu, heç də xoşagələn perspektiv deyil.

"Reuters" isə sağçı radikalların seçki uğurlarına baxmayaraq, Avropa Parlamentində hələ də aparıcı qüvvənin avropapərəst partiyaların olacağını yazıb.

* * *

Amma biz burada qərbli analitik və ekspertlərin toxunmaq istəmədikləri çox vacib bir məsələni qeyd etməyə bilmərik. Söhbət normal nizamı pozulmuş Avropada onsuz da tüğyan edən etnik və dini ayrı–seçkiliyin bundan sonra hansı tendensiya üzrə davam edəcəyi məsələsidir. Məgər İsveç, Norveç, Danimarka, Niderland paytaxtlarının mərkəzi meydanlarında müsəlmanların müqəddəs kitabı Quranı nümayişkaranə şəkildə yandıranlar həmin radikal sağçıların nümayəndələri deyildimi? Həmin Fransada milli mənsubiyyətinə və dini etiqadına görə ən çox təqiblərə məruz qalanlar bu ölkədə özlərinə sığınacaq tapmış əlcəzairlilər və mərakeşlilərdir. Daxildə despotik siyasət yürütmələri azmış kimi, bu ölkələr ara-sıra Azərbaycana qarşı da "səlib yürüşləri" təşkil edirlər. Bütün bunlar Avropanın siyasi isteblişmentinə yol tapmağa başlamış anti–Azərbaycan, anti-Türkiyə, anti-İslam dairələrin növbəti oyunlarıdır.

Yeri gəlmişkən, Azərbaycan üçün Avropa Parlamentinə budəfəki seçkilər kifayət qədər böyük əhəmiyyətə malik idi. Ən azı ona görə ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanmasında, iki ölkə liderinin görüşlərinin təşkilində əsas təşəbbüskar fiqur Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişeldir. Seçkinin nəticələri onu göstərdi ki, Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen öz postunu qoruyub saxlaya biləcək.

Bakı üçün xüsusi maraq kəsb edən digər məsələ isə Avropa İttifaqının təhlükəsizlik və xarici siyasət məsələləri üzrə ali komissarı Cozeff Borrellin seçkidən sonra öz vəzifəsində qalıb–qalmayacağıdır. Çünki onun ölkəmizə qarşı bir sıra hallarda qərəzli münasibətini görmüşük. Bizə ümid etmək qalır ki, Avropa Parlamentinə keçirilən seçkilərdə, bunun nəticəsində qitənin ümumi siyasi-coğrafi konfiqurasiyasında olimpə yüksəlmiş personalar Cənubi Qafqaz bölgəsinə, konkret olaraq, Azərbaycana münasibətdə korrektəli davranacaqlar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət Sadıxov,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Mərkəzçi-sağçıların Avropa Parlamentinə seçkilərdə üstünlük qazanmasının bir sıra səbəbləri var. Bunların sırasında Avropa ölkələrində, birinci növbədə, geosiyasi proseslərdə buraxılan səhvlər, miqrasiya problemi, eləcə də sosial məsələlər qeyd olunmalıdır. Səbəblərdən biri də solçuların həm daxili, həm də xarici siyasətdə buraxdıqları yanlışlıqlardır. Aydın məsələdir ki, sağçılar Avroparlamentə tam nəzarəti ələ keçirə bilməyəcəklər. Çünki qitənin bu ali qanunverici qurumunda Avropa Xalq Partiyasının fraksiyası yenə də üstünlüyə malikdir. Əlbəttə, bu da bir reallıqdır ki, hansısa qərarların qəbul olunmasında sağçılar, birmənalı olaraq, təsir və təzyiq göstərəcəklər. Ümumiyyətlə, avroparlamentarilər sənədlərin qəbulu zamanı bu təzyiqlə hesablaşmalı olacaqlar. Üstəgəl, AP-da dini və irqi ayrı-seçkiliyə meyillərin artacağını gözləmək olar.

Başqa bir problem ondan ibarətdir ki, sağçıların öz aralarında da siyasi mövqe müxtəlifliyi mövcuddur. Misal üçün, Fransa sağçılarının lideri Marin Le Pen Almaniya sağçıları ilə bəzi məsələlərə yanaşmada fərqli mövqe nümayiş etdirir. Bu, o deməkdir ki, bir çox qərarların qəbulu prosesində bu qüvvələr yekdil mövqedən çıxış etməyəcəklər. Hazırda sayları 720-yə çatdırılmış AP deputatlarının əksəriyyəti AXP üzvləridir və qurum onların nəzarəti altındadır. Hesab edirik ki, əgər sağçıların bu seçkilərdə qələbəsi real proses kimi qiymətləndirilirsə, eyni zamanda, mərkəzçilərin arxa plana keçəcəklərini gözləmək əbəsdir. Yenilənmiş qüvvələr nisbətində onlar da öz sözlərini deməyə qadir fraksiyadır.

# Yeni tarixi mərhələdə multiregionalizm və milli ideya

**II MƏQALƏ**

**Əvvəlki məqalədə güclü regional liderlikdən regionlararası geosiyasətin güclü oyunçusu statusuna yüksəlişin müstəqil dövlətçilik baxımından ciddi keyfiyyət transformasiyası olduğu tezisini irəli sürmüşdük. Onun istiqamətverici, müəyyənedici və strateji məqsədini formalaşdıran faktorunun milli ideya olduğunu vurğulamışdıq. Buradan başqa bir aktual politoloji məsələ meydana çıxır: Azərbaycanın xarici siyasətində yeni postmüharibə dövründə prioritet istiqamətlərdən biri olan multiregionallıq hansı məntiqlə özündə milli ideyanı daşıya bilər? Bunun fəlsəfi və politoloji əsası mövcuddurmu?**



Milli ideya elə bir məfhumdur ki, nəzəri ilə praktiki-tətbiqi tərəflərin vəhdəti kimi mövcud ola bilir. Nəzəri cəhətdən yüksək səviyyədə məzmuna malik olan milli ideyanın səmərəli və nəticəverici praktiki reallaşması olmayanda real mahiyyətini itirir. Sosial-mədəni, ideoloji və dövlətçilik kontekstlərində faktiki olaraq abstrakt hadisəyə çevrilir. Buna görə də hər bir tarixi dönəmdə milli ideya konkret praktiki funksiya yerinə yetirməyə əsas yaradan məzmuna malik olmalıdır. Onun xarici siyasətdə təzahür formalarından biri də dəqiq işlənmiş və strateji inkişaf hədəfinə uyğun olan proqramların hazırlanması, ardıcıl olaraq həyata keçirilməsidir. Azərbaycanın xarici siyasətində elə bir nümunə vardırmı ki, onu multiregionalizm kontekstində milli ideyanın təcəssümlərindən biri kimi mənalandırmaq mümkün olsun?

Biz iddia edirik ki, vardır. İki konkret multikultural xarakterli proqram–layihə mövcuddur ki, Azərbaycan yeni tarixi mərhələdə (postmüharibə dövrü) milli ideyasının əsas məzmununu onlara "proyeksiya" etməkdədir. Onlardan biri Türk Dövlətləri Təşkilatı (TDT) proqram-layihəsidir, digəri isə Qoşulmama Hərəkatı. Öncə vurğulayaq ki, bu proqram-layihələr müxtəlif geosiyasi, coğrafi, mədəni, siyasi, ideoloji və təhlükəsizlik şərtləri daxilində fərqli miqyaslarda milli ideyanın reallaşma məkanlarını formalaşdırırlar. Lakin bu mürəkkəb və xeyli riskli dinamikanın səmərəli və nəticəverici nəzəri-siyasi və diplomatik bazası vardır. Həmin bazanı ulu öndər Heydər Əliyev hazırlamışdır. Yeni tarixi mərhələdə Azərbaycan multikulturalizminin fəlsəfi və politoloji obrazını adekvat dərk etmək üçün onun izahına baş vurmalıyıq.

## Fəlsəfi və politoloji baza

Multiregionalizmin fəlsəfi və siyasi-nəzəri bazasını Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamının strateji dövlət quruculuğu konsepti və prinsipi kimi məzmunu təşkil edir. Burada "konsept" və "prinsip" terminləri təsadüfən işlədilmir – onlar baxılan kontekstdə konkret məzmun və funksiyaya malikdirlər.

"Konsept" termini "bir millət, iki dövlət" kəlamının konseptual olaraq özündə hər tarixi mərhələdə ehtiva etdiyi (daşıdığı) mənanın nəzəri özəlliklərini ifadə edir. Həmin özəllik "bir millət, iki dövlət"in statik deyil, dinamik məzmuna və məqsədə malik olması ilə bağlıdır. Bu keyfiyyət dövlət quruculuğu strategiyasında hədəfləri, məqsədləri və onlara çatmaq mexanizmlərini tarixi şəraitə adekvat olaraq yeniləşdirməyə əsas verir.

"Pirinsip" termini isə konseptuallıq çərçivəsində önə çəkilən mühüm faktorları konkret tarixi mərhələdə dəqiq müəyyən edilmiş mexanizmlər, qaydalar, layihələr vasitəsilə diplomatik üsulla reallaşdırmağı ifadə edir.

Multiregionalizm "bir millət, iki dövlət" kəlamının konseptual və prinsip aspektlərinin vəhdətində yeni tarixi mərhələdə milli ideyanı təcəssüm edə bilən istiqamətlərdən biri kimi özünü təsdiq edə bilir.

Dövlət quruculuğu kimi bu prosesin reallaşma mexanizmini də Heydər Əliyevin fəaliyyət dinamikasının sinerjisi müəyyən etməkdədir. Həmin sinerjinin reallaşma dinamikası aşağıdakı kimidir: dövlət quruculuğunun "Naxçıvan sinerjisi"nin "Azərbaycan sinerjisi"nə və oradan da hər iki sinerji növünün "Ümumtürk sinerjisi"nə transformasiyası.

Obrazlı desək, "bu üçsütunlu quruculuq sinerji"si "Bir millət, iki dövlət" kəlamı-konsepti-prinsipi çərçivəsində Azərbaycan multiregionalizmini, multikulturalizmini və multilateralizmini praktiki-tətbiqi aspektində səmərəli edir. O cümlədən, multiregionalizmin milli ideya ilə daxili fəlsəfi, siyasi-nəzəri və praktiki-tətbiqi bağlantısını da məhz vurğulanan strateji dinamika təmin edir.

Burada dövlət quruculuğunun daxili fəlsəfi, məntiqi və siyasi-nəzəri özəlliklərinin xarici siyasətə adekvat proyeksiyasında vacib rol oynayan bir xüsusiyyəti də vurğulamaq lazımdır. Həmin xüsusiyyət Azərbaycan–türk ruhsallığının tarixi miqyasda konkret enerjiyə çevrilə bilməsi potensialı ilə bağlıdır. Müasir mərhələdə həmin yüksək və dərin mənalı keyfiyyət "Naxçıvan sinerjisi"nin "Azərbaycan sinerjisi"nə transformasiyasının dinamikası və məzmunu ilə "Ümumtürk" sinerjisi"nə transformasiyanın oxşar olmasından qaynaqlanır. Bu məqam Ümummilli liderin dahiyanə siyasi-diplomatik töhfəsidir. Çünki həmin məqam həm dövlət quruculuğu ənənəsinin özünəxas təsdiqini, həm də hər bir tarixi mərhələyə uyğun türk dövlətçilik zəkasının çevik və kreativ (yaradıcı) uyğunlaşa bilməsi qabiliyyətinə malik olmasını ifadə etməkdədir.

Deməli, Heydər Əliyev elə bir nəzəri və siyasi-diplomatik tətbiqi real olan fəaliyyət sistemi qurmuşdur ki, onun daxili məntiqi Azərbaycanın bir regionunda (Naxçıvanda) başlanan müstəqil dövlət quruculuğu konsepsiyasını uğurla bütün ölkəyə transformasiya etməyə və oradan da ümumtürk miqyasına transformasiya etməyə (multiregional səviyyə) gerçək təməl yaratmışdır. Ümumiləşdirsək, belə bir mənzərə alınır: bir türk dövlətinin özünün konkret regionundan ölkə miqyasına keçidi, orada regional güc kimi möhkəmlənməsi və nəhayət, regionlararası məkanda real gücə çevrilməsi prosesi gedir. Yəni, burada region-ölkə-geniş məkanda region-multiregion silsiləsi yaranmışdır.

Belə çıxır ki, Azərbaycan multiregionalizmi dərin və dəqiq düşünülmüş dövlət quruculuğu strategiyasının həyata keçməsi punktlarından biridir. Yalnız bu keyfiyyətdə ölkənin xarici siyasətində postmüharibə mərhələsində prioritet statusa malikdir. Onda milli ideya Azərbaycan multiregionalizminin əsas məzmun faktorlarında biri kimi şübhə doğurmur!

Bunlarla bərabər aydın olur ki, ilk baxışdan sadə görünən və fəlsəfi anlamı dərinlərdə yerləşən "bir millət, iki dövlət" kəlamı böyük bir mərhələ üçün dövlət quruculuğunun incəliklərini belə özündə ehtiva edir. Və onların hər biri Ulu öndər tərəfindən dəqiq müəyyən edilmişdir. Yəqin buradan hər kəs üçün hansı səbəblərdən Azərbaycanda müstəqil dövlət quruculuğunun hər tarixi mərhələdə uğurlu olması səbəbi aydın olar.

Yuxarıda vurğuladığımız məqamları multiregionalizm konktestində ümumiləşdirək: multiregionalizm (o cümlədən, multikulturalizm, multilateralizm) öncədən Azərbaycanın müstəqil dövlət quruculuğu konsepsiyasında konkret məzmunda müəyyən edilmişdir. Multiregionalizm strateji fəaliyyətin mühüm faktoru kimi xarici siyasətdə yer almışdır. Bunun nəzəri və praktiki-tətbiqi aspektləri dəqiq işlənmişdir və yeni şərtlərə çevik və krativ reaksiya ilə daim reallaşmaqdadır.

Bu baza tezis əsasında TDT və Qoşulmama Hərəkatının multiregionalizm faktları kimi təhlilinə keçmək olar.

## TDT multiregional amil kimi

TDT bir neçə mənada multiregional faktor kimi dərk edilə bilər. O, coğrafi aspektdə regionlararası məkandır. TDT geosiyasi faktor kimi multiregional xarakterlidir. Türk Dövlətləri Təşkilatı iqtisadi, mədəni, nəqliyyat, loqistika, təhlükəsizlik, demoqrafiya və digər aspektlərdə multiregional məzmunludur. Bu mənaları ümumi halda Azərbaycan Prezidenti 7 təməl şərtlərdə ifadə etmişdir.

TDT-nin coğrafi aspektdə multiregionallığı Yaxın Şərq (Balkanlar və müəyyən dərəcədə Avropa), Qafqaz və Mərkəzi Asiyanı əhatə etməsi ilə əlaqəlidir. Su sərhədləri kontekstində Aralıq dənizi, Qara dəniz və Xəzəri əhatə edir. Coğrafi multiregionallıq geosiyasi multiregionallıqla sıx bağlıdır. Çünki həm Avropa–Qafqaz–Mərkəzi Asiya coğrafi mənzərəsi, həm də Aralıq dənizi–Qara dəniz–Xəzər dənizi hövzələri kontekstində regionlararası xarakterə malik müxtəlif geosiyasi əməkdaşlıq formatları təklif olunmuşdur. Məsələn, "Üç dəniz sistemi", Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və s.

Başqa əməkdaşlıq formatları da vardır. Onların sırasında TDT yeganə təşkilatdır ki, Yaxın Şərqi, Qafqazı və Mərkəzi Asiyanı türk dövlətləri üzvlüyü ilə əhatə edir və həm də başqa ölkələrin də daxil olmasına açıqdır. Bu o deməkdir ki, adındakı "Türk" sözü yalnız etnik mənsubluqla məhdudlaşmır. Bir təşkilat kimi TDT sülhə, barışa, təhlükəsizliyə və inkişafa açıq olan, münasibətlərə səmimiyyətlə yanaşan hər bir dövlətin üzvlüyünə açıqdır. Buna görədir ki, multiregional bir təşkilat kimi TDT Macarıstan və Gürcüstanı da tədbirlərinə dəvət edir.

Maraqlıdır ki, TDT-nin əhatə etdiyi regionların geosiyasi rolu ilə coğrafi multiregionallıqları arasında sıx bağlılıq vardır. Məsələn, dünyanın tanınmış politoloqları Yaxın Şərqin, Qafqazın və Mərkəzi Asiyanın coğrafi mövqelərinə görə geosiyasi əhəmiyyətini dəfələrlə vurğulamışlar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Cənubi Qafqazda sülh və Orta dəhliz məntiqi

**(əvvəli 1-ci səhifədə)**

Baş nazir N.Paşinyan və digər erməni rəsmiləri bildirirlər ki, Naxçıvana quru yolu Ermənistanın ərazi bütövlüyü və suverenliyi gözlənilməklə olmalıdır. Yəni, sərhəd və gömrük nəzarəti tətbiq edilməlidir. Azərbaycan məsələnin belə qoyuluşu ilə razılaşmır. Ona görə də Naxçıvana yolun Ermənistan deyil, İran ərazisindən keçməsini məqbul qiymətləndirir və buna dair Tehranla razılıq da var. C.O'Brayn isə ötən il ABŞ Konqresinin Nümayəndələr Palatasında konqresmenlərin suallarını cavablandırarkən bildirmişdi ki, ölkəsi Naxçıvana yolun İran ərazisindən keçməsinə razı deyil. Rəsminin sözlərindən belə çıxmışdı ki, Birləşmiş Ştatlar bütün mümkün imkanları ilə məsələnin reallaşmasına qarşı çıxacaq, hətta bu zaman Bakı təzyiq və sanksiyalarla üzləşəcək.

Əlbəttə, bu bəyanat ölkəmizdə haqlı hiddətlə qarşılanmışdı. Məsələyə Prezident İlham Əliyevin reaksiyası kifayət qədər sərt olmuşdu. Dövlətimizin başçısı bildirmişdi ki, heç bir dövlət Azərbaycanın xarici əlaqələrinə müdaxilə edə bilməz. Doğrudur, sonradan ABŞ-ın hərəkətləri bir qədər fərqli olmuşdu. 2023-cü ilin dekabrında C.O'Brayn İrəvanla yanaşı, Bakıya da səfər etmiş və səfərdən sonra Dövlət Departamenti belə bir məzmunlu məlumat yaymışdı: "Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn dekabrın 6-da Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə müsbət və konstruktiv görüş keçirib. Görüşdə ölkələrimizin dərin tarixi əlaqələri və ikitərəfli münasibətlərin əhəmiyyəti müzakirə olunub".

Sonda onu da deyək ki, indi Azərbaycan və ABŞ arasında münasibətlər gərgin sayıla bilməz. Bu səbəbdən hazırda ölkənin Dövlət Departamentinin rəsmisinin fikirlərini, o cümlədən, Ermənistana dəstəklə bağlı diqqətə çatdırdığımız mövqeyini qeyri-məqbul saymaq mümkünsüzdür. Hiss olunur ki, Vaşinqton İrəvanla münasibətlərdəki strateji xətti əsas götürür. Bu xətt Vaşinqtonun Cənubi Qafqaz maraqlarına xidmət etsə də, aşkar tərəfkeşlikdən uzaqdır. Eyni zamanda, demək olmaz ki, həmin maraqlar Azərbaycanın mənafelərinin heçə sayılması reallığını doğura bilər.

Erməni siyasilərin "Zəngəzur dəhlizi" xüsusundakı narahatlığına gəlincə isə, hesab edirik ki, burada da Vaşinqtonun strateji davranış xəttinin əlamətləri duyulur. Azərbaycan isə öz prinsipial və qətiyyətli baxışını aydın şəkildə ortaya qoyub. Deməli, belə nəticəyə gəlmək olar ki, O'Braynın Orta Dəhliz məntiqinə eyham vuran "Mərkəzi Asiyadan Aralıq dənizinə qədər regionda davamlı sülhün bərqərar olması, iqtisadi imkanların genişləndirilməsi" fikri, belə demək mümkünsə, regional kompromisin təzahürüdür. Ancaq, bu, hələlik ehtimaldır. Hadisələr hansı səmtə doğru inkişaf edəcəyini zaman göstərəcək. Nəzərə alaq ki, ABŞ rəsmisinin haqqında söz açdığı Azərbaycan–Ermənistan sülhünün əldə edilməsi də gedişatdan və səmimiyyətdən asılıdır.

***XQ-nin analitik mərkəzi***

# Sülhün səmt küləyi

## Vaşinqton və Paris sülhün finişə çatdığını düşünür

**Azərbaycan hakimiyyəti həm Vaşinqtonun, həm də Parisin Azərbaycanla Ermənistan münasibətlərinin normallaşması, sülhün ikitərəfli formatda əldə edilməsi üçün göstərdikləri səyləri, konkret olaraq, Almatı görüşünə müsbət yanaşmalarını, bu təşəbbüsü təqdir etmələrini yüksək qiymətləndirdiyini açıqlayıb.**



"Biz regionda uzunmüddətli sülhün bərqərar olması, Mərkəzi Asiyadan Aralıq dənizinə qədər iqtisadi imkanların genişləndirilməsi səylərinə dəstək veririk. Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaranarsa, bu imkanlar daha da genişlənəcək. Bu baxımdan, bu sahədə səyləri dəstəkləməkdən məmnunuq".

Bu sözləri ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn ABŞ–Ermənistan Strateji Dialoqunun dünən İrəvanda keçirilən yekun iclasında dilə gətirib. Yəni bu açıqlamanın özü rəsmi Vaşinqtonun son nöqtəsini gözləyən münaqişəyə bitərəf və obyektiv münasibətinin nümayişi kimi qəbul edilməlidir.

Rəsmi Bakı onların bu ədalətli mövqeyini hər zaman dəstəkləyib. Əslində, Azərbaycanın Ermənistanla münaqişənin lap başlanğıcından tutmuş 2020-ci ilin sentyabrına qədər sərgilədiyi, beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyi məhz bundan ibarət olub. İndi Azərbaycan regionda yaratdığı yeni siyasi reallığın, fərqli status-kvonun fonunda Avropadan və okeanın o üzündən eşitdiyi təqdiredici dəstəyi məmnunluqla qəbul edir. Çünki bu dəstək suverenlik, ölkələrin ərazi bütövlüyünə hörmət kimi BMT-nin təməl prinsipləri ilə üst-üstə düşür.

* * *

Fəqət sülh danışıqlarında vasitəçilik missiyaları başa çatmış Paris və Vaşinqtonun Bakı və İrəvana münasibətlərinin altqatında, azacıq da olsa, ikincinin mənafeyinin güdüldüyü daim hiss olunub. ABŞ və Fransanın Bakının keçmiş həmsədrlərini tarixin arxivinə göndərdiyi ATƏT-in Minsk qrupunu hansı məqsədlə "diriltməyə" çalışdıqları da məlum idi. Bu "ssenari" də baş tutmayanda, ABŞ və Fransa Bakı və İrəvan arasında son mərhələyə çatmış sülh danışıqlarına müdaxilə etməklə, ilk növbədə, Cənubi Qafqazda mövcudluqlarını legitimləşdirməyi hədəfləyirlər. Onların ikinci hədəfi isə Bakı ilə dialoqda İrəvanın mövqeyini gücləndirmək və ona "beynəlxalq təhlükəsizlik çətirini" yaratmaqdır. Belə cəhdlər ilk dəfə deyil ki, edilir.

Açıq söyləmək lazımdır ki, Fransa bu gün də Azərbaycanın ərazi bütövlüyü ilə yaratdığı yeni reallığı qəbul etmək istəmir. Parisin istər 44 günlük müharibənin gedişindən, istərsə də Qarabağın işğaldan azad edilməsi ilə nəticələnən zəfərimizdən sonra yeritdiyi açıq ermənipərəst siyasət bunu sübut edir.

Bəli, Azərbaycan Prezidenti Fransanı Cənubi Qafqazda sülh və əmin-amanlığa əngəl olmaqda, birtərəfli qaydada İrəvanı dəstəkləməkdə ittiham edib. Ola bilsin ki, Makron hökuməti bundan bir nəticə çıxarıb. İntəhası, bölgədə cərəyan edən son proseslər, xüsusilə, Azərbaycanla Ermənistan arasında vasitəçisiz, birbaşa sülh danışıqları, sərhədlərin delimitasiyası istiqamətində atılan konkret addımlar Parisi də qeyri-ixtiyari hərəkətə gətirib. Bu da təsadüfi deyil. Çünki rəsmi Bakının neokolonializmə qarşı apardığı beynəlxalq kampaniya, Bakı Təşəbbüs Qrupunun Afrikadakı effektiv fəaliyyəti Parisi öz hərəkətlərində qayda yaratmağa vadar edib. Axı, Azərbaycanın bu kimi beynəlxalq təşəbbüsləri Fransanın keçmiş müstəmləkələrindən qovulması ilə nəticələnib.

* * *

ABŞ Dövlət Departamentinin ardınca Fransa Xarici İşlər Nazirliyi mayın 10 və 11-də Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların növbəti raundunun keçirilməsini alqışladığını bəyan etdi. XİN-in bəyanatında deyilirdi ki, Paris 2022-ci il oktyabrın 7-də Praqada keçirilən dördtərəfli görüşə uyğun olaraq bu proses üçün əsas kimi 1991-ci il Alma-Ata Bəyannaməsinə, onların ərazi bütövlüyünün qarşılıqlı tanınmasına bağlı olduqlarının hər iki tərəfin təsdiqləməsinin vacibliyini vurğulayır".

Daha sonra Fransa XİN bu kontekstdə 19 aprel 2024-cü il tarixdə razılaşdırılmış prinsiplər əsasında və yerlərdə aparılan ilk demarkasiya işlərinin davamı olaraq başlanmış prosesi, eyni zamanda, iki ölkə arasında sülh müqaviləsinin imzalanması məqsədilə müzakirələri davam etdirməyə çağırıb. Həmin bəyanatda diqqəti cəlb edən əsas məqam Fransanın beynəlxalq hüquqa uyğun olaraq, Cənubi Qafqazda ədalətli və davamlı sülhün bərqərar olması üçün öz tərəfdaşları ilə birgə fəaliyyətini davam etdirəcəyini bildirməsidir.

"Tərəfdaşlar" dedikdə Parisin Moskvanı deyil, Vaşinqtonu nəzərdə tutduğu aydın məsələdir. Amma bunu xüsusi olaraq vurğulamağa ehtiyac var ki, Paris ilk dəfə idi bu jesti edirdi. Deməli, Emmanuel Makron hökuməti ilk dəfə iki ölkə arasında gedən sülh danışıqlarını alqışladığını bildirib və bu istiqamətdə gedən prosesə müsbət mövqe sərgiləyib. Görəsən, bu addımı atmağa onu hansı səbəblər vadar etdi?

Burada ən müxtəlif ehtimal və fərziyyələr irəli sürmək mümkündür. Önəmlisi odur ki, Paris ilk dəfə Azərbaycanla Ermənistan arasında sülh prosesinə dəstək nümayiş etdirən bəyanatla çıxış etdi, prosesin müdafiəçisi kimi aydın mövqe sərgilədi. İntəhası, bu zaman Yelisey sarayının nə qədər səmimi olduğunu yaxın gələcək göstərəcək.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında Ermənistanla sülh müqaviləsinin imzalanmasının "Qafqaz evi"nin bütün sakinlərinin tərəqqisinə səbəb olacağını birmənalı şəkildə bildirib. Rəsmi Bakının dediyi sözünün arxasınca gələn konkret əməli addımlarını bu gün beynəlxalq birlik izləyir. Sadəcə izləmir, həm də təqdir edir, qiymətləndirir. Bu prizmadan yanaşsaq, ATƏT-in keçmiş Minsk qrupunun iki üzvü – ABŞ və Rusiyanın Bakı və İrəvan arasında baş tutan əvvəlki sülh danışıqlarını alqışlamaları da təsadüfi sayılmamalıdır.

Yeri gəlmişkən, ATƏT-in fəaliyyətdə olan sədri Yan Borq da iki ölkə arasında sabit və hərtərəfli sülhə nail olmağın onlar üçün prioritet təşkil etdiyini bəyan edib: "Dialoq və diplomatiya yeganə yoldur. Biz əminik ki, hərtərəfli nizamlanmaya nail olmaq üçün ikitərəfli səmərəli dialoq lazımdır. Sərhədlər məsələsində əldə olunan irəliləyiş, şübhəsiz ki, bu yolda atılan mühüm addımdır".

Artıq sirr deyil ki, Hayastanda davam edən etiraz aksiyaları, Nikol Paşinyanın baş nazir postundan istefası tələbi rəsmi Parisə qətiyyən sərf eləmir. Yelisey sarayının fikrincə, bu etiraz dalğasının arxasında Rusiya dayanır. Fəqət Kremlin Ermənistanda özünün əvvəlki təsir gücünü bərpa etməsi heç bir halda Fransanın işinə yaramır. Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqlarla bağlı Parisin mövqeyinin yumşalması həm də bu səbəblə əlaqədardır.

O ki qaldı, ABŞ, Fransa və Rusiyanın 28 il həmsədrliyini etdikləri ATƏT-in Minsk qrupunun aqibətinə, onlar bu missiyanı planetin başqa qaynar nöqtələrində davam etdirə bilərlər. Əlbəttə, əgər öz aralarında razılığa gələ bilsələr...

***İ.HƏSƏNQALA***
***XQ***

# Türk dünyasında iqtisadi ortaqlıq örnəyi

**Azərbaycan–Türkiyə iqtisadi əlaqələri ümummilli lider Heydər Əliyevin vurğuladığı "bir millət, iki dövlət" deyiminə və tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanır, eyni zamanda, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Qardaş ölkə ilə iqtisadi əlaqələr dərin tarixi köklər üzərində qurulsa da, bu istiqamətdə əməkdaşlığın daha da möhkəmlənməsi, geniş vüsət alması müstəqilliyimizin əldə olunmasından sonrakı dövrə təsadüf edir.**

İki ölkə arasında hazırda tranzit-logistika, gömrük, İKT, ticarət və s. sahələrdə əlaqələrin genişləndirilməsi, Qarabağın işğaldan azad edilməsi ilə əlaqədar yaranmış yeni reallıqlara uyğun olaraq bu coğrafiyada həyata keçirilən bərpa-quruculuq layihələri diqqət mərkəzində saxlanılır. Bütün bunlarla bərabər, Azərbaycan–Türkiyə arasında Preferensial Ticarət Sazişinə əsasən, qarşılıqlı ticarət həcminin və məhsul çeşidinin artırılmasına xüsusi önəm verilir.



Hazırda Türkiyə 15 faizlik pay ilə İtaliyadan sonra Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır. 2023-cü ildə qardaş ölkə ilə Azərbaycanın ticarət dövriyyəsi 7 milyard 650 milyon dollarıdək yüksəlib. Bu, 2022-ci illə müqayisədə 30 faiz artım deməkdir. Hədəf yaxın illərdə ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır.

Ötən il Azərbaycanın Türkiyəyə ixracatı 5 milyard 359 milyon dollar, qardaş dövlətdən idxalımız isə 2 milyard 291 milyon dollar olub. Digər tərəfdən, Türkiyə hesabat ilində respublikamızın 3 milyard 348 milyon dollarlıq qeyri-neft ixracatının 23,4 faizini formalaşdırıb.

Bu ilin ilk rübündə isə ölkələr arasındakı ticarət dövriyyəsi 1 milyard 469 milyon dollar olub. Tərəflər qeyri-enerji sektoru üzrə əməkdaşlığı gücləndiriblər. İki ölkə arasındakı sərmayə qoyuluşunda da kəskin artımlar müşahidə edilməkdədir.

Qardaş ölkələr arasında ticarət dövriyyəsindən danışarkən, 2020-ci il iyulun 1-də təsdiq edilən Azərbaycan–Türkiyə Preferensial Ticarət Sazişinin mühüm önəmini xatırlatmaq istərdik. Yeri gəlmişkən, bu sazişdən əvvəl Türkiyə Azərbaycan bazarında yüksək tariflər və kvotalar nəticəsində azad ticarət sazişinin üstünlüklərindən yararlanan MDB ölkələri ilə qiymət rəqabətində uduzur və respublikamızla xarici ticarətində mövcud potensialından daha aşağı nəticə göstərirdi. Bu saziş isə 15 məhsul qrupunda tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılması ilə iki ölkə arasında xarici ticarət dövriyyəsini artırdı və ölkələrin qarşıya qoyduqları xarici ticarət dövriyyəsi hədəfinə çatmasını sürətləndirdi. Eyni zamanda, ticarət həcminin böyüməsi iqtisadi əlaqələrin inkişafını və ədalətli rəqabət üçün əlverişli mühitin yaradılmasını təmin etməklə hər iki ölkəyə investisiya qoyuluşunu da şərtləndirdi.

Bu gün Türkiyə Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya qoyan ölkə olaraq diqqət çəkir. Respublikamız isə Türkiyədə əsasən energetika və kimya sahələrinə kapital axını yaradır.

Azərbaycanın qardaş ölkəyə yönəltdiyi ən böyük birbaşa xarici investisiya "SOCAR Turkey"in icra etdiyi layihələrlə bağlıdır. Bu şirkət ilk olaraq 2008-ci ildə "Petkim"in səhmlərinin satın alınması ilə Türkiyənin energetika bazarına daxil olub. Bu investisiya ilə hazırda tərəfdaş ölkənin neft-kimya xammalı tələbatının 18 faizi qarşılanır.

"SOCAR Turkey" Türkiyənin və regionun enerji təhlükəsizliyinin təminatında mühüm əhəmiyyəti olan bir sıra layihələri reallaşdırıb. Bu investisiyalar əsasən neft-kimya emalı və təbii qaz sektorlarını əhatə edir. Belə layihələrə 6,3 milyard dollar investisiya məbləği ilə qurulan, 2019-cu ildə İzmirin Əliağa limanında fəaliyyətə başlayan və hazırda Türkiyənin ilkin emal olunan neft ehtiyacının 25 faizini qarşılayan "Star" neft emalı zavodu (NEZ) misal göstərilə bilər.

Adıçəkilən NEZ Türkiyənin enerji kəsirinin ən mühüm komponenti olan mayeləşdirilmiş neft qazını, təyyarə yanacağının istehsalını reallaşdırmaqla qardaş respublikaya illik, təxminən, 1,5 milyard dollar qənaət etməyə imkan yaradır.

Yeri gəlmişkən, bir neçə gün bundan əvvəl Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Haliç Konqres Mərkəzində Türkiyə İxracatçılar Məclisinin (TİM) təşkilatçılığı ilə "2023-cü il ixracat çempionları"nın mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Türkiyədə ötən il ərzində ən çox ixracat həyata keçirən ilk 10 şirkətə mükafatlar təqdim olunub.

Qeyd edək ki, TİM tərəfindən açıqlanan "2023-cü il ixracat çempionları" siyahısına əsasən, qardaş ölkənin ən böyük birbaşa xarici investoru və inteqrasiya olunmuş sənaye qrupu olan "SOCAR Türkiyə"nin "STAR" NEZ Türkiyə üzrə ümumi məhsul ixracatı dəyərinə görə 3-cü yerə layiq görülüb.

"STAR" NEZ, həmçinin "Kimyəvi maddələr və məhsullar"ı kateqoriyası üzrə birinci olub. Prezident Rəcəb Tayyib Ərdoğan "STAR" NEZ-in ixracat çempionu mükafatını SOCAR-ın prezidenti Rövşən Nəcəfə təqdim edib. "STAR" NEZ-in "Kimyəvi maddələr və məhsullar"ı kateqoriyası üzrə birincilik mükafatı isə Türkiyə Respublikasının ticarət naziri Ömər Bolat tərəfindən SOCAR prezidentinə təqdim olunub.

Azərbaycan, eyni zamanda, Türkiyənin alternativ enerji sektoruna da investisiya qoyur. Bu sahədə enerji xərclərinə qənaəti və ətraf mühitin qorunmasını hədəfləyən "Petkim" külək enerjisi stansiyası ("Petkim" RES) xüsusi vurğulanmalıdır. "Petkim" RES-in istifadəyə verilməsi ilə İzmirin Əliağa ərazisində buraxılan karbon emissiyaları 120 min ton azalıb və elektrik enerjisi istehsal gücü 22 faiz artıb.

Energetika sahəsində istehsal və emaldan başqa, enerjinin paylanılması, daşınması və kommunikasiya sistemlərinin inkişafı ilə bağlı SOCAR-ın Türkiyədə əhəmiyyətli investisiyaları var. Bu investisiyalara "SOCAR Terminal", "SOCAR Dağıtım", "SOCAR Depolama" və bir sıra əhəmiyyətli satınalmalar misal göstərilə bilər.

**Ekspert rəyi**



**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir. Bu layihələr 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib.

İki ölkənin tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsində, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və müddətin qısaldılmasında, ölkələrimizin strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu dövlətlərin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin çoxalmasında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir.

Hazırkı iqtisadi tərəfdaşlıq Türkiyə və Azərbaycanın həm ölkə, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artmasında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı var. Hər iki ölkə liderləri tərəfindən mövcud iqtisadi əlaqələrin inkişafı üçün səy göstərilir.

Burada tarixi önəm daşıyan bir məsələyə də toxunmaq istərdim. Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında azad edilən ərazilərin bərpası prosesindən danışarkən bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayıb. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışıb, bu dövlətin Vətən müharibəsinin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkə Qarabağ və Şərqi Zəngəzurun bərpasında da köməyini əsirgəməyib.

Türkiyə şirkətlərinin Qarabağın yenidənqurma işlərində səmərəli iştirakından bəhs edən Prezident İlham Əliyev deyib: "Ümumilikdə, Türkiyə şirkətləri Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan müxtəlif inşaat layihələrində iştirak ediblər. Əlbəttə ki, işğaldan azad edilmiş torpaqlarda da Türkiyə şirkətləri uğurlu fəaliyyət göstərəcəklər".

Hər iki ölkənin rəhbəri tərəfindən Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, enerji, sənaye, kənd təsərrüfatı, humanitar və digər istiqamətlərdə əlaqələrin inkişaf dinamikası daim təqdir edilib. Türkiyənin Azərbaycanın həm idxalda, həm ixracda, həm də xarici ticarət dövriyyəsində əsas tərəfdaşlarından biri olmasından məmnunluq ifadə olunub.

2023-cü ildə qarşılıqlı ticarətin 31 faiz artaraq rekord 7,65 milyard ABŞ dollarına yüksəlməsi, ticarət dövriyyəsinin həcminin 15 milyard ABŞ dollarına çatdırılması ilə bağlı dövlət başçıları tərəfindən qarşıya qoyulmuş hədəfə nail olmaq üçün hökumətlərin bundan sonra da birgə səy göstərmək əzminin diqqət çəkməsi iki qardaş ölkə arasında əməkdaşlığın ən yüksək səviyyəyə çatmasından xəbər verir. Bu yüksək göstəricilərin əldə edilməsinə isə şübhəsiz ki, Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi, həmçinin iki ölkə arasında imzalanan fəaliyyət planlarının icrası əhəmiyyətli təsir göstərir.

Bütün bunlarla yanaşı, nəqliyyat sahəsində əməkdaşlığın inkişafı, Bakı-Tbilisi-Qars dəmir yolunun tranzit imkanlarının genişləndirilməsi nəticəsində iki ölkə arasında ümumi daşınmış yüklərin həcminin 42,5 faiz artması da mühüm göstərici kimi diqqət çəkir. Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması, Azərbaycan tərəfinin artıq Naxçıvanda müvafiq dəmir yolu xəttinin yenidən qurulması işlərinə başlaması isə ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır.

Nəqliyyat sahəsində gündəlikdə duran bütün məsələlər müsbət məcrada həll edilib. Azərbaycana daxil olan Türkiyə avtodaşıyıcılarından alınan bəzi yol vergiləri və rüsumları ləğv olunub. Eyni zamanda, avtomobil daşımaları üçün mübadilə edilən icazə blanklarının sayı əhəmiyyətli dərəcədə artırılıb.

Azərbaycanla Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən investisiya qoyuluşu, bərpaolunan enerji, kənd təsərrüfatı, su resurslarının idarə edilməsi, xüsusilə Araz və Kür çayları hövzəsinin su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi, iqlim dəyişikliyi ilə mübarizə, COP29-a hazırlıq, səhiyyə, mədəniyyət, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər də bu gün diqqət mərkəzində saxlanılır və yüksək nəticələr gerçəkləşdirilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# TANAP: Azərbaycandan Türkiyəyə qaz dəhlizi

## *6 ildə bu kəmər qardaş ölkəyə 35 milyard kubmetr mavi yanacaq axıdıb*

**(əvvəli 1-ci səhifədə)**

TANAP layihəsi Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin mərkəzi və əsas hissəsi olan bir layihədir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməridir. TANAP layihəsi Gürcüstan–Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə inteqrə edilərək Türkiyə ərazisindən keçməklə Türkiyə–Yunanıstan sərhədində başa çatır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilir.

Trans-Anadolu boru kəməri və bütövlükdə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətinin uğurudur. Ölkəmiz əvvəllər qaz ehtiyatlarını dörd istiqamətdə ixrac etmək imkanına malik olsa da, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib. Beləliklə, Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib. Azərbaycan qazının Avropaya nəqli üçün ən etbarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans-Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir. Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: "TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, danışdığımız kimi, yaxın beş ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək".

Xatırladaq ki, TANAP layihəsi 2011-ci ildə həyata vəsiqə alıb. Həmin il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanıb. Həmin il dekabrın 26-da "Türkiyə ərazisində magistral qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılması haqqında" Azərbaycan və Türkiyə hökumətləri arasında Anlaşma Memorandumu imzalanıb. Növbəti ildə isə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. 2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) sisteminə dair" Saziş imzalanıb. Həmin il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənib. Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyə ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" sazişin təsdiq edilməsi haqqında" Qanunu imzalaması ilə Azərbaycanı Avropa ölkələrinin qaz bazarlarına birləşdirən Trans-Anadolu ixrac boru kəmərinə dair hüquqi bazanın formalaşdırılması başa çatdırılıb.




Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, beş il vaxt sərf olunub. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə keçən il noyabrın 30-da istifadəyə verilib. Ötən müddətdə boru kəməri vasitəsilə 70 milyard kubmetrdən çox Azərbaycan qazı nəql olunub ki, bunun da tən yarısı Türkiyə bazarına çatdırılıb.

Bununla da, Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb. TANAP Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox "maye yanacağ"ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir. Sözügedən TANAP layihəsi, həmçinin Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradır. Gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulması ilə Azərbaycan, həm də qaz nəqlində transit ölkəyə çevrilmək imkanı əldə edəcək.

TANAP kəməri Türkiyənin şərqindən qərbinə qədər 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan–Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə–Yunanıstan sərhədinədək olan hissəni əhatə edir. Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Maksimum hündürlüyü dəniz səviyyəsindən 2700 metr olan TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. İllik maksimum ötürücülük qabiliyyəti 30,7 milyard kubmetrə hesablanmış kəmər ilkin mərhələdə ildə 16,2 milyard kubmetr qaz nəql etmək imkanına malikdir. Kəmər boyunca 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də 4 qaz sərfini ölçmə stansiyası quraşdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi”nin 7.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“7.2. Mərkəz “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.”.

**2.** “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş “Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi”nin 7.3-cü bəndində “maliyyə hesabatlarını” sözləri “hesabatları” sözü ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Dövlət Məşğulluq Agentliyinin Nizamnaməsi”nin 7.2-ci bəndində “maliyyə hesabatlarını” sözləri “hesabatları” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2024-cü il**

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir**

### “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı

| Sıra №-si | Fəaliyyət növünün adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması |

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir**

### “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı

| Sıra №-si | İcazənin adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına, o cümlədən ölkə ərazisindən tranzit keçirilməsinə icazə |
| 2. | Gəmi agenti xidmətlərinin göstərilməsi üçün sertifikat |
| 3. | “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə (“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən tikilən və ya təmir edilən gəmilər üçün lazım olan malların idxalı üzrə) |

## Qafqaz Müsəlmanları İdarəsinin xalqımıza Qurban bayramı təbriki

**Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib. Bu barədə XQ-yə QMİ-nin mətbuat xidmətindən məlumat verilib.**

Fətvada mübarək Qurban bayramının gəlişi ilə bağlı bildirilir ki, bütün səmavi dinlərin əziz tutduğu, Həzrət İbrahim əleyhissalamın əhdi və Həzrət İsmayıl əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün əsrlər boyudur ki, dünyamıza ümumbəşəri birlik və insanpərvərlik mesajını çatdırır: “Şükürlər olsun ki, həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan müqəddəs Qurban bayramını xalqımız Zəfər abu-havasında - separatçı rejimin süqutu, müqəddəs bayrağımızın Xankəndidə, Əsgəranda, Xocalıda dalğalanması, Qarabağ məscidlərinin bərpası, Zəngilan məscidinin nəfis şəkildə yenidən inşası, minarələrimizdən ucalan azan sədalarının qüruru ilə qarşılayır”.

Daha sonra qeyd edilir ki, müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə Böyük Qayıdışın ruh yüksəkliyi yaşanır, ata-baba torpaqlarına qayıdanlar dualarla İsmayıl qurbanı ibadətini yerinə yetirirlər: “Bu şərəfi və qüruru bizə yaşadan, Azərbaycan tarixində Qarabağ fatehi və böyük Qayıdışın müəllifi adlarını qazanan, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpası kimi tarixi vəzifəni yerinə yetirən dövlətimizin başçısı İlham Əliyevə, eləcə də bu çətin yolda yaxın sirdaşı və yoldaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, bütün ailə üzvlərinə dindarlarımız adından dərin minnətdarlığımızı bildiririk”.

Müsəlman aləmi üçün əziz olan mübarək Eyd-əl-Əzha ərəfəsində Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası ənənəvi olaraq Qurban bayramına dair tövsiyələrini çatdırmağı vacib bilir: “Bildiririk ki, Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulmuşdur. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl, qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savab sayılır. Unutmaq lazım deyil ki, Uca Allah müqəddəs “Qurani-Kərim”də qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: “Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır”.

Fətvanın sonunda deyilir ki, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccə ayının 10-na – Miladi təqvimlə iyunun 16-na təsadüf edəcək. Şəriətə uyğun olaraq Qurban kəsimi iyunun 16-dan başlayaraq üç gün davam edə bilər. İyunun 16-da məscidlərimizdə bayram namazları qılınacaq: “Bu əziz bayram münasibətilə Qafqaz Müsəlmanları İdarəsi və onun rəhbərliyi Azərbaycan xalqını və bütün dünya müsəlmanlarını təbrik edir, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan raz-niyaz ilə diləyir. Allah-taala dua və ibadətlərinizi qəbul etsin, Qurban bayramınız mübarək olsun!”.

***XQ***

# Radikallar İrəvanda qan tökməyə də hazırdırlar

**Ermənistanda siyasi vəziyyət gərgin olaraq qalmaqdadır. Aprelin 19-da Azərbaycanla delimitasiya və demarkasiya sahəsində əldə olunan razılaşmanı birtərəfli güzəşt kimi qiymətləndirən, Qazax rayonunun işğal altındakı 4 kəndinin ölkəmizə qaytarılmasını, necə deyərlər, əllərində bayraq edən radikal müxalifət təmsilçiləri gərginliyin tempinin aşağı düşməməsi üçün bütün vasitələrdən istifadə edirlər.**



Hakimiyyətdə olduqları 20 ildən artıq dövr ərzində ölkəni çapıb-talayan, yeraltı-yerüstü sərvətlərini mənimsəyən, ordunu zəlil günə qoyan, bununla kifayətlənməyib diaspor tərəfindən göndərilmiş pulları da dədə malı kimi qatlaylb ciblərinə dürtən Koçaryan–Sarkisyan tandemi, onların əlaltıları öz ayıblarına kor olmaqdansa, ölkənin üzləşdiyi bütün çətinliklərə görə baş nazir Nikol Paşinyanı ittiham etmək yolunu tutublar. Onlar Ermənistan ordusunun müharibədəki məğlubiyyətini də Paşinyanın üzərinə atırlar. Düzdür, Paşinyan müharibənin başlanmasına rəvac verəcək çox addımlar atdı, faktiki olaraq onun təxribatçı hərəkətləri üzündən danışıqlar prosesi pozuldu. Amma müharibə başlananda Nikol cəmi 2 il 4 ay idi ki, hakimiyyətə gəlmişdi. Bu mənada Azərbaycanın məhv etdiyi, diz çökməyə məcbur etdiyi ordu Koçaryan–Sarkisyan cütlüyünün qurub-yaratdıqları silahlı birləşmələr idi.

İyunun 10-da Ermənistan parlament şurasının müxalifətin baş nazirə etimadsızlıq göstərilməsi, hökumətin istefası və yeni hökumətin formalaşdırılması məsələsinin müzakirəsi üçün iyunun 11-də növbədənkənar iclas keçirilməsi tələbini rədd etməsi də revanşistləri inadkar davranış nümayiş etdirməkdən çəkindirə bilməyib. Qeyd edək ki, növbədənkənar iclas keçirilməsi tələbini rəsmi şəkildə parlamentdəki müxalif “Hayastan” və “Şərəfim var” fraksiyaları irəli sürmüşdülər. Şura müxalifət fraksiyalarının təklifini rədd etdiyi üçün “Ermənistan parlamentinin reqlamenti haqqında” qanuna əsasən parlamentin növbədənkənar sessiyası beş iş günü ərzində, yəni, iyunun 17-də yerli vaxtla saat 18:30-dək çağrılmalıdır.

Artıq növbədənkənar iclasın nə vaxt baş keçiriləcəyi məlumdur. Müxalif deputatların tələbi ilə növbədənkənar iclas reqlamentdə nəzərdə tutulduğu vaxtda, yəni iyunun 17-də, saat 18:30-da başlanacaq. İyunun 10-da günortadan sonra parlamentin sədri Alen Simonyan bununla bağlı sərəncam imzalayıb. Ermənistan konstitusiyasının 100-cü maddəsinə əsasən, parlament deputatların belə bir təşəbbüsünü müzakirəyə çıxarmalıdır. Bu baxımdan revanşistlər hazırda bütün ümidlərini növbədənkənar iclasa bağlayıblar. Onların yanaşma tərzinə, siyasi mübarizə üsullarına əsasən, demək olar ki, həmin gün revanşistlərin istədikləri nəticəyə nail olmaları üçün parlamentə hücum etmələri, digər təxribatlar törətmələri istisna olunmur. Müxalif deputatlar parlament daxilində, tərəfdarlar isə qanunverici orqanın yaxınlığında istədiklərinə nail olmağa çalışacaqlar.

Qeyd edək ki, bir palatalı Ermənistan parlamentinin 107 deputatı var. Parlament 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar seçkinin nəticələrinə əsasən formalaşıb. Qanunverici orqanda 3 fraksiya mövcuddur. Bunlar hakim “Mülki müqavilə”, “Hayastan” və “Şərəfim var” fraksiyalarıdır. Hakim fraksiyada 71, “Hayastan”da 29, “Şərəfim var”da isə 7 deputat təmsil olunur. Göründüyü kimi, qüvvələr nisbəti hakimiyyətin xeyrinədir. Ötən müddət ərzində hakimiyyətin monolitliyi də diqqəti cəlb edib. Hökumət komandasının heç bir üzvü, yaxud deputat müxalifətin tərəfinə keçmədi. Elə iyunun 17-də keçiriləcək iclasla bağlı da hakim düşərgənin əvvəlki yekdil mövqeyni nümayiş etdirəcəyi gözlənilir. “Mülki müqavilə” fraksiyasının rəhbəri Ayk Konjoryan bildirib ki, onlar qanuna uyğun olaraq, iyunun 17-də keçiriləcək növbədənkənar sessiyada iştirak etməyəcəklər.

Ermənistanda gündəlik nəşr olunan “Joxovurd” qəzeti dünənki sayında yazıb ki, “Mülki müqavilə” fraksiyası parlamentin müxalifətin təşəbbüsü ilə keçiriləcək iclasında iştirak etməməyə qərar verib. Yazıda bildirilib ki, fraksiyanın iyunun 10-da keçirilən toplantısında yetərsayın təmin edilməməsi ilə bağlı yekdil qərar verilib: “Fraksiyada bu məsələ ilə bağlı fikir ayrılığı müşahidə edilməyib. İclasda iştirak edən hər kəs etiraz aksiyalarına baxmayaraq, impiçment məsələsinin müzakirəyə çıxarılmasının əleyhinə olub”.

Üstəlik, hökumət polisin, digər hüquq-mühafizə orqanlarının potensialından da maksimum səmərəli istifadə etməkdə qərarlıdır. Dünən səhər saatlarından İrəvana aparan bütün yollarda postlar qurulub. Polis əməkdaşları sürücülərin sənədlərini, eləcə də avtomobillərin yük yerini təftiş edir. Ararat vilayətində və Dərələyəz mahalında (haylar “Vayoçdzor” deyirlər–S.H.) da polis gücləndirilmiş iş rejiminə keçib. Bu istiqamətlərdə də paytaxta və geriyə hərəkət edən avtomobillər ciddi şəkildə yoxlanır.

Radikalların yaratdıqları “Vətən naminə Tavuş” hərəkatının iştirakçıları öz ənənələrinə sadiq qalaraq, dünən yenidən paytaxt İrəvanın mərkəzində yürüş keçiriblər. “Sputnik Ermənistan” xəbər verir ki, İrəvanın mərkəzindən keçən Baqramyan prospektində çadırlar quran etiraz hərəkatının iştirakçıları şəhərdə digər şəxslərin keçirdikləri vətəndaş itaətsizliyi aksiyalarına qoşulmaq qərarına gəliblər. Onlar parlamentin “Hayastan” fraksiyasından olan deputatı Qarnik Danielyanın rəhbərliyi ilə Maştots prospektinə doğru gediblər. Yürüşün marşrutu açıqlanmayıb. “Biz planları açıqlamırıq, çünki hakimiyyət qabaqlayıcı tədbirlər görə və onların həyata keçirilməsinə mane ola bilər” – deyə Danielyan bildirib.

Qeyd edək ki, dünən səhər etiraz hərəkatının iştirakçıları Vardanants və Nalbandyan küçələrini zibil qutuları ilə bağlayıblar. Myasnikyan prospektində isə fəallar metal zəncirlə yola qismən sədd çəkiblər. Polis onu çətinliklə sındırmalı olub. Həmçinin, Azatutyan (Azadlıq) prospektində də nəqliyyatın hərəkəti dayandırılıb.

Aksiya barədə bir gün əvvəl hərəkatın lideri, arxiyepiskop Baqrat Qalstanyan məlumat verib. Onun sözlərinə görə, hərəkat üçün ən vacib gün 12 iyun olacaq. O, vətəndaşları həmin gün Baqramyan prospektində, Ermənistan parlamentinin yanında toplaşmağa çağırıb.

Xatırladaq ki, “Vətən naminə Tavuş” etiraz hərəkatının iştirakçıları çadırlar quraraq gecəni İrəvanın mərkəzindəki Baqramyan prospektində keçiriblər.

Bu arada “Baqramyan 26” teleqram kanalı etirazçıların güc yolu ilə hakimiyyəti devirməyə çalışdıqlarına dair məlumat yayıb. Məlumatda qeyd edilir ki, Qarnik Danielyan tərəfdarları ilə küçələrdə məqsədsiz dolaşarkən, Baqrat da müxtəlif görüşlər keçirir, cinayətkar ünsürləri və bəzi “siyasi qüvvələrin” rəhbərlərini çağırır, onları dəstələr yaratmağa və iyunun 12-də keçiriləcək iğtişaşlarda iştirak etməyə razı salmağa çalışır: “Məqsəd odur ki, bu qruplaşmalar 96 saatdan sonra Baqratın göstərişi ilə hücuma keçib parlament binasına soxulmağa çalışacaqlar. Çünki çox güman ki, həmin vaxt hökumət saatında iştirak məqsədilə baş nazir Nikol Paşinyan orada olacaq. “Srbazan” 96 saatın son tarix olduğunu elan etdiyinə görə, həmin günün qan və toqquşmalarla başa çatması üçün hər şeyi edəcəklər. Ertəsi gün isə hakimiyyətin, guya, qeyri-mütənasib güc tətbiq etdiyini, qan töküldüyünü və buna görə də uğur qazana bilmədiklərini bəyan edəcəklər. Bu plan hakimiyyət orqanlarına çox yaxşı məlumdur. Hər cür qrupların və dəstələrin üzvlərini ən sərt tədbirlər və ağır cəzalar gözləyir”.

Radikal müxalifətin əməllərinə qiymət verən Ermənistan parlamenti sədrinin müavini Ruben Rubinyan bildirib ki, 2018-ci ildən bəri keçirilən heç bir seçki şəffaflıq və ədalətlilik məsələsində mübahisələndirilməyib. O, hakimiyyətin istefaya getməsi üçün neçə nəfərin küçələrə çıxmasının tələb olunduğu ilə bağlı sualı cavablandırarkən iddia edib ki, Ermənistan demokratik ölkədir və orada seçki mexanizmi var: “Seçki mexanizmi ona görə formalaşdırılıb ki, insanlar küçələrə çıxmasınlar və kimsə soruşmasın ki, hakimiyyəti dəyişmək üçün nə qədər adam lazımdır. Bu mexanizm ona görədir ki, insanlar sivil şəkildə seçki məntəqələrinə gedib səs versinlər və buna uyğun olaraq hakimiyyət formalaşsın”.

2018-ci ildə niyə küçələrə çıxıb hakimiyyət dəyişikliyi həyata keçirdiklərini soruşduqda isə Rubinyan deyib: “2018-ci ildə demokratik, azad və şəffaf seçki mexanizmi yox idi. Ona görə də seçki nəticəsində hakimiyyət seçiləndə insanlar bunu legitim hesab etmirdilər. Buna görə də inqilab baş verdi. 2018-ci ildən bəri keçirilən heç bir seçki şəffaflıq və ədalətlilik baxımından mübahisələndirilməyib”.

Politoloq Suren Surenyants isə sosial şəbəkə hesabında müxalifətin küçələri, yolları bağlamasını tənqid edib və bunun effektiv metodu olmadığını yazıb. O qeyd edib ki, bu, dövlət orqanlarının işini iflic etmədiyi və proseslər vəziyyətin inqilabi həllinə gətirib çıxarmadığı üçün təsirsizdir: “Əgər yuxarıda sadalanan komponentlər yoxdursa, o zaman küçələrin bağlanması nəticəsində cəmiyyətin qərarsız hissəsi (yəni, çoxluq) arasında qazandığınızdan çox insan itirmiş olursunuz”.

Radikalların iyunun 10-da keçirilən aksiyasında 2023-cü ilin sentyabrında Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra gizli yollarla Xankəndidən İrəvana qaçan keçmiş qondarma rejimin “qlavar”larından biri Vitali Balasanyan da gözə dəyib. Xocalı soyqırımının bilavasitə iştirakçısı, gücü silahsız, dinc azərbaycanlı qadın, uşaq və qocalara çatan qorxaq, xain və hiyləgər Vitali etirazçıların Baqramyan prospektində qurduqları çadırın yanında müsahibə verməklə erməni ictimaiyyətinin önünə çıxıb. Baqratın hərəkatına qoşulan Balasanyan jurnalistlərə açıqlamasında Qarabağa görə Paşinyanı ittiham edib. İddia edib ki, o, 2022-ci ilə qədər Qarabağda Azərbaycanı təmsil edən şəxslərlə danışıqlar aparıb. “İndi bizim Azərbaycanla heç bir əlaqəmiz yoxdur, onlarla Ermənistan hökumətinin başçısı əlaqə saxlamalıdır. Mən xidmət etmək, tapşırıqları yerinə yetirmək üçün bir dəfə yox, 11 dəfə müraciət etmişəm. Nikol Paşinyan bunu inkar edə bilməz. 2023-cü ilin yanvar ayından heç bir vəzifə tutmamışam, ondan sonra hansı danışıqların aparıldığını bilmirəm. Mən Azərbaycan nümayəndələri ilə danışıqları 2022-ci ilin dekabr ayına qədər aparmışam” – deyə Balasanyan iddia edib.

Ermənistanda cərəyan edən proseslər göstərir ki, radikallar küçə yürüşləri, mitinqlər, istefa barədə ultimatumlar, baş nazirə etimadsızlıq səsverməsi və sair məsələlərdə uğursuzluğa düçar olduqları üçün getdikcə daha da azğınlaşırlar. Onların hakimiyyəti devirmək üçün yaxın günlərdə qeyri-qanuni üsullara əl atacaqları, o cümlədən dövlət çevrilişinə cəhd edəcəkləri istisna olunmur. Yayılan məlumatların təhlili qarşıdakı günlərin həlledici olacağını iddia etməyə ciddi əsaslar verir.

***Səxavət HƏMİD***
***XQ***

# Odlar yurdu alternativ enerji ölkəsinə çevrilir

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi dövlətimizin dünya səviyyəsində ən öncül mövqedə qərarlaşmasından xəbər verir. Bu, eyni zamanda, respublikamızın "yaşıl enerji" və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq niyyətini bir daha gündəmə gətirir. COP29 Azərbaycanın "yaşıl artım" ölkəsi kimi beynəlxalq nüfuzunu yüksəltməklə yanaşı, sözügedən sahənin inkişafına potensial investorların cəlbini də şərtləndirir.**



Yuxarıda sadalananlarla yanaşı, bu nüfuzlu tədbir Dünya İqtisadi Forumunun "Enerji Keçid İndeksi Hesabatı"nda Azərbaycanın irəliləyiş baxımından 2022-2023-cü illərdə dünya üzrə ən yaxşı inkişaf edənlər sırasında olduğunu və bir sıra digər uğurlarımızı bir daha vurğulamaq üçün fürsət yaradacaq. Həmçinin xarici investisiya hesabına gerçəkləşdirilən, təməli qoyulan və yaxın gələcəkdə icrası planlaşdırılan "yaşıl enerji" layihələrinin, ümumilikdə, ölkəmizin "yaşıl gündəliy"inin icrasına dair məlumatlar COP29 çərçivəsində beynəlxalq aləmə çatdırılacaq.

Yeri gəlmişkən, son illər Azərbaycanda "yaşıl enerji" sahəsində mühüm uğurlar əldə edilib. Keçən il regionda ən böyük və ən müasir bərpaolunan enerji istehsalı müəssisələrindən olan 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası istismara verilib. "Masdar" ilə ümumi gücü 1000 MVt olan 2 günəş və 1 külək elektrik stansiyasının təməli qoyulub. Cari il mayın 3-də "ACWA Power" şirkəti ilə 200 MVt Batareya Enerji Saxlama Sistemi üzrə İcra Sazişi və 200 MVt gücündə külək elektrik stansiyası üçün Çərçivə Sazişi imzalanıb. 1870 MVt gücündə bərpaolunan enerji güclərinin (istismara verilmiş və təməli qoyulmuş stansiyalar daxil olmaqla 2 külək və 6 günəş stansiyası) ölkənin ümumi elektroenergetika şəbəkəsinə inteqrasiyası üzrə proqram da uğurla gerçəkləşdirilib.

İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sektorunda, tranzit potensialının gücləndirilməsi istiqamətində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığını da inkişaf etdirir. Avropanın enerji arxitekturasının qurulmasında və enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bütün iqtisadi-siyasi maneələrə və böhranlara baxmayaraq, indi də yeni layihələrini uğurla həyata keçirir.

Bu baxımdan respublikamızın təşəbbüsü və liderliyi ilə reallaşdırılan, Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz töhfəsini verəcək "Cənub Qaz Dəhlizi" layihəsi mühüm önəm daşıyır. Artıq ölkəmizdə hasil olunan qaz qonşu dövlətlərə ixrac edilir və Avropa bazarına ixraca başlamaq üçün yeni kəmərlər tikilir.

Hazırda Azərbaycan neft və qaz ehtiyatlarını tədarük etməklə təkcə regionda deyil, həm də Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinin təmin olunmasında həlledici rol oynayır. Həmin layihələrin həyata keçirilməsində "Şahdəniz" yatağının əhəmiyyəti olduqca böyükdür. Bu yataq uzun illərdir ki, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir.

Bakıdan 70 kilometr cənub-şərqdə, Xəzərin Azərbaycan sektorunda yerləşən sözügedən yataq dünyanın iri qaz-kondensat yataqlarından biridir. "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin uğurla həyata keçirilməsi bu gün Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdır.

Azərbaycan hazırda 9 ölkəyə öz təbii qazını ixrac edir. 2021-ci ildə respublikamız Avropaya 8 milyard kubmetr qaz ixrac edirdisə, bu il həmin rəqəmin 12 milyard kubmetə qədər artması gözlənilir. 2027-ci ilin sonunadək isə təkcə Aİ məkanına 20 milyard kubmetr qazın nəql edilməsi planlaşdırılır. Bu planın olması Azərbaycanın qaz ixracının müsbət perspektivlərinin bir təzahürüdür.

Ölkəmiz ənənəvi enerji ehtiyatları ilə yanaşı, həm də alternativ enerji üzrə də böyük potensiala malikdir. İyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində ümumi gücü 1000 MVt olan 3 bərpaolunan enerji stansiyasının– Biləsuvarda 445 MVt gücündə günəş elektrik stansiyası, Neftçalada 315 MVt gücündə günəş elektrik stansiyası və Abşeron-Qaradağ ərazisində isə 240 MVt gücündə külək elektrik stansiyasının təməli qoyulub. Bu stansiyalar vasitəsilə illik, təqribən, 2 milyard kilovat-saatdan çox yaşıl enerjinin istehsalı nəzərdə tutulub.

Adları çəkilən stansiyaların təməlinin qoyulması ölkə iqtisadiyyatının və enerji istehsalının şaxələndirilməsi, müstəqil enerji istehsalının artırılması, sosial inkişafın dəstəklənməsi və ətraf mühitin mühafizəsi baxımından əhəmiyyətli hadisə kimi diqqət çəkir. Təqribən 1 milyard dollara yaxın həcmdə investisiya hesabına reallaşdırılacaq layihələr ekspertlər tərəfindən respublikamızda iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisi kimi dəyərləndirilir.

Azərbaycanda yaradılmış əlverişli investisiya iqlimi, bütün sahələrə, o cümlədən bərpaolunan enerji sektoruna xarici sərmayələrin cəlbinə münbit şərait yaradır. Bu meqa layihə Azərbaycanın "yaşıl artım"a və ekoloji təhlükəsizliyin möhkəmləndirilməsinə verdiyi önəmin göstəricisidir. 2026-cı ildə istismara verilməsi planlaşdırılan həmin stansiyalar hesabına 2030-cu ilədək bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücünün, təqribən, 30 faizə çatdırılacağı gözlənilir. Mütəxəssislərin fikrincə, Azərbaycan enerji keçidinin hazırkı tempi ilə 2027-ci ilə qədər bu göstəricini 33 faizə çatdıra bilər. Sözügedən meqa layihələr qlobal iqlim hədəflərinə, həmçinin ölkəmizin 2050-ci ilədək karbon emissiyalarının miqdarının 40 faiz azaldılmasına dair hədəfinə nail olunması istiqamətində atılmış mühüm addımlardan biridir.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, hesablamalara əsasən, respublikamızın "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmindədir.

Azərbaycan enerji mənbələrini şaxələndirmək istiqamətində mühüm addımlar atır. 2020-ci ildə Səudiyyə Ərəbistanın "ACWA Power" və BƏƏ-nin "Masdar" şirkətləri ilə 240 meqavat gücündə külək və 230 meqavat gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan "yaşıl enerji" tərəfdaşlığının miqyası qısa müddətdə genişlənib. Qısa bir vaxtda "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 qiqavatdan çox layihələrə dair əməkdaşlıq sənədləri imzalanıb. Bütün bunlar dövlətimizin başçısının "yaşıl enerji" strategiyasına beynəlxalq marağın, ölkəmizin "yaşıl gələcəy"inə olan inamın göstəricisidir.

Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad olunan torpaqlarını "yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Ötən il Qarabağ və Şərqi Zəngəzurun 12 bölgəsində tikilən yarımstansiya və su elektrik stansiyalarının açılışı olub. Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq 2023-cü ildə Kəlbəcər rayonunda 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Paralel olaraq "AzərEnerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının da ötən il açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb.

Prezident İlham Əliyev, həmçinin "AzərEnerji"nin yeni tikilən 10,5 meqavat gücündə "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında da iştirak edib. Eyni zamanda, ötən ilin dekabr ayında isə 110 kilovoltluq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib.

## Qeyri-neft-qaz sektorundan daxilolmalar 13,8 faiz artıb

**2024-cü ilin yanvar-may ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 7 milyard 499 milyon 106,4 min manat vəsait daxil olub. Dövlət büdcəsinə proqnozdan əlavə 1 milyard manatdan çox vəsait ödənilib. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib.**



Bildirilib ki, hesabat dövründə qeyri-neft-qaz sektorundan daxilolmalar 5,2 milyard manatdan çox təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 634,7 milyon manat və ya 13,8 faiz çox olub. Ödənilən vergilərin 69,9 faizi qeyri-neft-qaz sektorunun, 30,1 faizi isə neft-qaz sektorunun payına düşüb.

## Ələtdə yeni konteyner terminalı tikiləcək

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin məlumatına görə, limanda konteyner terminalının tikintisi ilə bağlı layihə ekspertizaya verilib.**



Məlumatda bildirilir ki, tezliklə konteyner terminalının tikintisinə başlanılacaq. Bu terminal Bakı limanı ilə Gürcüstan limanları arasında müəyyən olunmuş dövrlərdə konteyner daşınmasına imkan yaradacaq. İnfrastruktur, eyni zamanda, konteynerlərin sayının artmasına kömək edəcək. Daşıyıcılar da artıq yüklərinin çıxacağı zamanı biləcəklər. Bakı limanı ilə Poti limanı arasında reallaşacaq bu layihə beynəlxalq daşıyıcılar üçün zaman baxımından çox önəmlidir.

Xatırladaq ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 1902-ci ildən fəaliyyət göstərən Bakı Limanının bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 16 min manat təşkil edir. Liman yük, neft və bərə terminallarından ibarətdir.

Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 14-də açılışı olmuş yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir. İkinci fazanın yekunlaşdırılmasından sonra Bakı Limanından ildə 25 milyon tona qədər yük aşırılacaq, 500 min TEU konteyner keçə biləcək.

## Ağdamda sənaye parkının 22-ci rezidenti

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında Ağdam Sənaye Parkında investisiya dəyəri 3,7 milyon manat olan örtülmüş kalsit istehsalı müəssisəsinin yaradılacağını bildirib.**



Nazir qeyd edib ki, bununla bağlı "Caltech" MMC-yə sənaye parkının rezidenti statusu verilib. Müəssisədə 30 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulub. Bununla da Ağdam Sənaye Parkının rezidentlərinin sayı 22-yə yüksəlib.

## Regionlar üzrə ümumi məhsul buraxılışı 3 faiz çoxalıb

**Bu ilin I rübündə Azərbaycanda regionlar üzrə ümumi məhsul buraxılışı ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz artaraq 7,8 milyard manat olub.**



İqtisadiyyat Nazirliyinin bu barədə məlumatına görə, yanvar-mart aylarında regionlara kredit qoyuluşu 18 faiz artımla 5,6 milyard manat, əsas kapitala investisiyalar isə 1,7 milyard manat təşkil edib.

# Özəl bölmə yeni layihələrdən güc alır

## *5 ayda sahibkarlara 83 milyon manatdan çox güzəştli kredit ayrılıb*

**Cari ilin ilk 5 ayı ərzində Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə 2261 layihənin maliyyələşdirilməsinə 83,4 milyon manat güzəştli kredit verilib.**



Fonddan bildirilib ki, hesabat dövründə sahibkarların investisiya layihələrinə verilmiş güzəştli kreditlərin sayına görə "Bank Respublika" ASC, "Rabitəbank" ASC, "AccessBank" QSC (AccessBank Azerbaijan), "Yelo Bank" ASC və "Aqrarkredit" QSC fərqlənib.

Həmin dövrdə verilmiş güzəştli kreditlərin məbləği üzrə fərqlənən müvəkkil kredit təşkilatlarına isə "Bank Respublika" ASC, "Rabitəbank" ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC (ABB), "AccessBank" QSC və "Yelo Bank" ASC daxildir.

Qeyd edək ki, sahibkarlar SİF-in güzəştli kreditlərindən yararlanmaq üçün müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Müvəkkil kredit təşkilatlarına fondun əməkdaşlıq etdiyi banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları aiddir.

Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətini ifadə edən yuxarıdakı göstəricilər son illər ərzində ölkəmizdə özəl sektorun dinamik inkişafına yönələn diqqət və qayğıdan xəbər verir. Göründüyü kimi, sözügedən istiqamətdə bu gün də mühüm layihələr həyata keçirilir, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilir. Eyni zamanda, iş adamlarının xərclərinin azalması məqsədilə onlara prioritet sahələr üzrə güzəştli kreditlərin ayrılması diqqətdə saxlanılır. Başqa sözlə, güzəştli kreditlər qeyri-neft sektorunda sənaye istehsalı və emalı, o cümlədən aqrar emal, kənd təsərrüfatı və anbar kompleksləri, logistika xidməti, akvakultura, yaşıl və innovasiya yönümlü layihələrin icrasına yönəldilir. Xatırladaq ki, regionlarda təhsil, turizm sahələri, Naxçıvan MR-də və işğaldan azad edilmiş ərazilərdə isə xidmət sektorları da güzəştli kreditlərin veriləcəyi prioritet sahələr sırasındadır.

Regionlarda sahibkarlıq fəaliyyətinin güzəştli maliyyə mexanizmləri ilə təşviq edilməsi istiqamətində görülən işlər barədə isə, ilk növbədə, onu deyə bilərik ki, bölgələrdə kreditləşmə əsas prioritet vəzifələrdən biridir. Çünki bu, məşğulluğun təmin edilməsi və iqtisadi fəallığın dəstəklənməsi üçün önəmlidir. Cari ilin 4 ayı ərzində Azərbaycanda verilən güzəştli kreditlərin 71 faizinin regionların (Bakı, Sumqayıt və Abşeron istisna olmaqla) payına düşməsi də bu fikrin bariz ifadəsidir.

Son illər sahibkarların güzəştli maliyyə mexanizmləri ilə dəstəklənməsinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daha çox üstünlük verilib. Belə ki, 2022-ci ildən etibarən işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq subyektlərinə 20 milyon manatdan çox güzəştli kredit ayrılıb. Bu il fevral ayının 1-dən isə həmin ərazilərdə fəaliyyət göstərən sahibkarları dəstəkləmək məqsədi daşıyan yeni kredit-zəmanət və subsidiya mexanizmi işə salınıb. Yeni qaydaya əsasən, hər bir sahibkarın müvəkkil kredit təşkilatlarından maksimum 5 milyon manatadək 15 faiz dərəcəsi ilə krediti 7 il müddətinə götürməsi qərara alınıb. Nəzərdə tutulan mexanizm çərçivəsində Şuşa şəhərində bir subyekt kommersiya bankından götürdüyü 800 min manat kreditə qarşı 90 faizə qədər zəmanətlə təmin edilib. Fond tərəfindən artıq həmin kredit üzrə faizlərin 10 faizinin subsidiyalaşdırılmasına başlanılıb.

Fondun vəsaitləri, demək olar ki, dövlət büdcəsindən daxilolmalar hesabına formalaşır və kreditləşməyə yönəldilir. Eyni zamanda, SİF tərəfindən hazırda potensial maliyyə vəsaitinin cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə qurumları ilə birgə araşdırmalar aparılaraq birgə proqramlar hazırlanır.

Sahibkarlığın inkişafından bəhs edərkən bu il iyulun 1-dən qüvvəyə minəcək Rəqabət Məcəlləsinin tətbiqi və onun biznes mühitinə təsirləri barədə də danışmaq yerinə düşər. Yeri gəlmişkən, ekspertlər tərəfindən inhisarçılıq və haqsız rəqabət halları ilə mübarizədə Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını stimullaşdıracağı qeyd edilir. "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı"nın da kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə maneə yaradan amillərin aradan qaldırılmasına xidmət edəcəyi bildirilir.

Ümumiyyətlə, istər Rəqabət Məcəlləsi, istərsə də adıçəkilən Milli Fəaliyyət Proqramı ölkəmizdə rəqabətədavamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə xüsusi önəm verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

*Hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Meşələr dünyamızın cənnət məkanıdır

## Yanğınlar onu cəhənnəmə çevirməsin!



**Qiymətli təbii sərvətlərimiz sayılan meşələrin bərpası və artırılması Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Təəssüf ki, bu sahədə görülən işlərlə bərabər, həllini gözləyən problemlər də az deyil. Müsahibimiz AMEA Coğrafiya İnstitunun baş elmi işçisi, professor Mahmud Xəlilovdur.**

**– Professor, bildiyimə görə, ölkəmiz meşələrlə o qədər də zəngin deyil. Müqayisə üçün, bəlkə, konkret rəqəmlər çəkəsiniz...**

– Böyük məmnuniyyətlə. Azərbaycanda adambaşına təqribən 0,12 hektar meşə sahəsi düşür ki, bu da ümumdünya miqyasında götürülən müvafiq orta rəqəmdən 4 dəfə (0,48 ha) azdır. Bundan başqa, qiymətli ağac və kol cinsləri (qoz, şabalıd, qızılağac, cökə, palıd və s.) tükənmək təhlükəsi qarşısındadır. Avtomobil və dəmir yollarının kənarlarında, sututarların sahillərində salınmış qoruyucu və sahilbərkidici meşə zolaqlarının əksəriyyəti qırılıb.

Hər il bir qayda olaraq taxıl biçildikdən sonra kövşənlərin yandırılması nəticəsində əkin sahələrinin ətrafında olan meşə və yaşıllıqlarda çox sayda yanğınlar baş verir. Bunun da nəticəsində heyvan və bitki aləminə ciddi zərər dəyir.

Hazırda ölkəmizdə meşələrin sahəsi ümumi ərazinin 14 faizini təşkil etsə də, meşə ilə tam örtülü sahələr 11 faizdən artıq deyil. Amma meşələrimiz növ zənginliyi ilə məşhurdur. Burada 435 növ ağac və kol bitir ki, onlardan da 70-i endemik növlərə aiddir.

Bundan başqa, meşələrin 85 faizi dağ yamaclarında yerləşməklə əvəzolunmaz torpaqqoruyucu, sutəmizləyici və iqlim saflaşdırıcı əhəmiyyətə malikdir. Meşələr nəfəs aldığımız havanı təmizləyir, içdiyimiz suyu süzür, eroziyanın qarşısını alır və iqlim dəyişikliyinə qarşı mühüm sədd rolunu oynayır. Bəli, meşələr ağac və qidadan dərman bitkilərinə qədər vacib təbii ehtiyatları təmin edir.

**– İstərdik ki, meşələrin qırılmasının əsas səbəblərini açıqlayasınız...**

– Əsas səbəblərindən biri kənd təsərrüfatı fəaliyyətidir. Araşdırmalara görə, meşələrin 80 faizinin yox olması aqrar sektorun genişləndirilməsi ilə əlaqədardır. Bundan əlavə, kənd rayonlarında təbii qazın və yanacağın çatışmaması ilə bağlı olaraq yerli sakinlər meşə ağaclarını qırırlar. Təəssüf ki, son illər Oğuz, Qəbələ, İsmayıllı, Qusar və Lerik rayonlarında belə hallar daha çox olur. Lerik rayonunda əsas yaşayış məntəqələri meşələrin içərisindədir və qazlaşdırmanın zəif olması meşə sahələrinin qırılmalara səbəb olur.

Kömür əldə etmək üçün də az ağac qırılmır. Bu məqsədlə yandırılan ağaclar bir sıra regionlarda meşəsiz yarımsəhraya bənzər landşaftların əmələ gəlməsinə səbəb olub. Bununla yanaşı, tikinti materialları və mebel istehsalı üçün də qiymətli ağac növləri (qoz, şabalıd, palıd, fısdıq və s.) seçilərək qeyri-qanuni kəsilir. Hazırda rayonlarda mebel-taxta sexləri işləyir.

**– Meşələrimizi yanğınlardan necə, qoruya bilirikmi?**

– Təəssüf ki, bu sahədə də ciddi nöqsanlarımız mövcuddur. Təkcə 2022-ci il ərzində 66 meşə sahəsinin yanğını hadisəsi qeydə alınıb və 870 hektara yaxın sahə yanğına məruz qalıb. 2023-cü ildə isə 33 yanğın hadisəsində 25 hektar meşə ərazisi məhv olub. Yüzlərlə qocaman ağac zədələnib, ya da dəqiqələr içərisində yanaraq külə dönüb. Adamın ürəyi ağrıyır...



**– Məlumdur ki, işğalçı Ermənistan uzun illər Qarabağda meşələrimizə qarşı "soyqırımı" həyata keçirib. Erməni cinayətkarları buna görə nə vaxt cəzalandırılacaqlar?**

– Bəli, erməni vandalları meşələrimizə qarşı vəhşiliklər törədiblər. Məsələn, Ağdərə rayonunun ərazisində işğal dövründə mədənlərin istismarı ilə əlaqədar yüzlərlə hektarlıq ərazidə meşələr məhv olunub. "Dəmirli" dağ-mədən kompleksinin tikintisi zamanı 82 hektara yaxın meşə örtüyü sıradan çıxarılıb. Nəticədə, ətraf mühitə böyük ziyan dəyib, çaylar və yeraltı sular ağır metallarla çirklənib. Uzun illər bu ərazidə yanğınlar təşkil edilib, su hövzələri kimyəvi çirklənməyə məruz qalıb. "Qızılbulaq" və "Heyvalı" yataqlarının istismarı zamanı da eyni vəziyyət müşahidə edilib.

Onu da qeyd edim ki, ölkəmizdə ən ağır vəziyyət Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaranıb. Meşələr Qarabağın ümumi ərazisinin 36 faizini təşkil edir. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi həmin ərazilərdə bir çox bitki növlərinin məhvinə səbəb olub. Minlərlə hektar meşə sahəsi məhv edilib.

Təkcə 2017-ci ildə Qarabağda 102 min 488 kubmetr meşə doğranıb. Beləliklə, işğal altında olan ərazilərdəki 260 min hektar yaşıl örtüyün 54 min hektarı 30 illik işğal dövründə yer üzündən silinib. Bu müddət ərzində qiymətli ağac növləri – qoz, palıd, Eldar şamı, xurma və xüsusi mühafizə altında olan digər ağaclar oduncaq tədarükü üçün qırılıb, mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparılıb. Nəticədə meşələr xeyli seyrəkləşib, onların aşağı sərhədləri nisbətən yuxarı çəkilib, yuxarı sərhəddi isə aşağı düşüb.

O ki qaldı erməni vandallarının ölkəmizin ərazisində törətdikləri ekoloji cinayətlərə görə cəzalandırılmasına, bu, mütləq baş verəcək. Bu, sadəcə, zaman məsələsidir.

**– Meşələrlə yanaşı, tarlaların kənarında meşə zolaqlarının qırılmasının da mənfi tərəfləri çoxdur. Bu barədə də məlumat verərdiniz?**

– Meşə zolaqlarının qırılması kənd təsərrüfatının məhsuldarlığa mənfi təsir edir. Quru küləklər meşə solaqları olmadıqda buxarlanmanı qüvvətləndirir, transpirasiyanı artırır, torpağı qurudur, mütləq və nisbi nəmliyi azaldır, yağan qarı sovuraraq torpağın üstünü açır, beləliklə də torpağa daxil olacaq nəmliyi azaldır. Bundan başqa, kənd təsərrüfatı bitkilərini zədələyir, onların çiçəyini və meyvəsini tökür, bitkilərin yatmasına səbəb olur.

Açıq sahədə bərk əsən külək torpağın xırda hissələrini göyə sovuraraq külək eroziyasının əmələ gəlməsinə səbəb olur. Çox vaxt güclü əsən küləklər meşə zolağı olmayan yerlərdə min hektarlarla sahənin üst münbit qatını sovurur, ərazinin landşaft örtüyünün dağılmasına səbəb olur. Məsələn, Şamaxı rayonu ərazisində külək eroziyası 3 il ərzində 20 min hektar əkin sahəsini yararsız hala salmışdır. Abşeron yarımadasında belə hadisələr tez-tez baş verir.

Beləliklə, insanların meşə və meşə zolaqlarına artmış təsiri nəticəsində onların həm sahəsi azalır, həm də keyfiyyəti aşağı düşür. Qırılmış meşələrin və meşə zolaqlarının yeri əvvəlcə kolluğa, sonra isə bir qayda olaraq kənd təsərrüfatına yararsız sahələrə çevrilir. Bu, həm də oksigenin azalmasına, ekologiyanın pozulmasına gətirib çıxarır.

**– Meşələrin bərpa və yeni meşələrin salınması istiqamətində müvafiq qurumlar tərəfindən nə kimi tədbirlər görülür?**

– "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanaqlı sosial-iqtisadi inkişafa dair", "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli Proqramlar təsdiq edilib. Bu proqramlarda meşələrin rayonlaşdırılmış cinslər hesabına bərpa edilməsi, keyfiyyətinin və məhsuldarlığının artırılması, əlavə torpaq sahələri hesabına yeni meşəliklər və yaşıllıqların salınması ilə ölkənin yaşıl örtüyünün artırılması qarşıda duran əsas vəzifə kimi qoyulub.

Böyük və Kiçik Qafqazın dağ meşələrinin qoruyucu funksiyalarını yüksəltmək üçün onun seyrək sahələrinin bərpası, meşə və örtülü olmayan sahələrdə isə məhsuldar ağac və kollar hesabına yeni meşə massivlərinin yaradılmasına başlanıb.

Talış meşələrində relikt və endem ağac cinslərinin qorunması, mühafizəsi, bərpası və onların yayılma arealının genişləndirilməsi istiqamətində işlər intensiv olaraq davam etdirilib. Kür-Araz çayları ətrafında Tuqay meşələrinin bərpası, rekonstruksiya yolu ilə cins tərkibinin yaxşılaşdırılması sahəsində də xeyli işlər görülüb. Tuqay meşələrinin bərpası ilə əlaqədar qiymətli ağac cinsləri hesabına yeni meşələr salınıb.

Abşeron və Qaradağ rayonlarının meşə landşaftından tamamilə məhrum olan arid ərazilərində yeni meşə massivlərinin salınması işləri ön plana çəkilib. Abşeron yarımadasında və Bakı şəhərinin ətraf ərazilərində (magistral yol kənarları daxil olmaqla) yeni meşə və yaşıllıqlar salınıb.

**– 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. İnanmaq istərdik ki, bu sahəyə diqqət və qayğı artıb.**

– Son vaxtlar, həqiqətən, meşələrin bərpası və qorunması sahəsində pozitiv dəyşikliklər baş verir. 2023-cü ildə 6850 hektar sahədə meşəbərpa tədbirləri həyata keçirilib. Görülmüş tədbirlər çərçivəsində 622,1 hektar sahədə meşə əkinləri, 415,9 hektar sahədə meşə səpinləri işləri aparılıb, 4,0 hektar sahədə meşə-bağlar, 8 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınıb və 5800 hektar sahədə təbii bərpaya kömək işləri görülüb.

Ümumilikdə, xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə-bağlarının sahəsi 18 min 296,5 hektar təşkil edib. Bundan başqa, toxmacar və cavan bitki şitilləri yetişdirmək məqsədilə 16,2 hektar sahəyə toxumlar səpilib, çilik kökləndirməsi məqsədilə 0,4 hektar sahəyə 31,2 min ədəd çilik basdırılıb.

Bu işlər 2024-cü il də davam edir.

Prezident İlham Əliyevin keçən il dekabrın 25-də imzaladığı müvafiq sərəncamla Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Bu il çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının həyata keçirəcəkləri Tədbirlər Planı hazırlanaraq təsdiqlənib.

Bu, çox zəngin tədbirlər planıdır. Orada ətraf mühitin, bioloji müxtəlifliyin qorunması, yaşıllıqların artırılması, maariflәndirmə, yeni milli parkların və xüsusi mikrotəsərrüfatların yaradılması və s. ilə bağlı tədbirlər var və artıq onların icrası ilə bağlı işlərə başlanılıb. Artıq Təsdiqlənmiş Tədbirlər Planında nəzərdə tutulan 5 milyon ağac və kol tinginin 2,5 milyonunun əkilməsinə nail olunub.

*Söhbəti qələmə aldı:*
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Sağlamlıq bilgiləri

# Gizli hepatitin təhlükəsi və qorunma yolları



**Azərbaycanda, bütün dünyada olduğu kimi, virus hepatitləri problemi aktualdır. Xəstəliyin gizli keçməsi, əlamətlərin xəstəliyin irəliləmiş mərhələlərində üzə çıxması və skrining proqramların olmaması virus hepatitlərinin fəal yayılmasına təkan verir. Azərbaycanda virus hepatitləri 200 – 300 min nəfərdə aşkarlanıb. Bu viruslar diaqnoz qoyulan xəstələrdə, adətən, ya əməliyyat öncəsi icbari test zamanı, ya qan donoru olarkən içbari yoxlanışlarda, ya da öz təşəbbüsü ilə müayinədən keçəndə aşkarlanır. Sakit və şikayətsiz keçən hepatitin rastgəlmə tezliyi daha yüksək ola bilər. Çünki virus xüsusi markerlər vasitəsilə müayinədən keçən insanlarda üzə çıxır. Müayinə olunmayan minlərlə insan xəstəliyindən xəbərsiz yaşayır və yoluxma mənbəyinə çevrilir.**

Elmi araşdırmalar sübut edib ki, yalnız aşkar virus hepatitləri deyil, hepatit B-nin okkult növü də mövcuddur. Bu, qanda standart testlər vasitəsi ilə aşkar olunmayan, amma qan zərdabında və qaraciyər toxumasında daha həssas üsullardan istifadə edərək aşkarlanan infeksiyanın bir növüdür. 2008-ci ildə dünyada okkult (gizli) hepatit B virusu xəstəlik kimi qəbul olunub. Bu virus sağlam insanlarda ciddi qaraciyər zədələnməsi törətmir. Lakin yoluxma riski daşıyır və immun sistemi zəiflədən dərman vasitələri, ya da xəstəlikləri zamanı kəskin və ya xroniki B hepatiti inkişaf edə bilər.



Azərbaycanda okkult hepatitini öyrənən və bu mövzuda elmi araşdırma aparan ilk və yeganə həkim tibb üzrə fəlsəfə doktoru Sevda Ağayevadır. O, 2023-cü ildən ABŞ-ın Pensilvaniya Universitetində qastroenterologiya və hepatologiya şöbəsində kliniki tədqiqatçı vəzifəsində çalışır. Pensilvaniya Universiteti dünyaya çox mühüm və praktik yeniliklər gətirən və yüz milyonlarla insanların həyatını xilas edən məşhur mütəxəssislərin çalışdığı müəssisədir. Burada təsdiqlənən mRNA – COVID-19 peyvəndi, dünyada ilk gen terapiyası, xərçəng əleyhinə ilk CAR-T hüceyrə terapiyası və digər araşdırmalar aparılıb. Sevda xanum okkult B hepatiti mövzusunda ABŞ, Türkiyə və Asiya ölkələrində keçirilən konfranslarda apardığı tədqiqatların nəticələrini təqdim edib.

Soydaşımız 2018-ci ildə "Asiya və Sakit okean qaraciyər araşdırma təşkilatı"nın illik konfransında "Gənc tədqiqatçı" mükafatına layıq görülüb. O, hazırda bu mövzuda layihələr üzərində işləyir. Azərbaycanda bu sahədə yeganə ekspert olan Sevda Ağayeva okkult B hepatiti ilə bağlı XQ-yə müsahibəsində bu mövzuya aydınlıq gətirdi.

**– Okkutl hepatiti təbabətdə yeni bir mövzudur. Bu virusun öyrənilməsini aktuallaşdıran nə olub?**

– 2014-cü ildə dünyada inqilabi hepatit C əleyhinə ilk dərman vasitəsi istifadəyə verilib. Həmin preparat 10 il ərzində hepatit C-nin sağalma faizini 40–50-dən 97–98 faizə qədər artırıb xəstəliyin eliminasiyasına gətirib. Bu müalicə aparılan zaman xəstələrdə aşkar və ya gizli B virusu olubsa, hepatit C qandan təmizləndikdən sonra hepatit B kəskinləşmələri müşahidə olunub. Hepatit C digər – B virusunun replikasiyasını (bölünüb çoxalmasını) bloklayır. Yeni nəsil dərmanların istifadəsinə başlanandan və B virusunun aktivləşməsini izlədikdən sonra, okkult infeksiyasına marağım artdı. Onun rastgəlmə tezliyini öyrənib, müştərək infeksiyalar zamanı qaraciyər zədələnməsini təyin etməyə, gizli infeksiya zamanı hepatit C-nin müalicəsinin səmərəliyini ölçməyə və hepatit B-nin aktivləşmə fazini öyrənməyə başladım.

**– Sevda xanum, hepatitlərin yayılması və ya yoluxma zamanı xroniki okkult hepatitə keçmə, yaxud sağalma necə baş verir?**

– Gizli hepatit B virusu müayinə üçün istifadə etdiyimiz səthi antigen (HBsAg) testi mənfi olan şəxslərin qaraciyərində və ya qan zərdabında aşkar edilə bilən və çoxalma qabiliyyətinə malik olan viral DNT-nin mövcud olduğu vəziyyətə aiddir.

HBV infeksiyasının bu özünəməxsus mərhələsində kovalent qapalı dairəvi DNT (cccDNA) aşağı replikasiya vəziyyətindədir.

Bədənə düşən virusun okkult infeksiyaya keçməsi əsasən, insanın immun sisteminə və epigenetik amillərə bağlıdır. Okkult B infeksiyası bütün dünyada aşkarlanıb, lakin onun yayılması fərqli xəstə qruplar arasında çox dəyişkəndir. Bu, müxtəlif coğrafi ərazilərdən, parenteral infeksiyalar üçün risk amillərindən və HBsAg və HBV DNT-nin aşkarlanması üçün istifadə edilən analizlərdən asılıdır. Okkult hepatit B bir neçə klinik kontekstdə təsir göstərir: qanköçürmə və ya qaraciyər transplantasiyası Hepatit B-nin klassik formasına, immunosupressiya zamanı yenidən aktivləşməsinə və hətta kəskin hepatitin mümkün inkişafına səbəb ola bilər. Bundan başqa, müxtəlif səbəblərə görə, xroniki qaraciyər xəstəliyinin sirroza doğru irəliləməsini sürətləndirə bilər, "aşkar" infeksiyanın pro-onkogen xüsusiyyətlərinə malik olub, hepatoselüler karsinomanın inkişafına yol açar.

**– Şikayəti olmayanlar nədən şübhələnməli və yoxlanmalıdır?**

– Hepatit B-yə qarşı peyvənd olunmayanlar, keçmişdə qeyri-steril ya da sterilliyinə şübhə olan tibbi və ya kosmetik alətlərlə əməliyyat və ya prosedurlara məruz qalanlar, cinsi yolla hepatitin yoluxmasına şübhəsi olanlar, qan və ya qan komponentləri köçürmələri olanlar, ailə üzvlərində hepatit B aşkarlananlar və venadaxili narkotik maddə istifadə edən insanlar mütləq yoxlamadan keçməlidirlər.

**– Standart "check-up" müayinələrlə okkult hepatiti aşkar etmək olarmı?**

– Qeyd edək ki, dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda HBsAg hələ də qan donorlarında müəyyən edilən HBV-nin əsas, bəzən isə yeganə zərdab markeridir. Buna görə də HBV infeksiyası resipiyentlərə köçürülmək üçün yuyulmuş qan hüceyrələrindən əlavə, plazma və ya hətta tam qan istifadə edilən ölkələrdə qanköçürmə mərkəzləri üçün ciddi problem sayılır, çünki gizli HBV infeksiyası olan insanlardan qan köçürmələr resipiyentdə HB-in kəskin manifestasiyası və ya xroniki hala keçməsinə səbəb ola bilir.

Hepatit B virusuna yoluxduqdan sonra, ən azı, 6 ay ərzində qan zərdabında HBsAg antigeninin dövranını təyin etməklə diaqnoz qoyulur. Lakin hazırda sübut edilmişdir ki, kəskin hepatit zamanı HBsAg-nin zərdabda konversiyası virusun orqanizmdən çıxmasının və onun tam sağalmasının mütləq əlaməti deyil. Bütün laboratoriyalarda hepatit B üçün HBsAg testi istifadə olunur, lakin, okkult hepatit B-ni aşkar etmək üçün HbcAg İgG və anti-HBs testlərini vermək də məsləhət görülür.

**– Okkult virusu olan xəstələrdə qaraciyər zədələnməsi fərqli olurmu?**

– İmmunosupressiya zamanı virusun reaktivləşməsi riski və hepatit B-nin ötürülməsi riskindən əlavə, apardığımız tədqiqat onu göstərdi ki, gizli hepatit B xroniki HCV infeksiyası olan xəstələrdə qaraciyər zədələnməsində əlavə rol oynayır. Gizli infeksiyası olanlardan yalnız hepatit C olan xəstələrlə müqayisədə qaraciyərin zədələnmə dərəcəsi və göstəriciləri daha yüksək olaraq izlənildi.

Artan sayda perspektiv tədqiqatlar və meta-analizlər hepatit C və okkult B infeksiyası olan xəstələrdə hepatosellulyar karsinomanın (HCC) daha yüksək rastgəlmə tezliyi, eləcə də şişin daha inkişaf etmiş histoloji dərəcələri və HCC diaqnozunun okkult infeksiyası olmayan xəstələrlə müqayisədə daha erkən başlandığı aşkarlanıb.

**– Hansı insanlar yüksək risk qrupuna aid edilir?**

– 6 il ərzində apardığımız tədqiqatlara əsasən, deyə bilərik ki, yanaşı hepatit C və ya HİV virusu olanlar daha çox risk altındadırlar. Qanköçürmə infeksiya ilə əlaqəli ən vacib amildir. İnsanın yaşı, eləcə də əvvəl keçirdiyi cərrahi əməliyyat gizli hepatitin yayılmasına daha az təsir göstərir.

**– Okkult infeksiya aşkarlandıqda, müalicə necə aparılır?**

Adətən müalicəyə ehtiyac yoxdur, amma bu xəstələr mütəmadi nəzarət altında olmalıdır. Virusun aktivləşmə ehtimalı, yanaşı qaraciyər xəstəliklərinin gedişatını kəskinləşdirən və qaraciyər xərçəngi riskini artıran virus daim nəzarətdə saxlanmalıdır. İmmun sistemini zəiflədən dərman vasitələri istifadə edilən zaman, nəzarət daha sıx olmalıdır.

**– İnsanlara özlərini qorumaları üçün nə tövsiyyə edirsiniz?**

– Geniş müayinədən sonra, açıq və ya gizli hepatit B infeksiyası aşkarlanmayıbsa, virus əleyhinə peyvənd ən gözəl qorunma strategiyasıdır. Peyvənd 98 faiz təsirlidir və 5–10 il virusdan qoruya bilər. Bu peyvənd nəinki hepatit B-yə qarşı, həm də hazırda tam müalicəsi olmayan, ancaq hepatit B ilə müştərək gedən Delta hepatitdən də qoruya bilər. İnsanlara risk qruplarını təyin etməyi, vaxtında yoxlamalardan keçməyi tövsiyə edirəm.

*Söhbətləşdi:*
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qədim türk yurdunun muxtariyyət statusu




**(əvvəli XQ-nin 11 iyun 2024-cü il tarixli sayında)**

## Türkiyənin status dəyişikliyinə münasibəti

***1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayının qərarı əsasında Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Diyarı yaradıldı. Lakin bu, beynəlxalq müqavilələrin müddəalarına zidd idi və Sovet–Türkiyə diplomatik münaqişəsinə gətirib çıxardı.***

Bunun həlli isə Sovet Rusiyasının ali siyasi rəhbərliyinin müdaxiləsini tələb edirdi. RK (b)P MK Siyasi Bürosunun “23 avqust 1923-cü il tarixli iclasının, “uzun müddət gizli saxlanılan, 5 gün ərzində geri qaytarılmalıdır” başlığı altında saxlanılan materiallar buna sübutdur. Daha doğrusu, söhbət Qars müqaviləsi bağlandıqdan qısa bir müddət sonra Naxçıvanın siyasi həyatındakı vəziyyətlə əlaqədar RSFSR Xarici İşlər Xalq komissarı G.V.Çiçerinin RK(b)P MK Siyasi Bürosunun üzvü İ.V.Stalinə ünvanladığı memorandumdan gedir:

***“23 avqust 1923-cü il. Yoldaş Stalinə***

***Nüsxəsi MK-nın üzvlərinə və XİXK-nin üzvlərinə***

***Hörmətli yoldaş, biz bir dəfə Türkiyə hökumətindən Naxçıvanın Azərbaycan tərəfindən aneksiya olunmasına qarşı etiraz aldıq. Moskva və Kars müqaviləsinə əsasən, Naxçıvan Azərbaycanın himayəsi altında muxtar bir ərazidir. Türk hökumətinə məlumdur ki, Azərbaycan Respublikası MİK-nin qərarı ilə Naxçıvan Azərbaycan ərazisinin bir hissəsinə çevrilib, bu da Türkiyə ilə bağlanan müqavilələrə ziddir. Bizim bu məsələ ilə bağlı Tiflisə göndərdiyimiz bütün məktub və teleqramlarımız cavabsız qalıb. Yoldaş Orconikidze Moskvaya gələn zaman, mən ona bu haqda yazdım, indi isə Berlindən ondan cavab almışam ki, Naxçıvan bölgəsinin qurultayı onu Azərbaycanın ayrılmaz bir hissəsi elan edib və indi o qəza hüququndadır. Yoldaş Orconikidze əlavə edir ki, buna etiraz etmir, çünki bu Naxçıvanın öz hüququdur.***

***Bu, təəssüf ki, düz deyil. Əgər müqavilə üzrə hər hansı ərazi məlum statusa malikdirsə, onun statusu razılığa gələn tərəflər arasında razılıq olmadan dəyişdirilə bilməz. Məsələn, Lüksemburq əhalisinin özünün***



***hansı istəyi olursa-olsun, nə Fransa, nə Almaniya, nə də Belçika tərəfindən aneksiya edilə bilməzdi. Beləliklə, bu halda həqiqətən Türkiyə ilə müqavilələrimizin pozulması baş verdi. Mən görürəm ki, Naxçıvanı nə üçün muxtar diyar elan etmək olmaz, bu da əslində, mahal kimi mövqeyindən xüsusilə fərqlənməyəcək.***

***Kommunist salamı ilə, Çiçerin”.***

Bu məruzəli məktub RK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosunun 23 avqust 1923-cü il tarixli iclasında nəzərdən keçirilmiş və G.Çiçerinin təklifi qəbul edilmişdir.

## Unitar dövlət və muxtar respublika

Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunurdusa da, 30-cu illərin ortalarına qədər o bəzən rəsmi sənədlərdə Naxçıvan SSR adlandırılmışdır. Bununla belə, Moskva və Qars müqavilələri beynəlxalq hüquqi akt kimi Naxçıvan Muxtar Respublikasının gələcək mövcudluğunun və inkişafının təminatçısı oldu. SSRİ, Azərbaycan SSR və Naxçıvanın MSSR-in sonrakı konstitusion aktları bu beynəlxalq müqavilələri əsas götürürdü.

Azərbaycan SSR-in 1927, 1937 və 1978-ci il konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmışdı.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının VIII fəsli bütövlükdə Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunub. 134-cü maddədə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu Konstitusiya ilə müəyyən edilir və Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi göstərilir. Naxçıvanın muxtariyyəti Azərbaycanın unitar dövlət quruluşu formasına xələl gətirmir.

**Birincisi,** Naxçıvanın muxtariyyəti siyasi ərazi muxtariyyətidir və bu status Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqəsinin olmamasından irəli gəlir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi “Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi”.

**İkincisi,** Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanarkən Azərbaycanın Konstitusiya quruluşunun əsasları ilə bağlı əsas xüsusiyyətlər – siyasi hüquq və azadlıqlar, vahid məhkəmə quruluşu, qanunvericiliyin vahid əsasları, vahid dövlət dili və dövlət rəmzləri, vahid vətəndaşlıq, vahid silahlı qüvvələr, vahid milli valyuta və maliyyə-kredit sisteminin tətbiqi nəzərə alınıb. Bütün bunlar unitar dövlət və beynəlxalq hüququn subyekti kimi Azərbaycanın suverenliyinə təminat verməklə Konstitusiyada öz əksini tapıb. Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Konstitusiyası, həm də Naxçıvan Konstitusiyası ilə təsbit olunub.

Hər zaman qətiyyət göstərən Naxçıvan diyarının əhalisi Azərbaycanın tərkibində muxtariyyət tələb edirdi. Naxçıvan, ilk növbədə yerli əhalinin mübarizəsi və qətiyyəti hesabına Azərbaycanın tərkibində qalmış oldu. Bunu Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu barədə demişdi ki, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən də Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi. 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda isə əhalinin tam əksəriyyəti Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Unitar dövlətlər və onun tərkibində olan muxtar respublikalar məsələsi bəzən birmənalı anlaşılmır. Xüsusilə belə bir fikir vurğulanır ki, “unitar dövlətin tərkibində muxtar respublika ola bilməz”. Bu istiqamətdə tədqiqatlar aparan araşdırıcılar bunun əksini söyləyirlər. Qeyd edirlər ki, BMT üzvü olan 193 dövlətin böyük əksəriyyəti, yəni 85 faizə yaxını – 168-i unitar dövlətlərdir. Bu dövlətlərin 32-nin tərkibində 40-dan artıq bu və ya digər dərəcədə özünüidarəetmə səlahiyyətlərinə malik muxtar ərazi vahidləri mövcuddur. Böyük Britaniya, Portuqaliya, İspaniya, İtaliya, Fransa, Danimarka, Finlandiya, Gürcüstan, Çin, Serbiya, Panama, İndoneziya və b. ölkələrin tərkibində ən azı bir muxtariyyətin olduğu unitar quruluşa malik dövlətlərdir.

Dövlətin tərkibində muxtariyyətin olması onun federasiya kimi qəbul edilməsinə əsas vermir. Lakin bu faktdır ki, bir sıra federasiyaların da tərkibində muxtar ərazi qurumları vardır və onlar bir çox hallarda federal subyektlərdən öz səlahiyyətlərinin əlahiddəliyinə görə fərqlənirlər. Məsələn, “muxtariyyətlər nəhəngi” adlandırılan Rusiya Federasiyasının tərkibində 84 bərabərhüquqlu federal subyektdən əlavə, 350-dən artıq regional və 200-dən çox yerli milli-mədəni muxtariyyətlər mövcuddur. Geniş regional milli muxtariyyətlər sistemini yaratmış, əhalisinə görə dünyanın ən böyük dövləti olan Çin Xalq Respublikasını da bu sıraya aid etmək olar. Hazırda bu dövlətin tərkibində 5 muxtar vilayət, 30 muxtar dairə, 120 muxtar mahal fəaliyyət göstərir.

Unitar respublika olan İtaliyanın 20 əyalətindən 5-i milli (ərazi) muxtariyyəti statusuna malikdir. Finlandiyanın tərkibində Aland adaları siyasi muxtariyyət hüququndadır. Unitar respublika quruluşuna malik Panama inzibati ərazi bölgüsünə görə 10 əyalət, 77 dairə, 5 muxtar ərazidən ibarətdir və s.

## Geniş hüquq və səlahiyyətlər

Tarixən hər zaman Azərbaycana məxsus, Azərbaycan türklərinin yaşadığı ərazi olmuş Naxçıvan bölgəsinin ölkənin tərkibində muxtariyyət statusu qazanması yalnız hərbi-siyasi və tarixi-coğrafi amillərlə bağlı olub, etnik milli amilin tamamilə istisna edilməsi ilə şərtlənir. Bir sıra iddiaçılar muxtariyyətin “muxtar respublika” formasına qarşı çıxırlar. Bu statusun ləğv edilməsini, aşağı formalardan birinin seçilməsini arzu edirlər. Sadəcə, bu arzu onlarda nədən qaynaqlanır? Niyə onları bu qədər narahat edir?

Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Respublikası adlandırılmış, hətta bir müddət müstəqil fəaliyyət göstərmiş, çox geniş hüquq və səlahiyyətlərə malik olmuşdur. Belə ki, 20-ci illərdə Naxçıvanda baş verən hərbi, siyasi, beynəlxalq proseslər Naxçıvanın müstəqil beynəlxalq münasibətlərdə olmasını labüd etmişdir və qanunvericilik də ona bu səlahiyyətin verilməsini öz normalarında əks etdirmişdir. Bu illərdə Naxçıvan MSSR İran, Türkiyə kimi qonşu xarici dövlətlərlə, Cənubi Qafqaz respublikaları ilə diplomatik və iqtisadi-ticari əlaqələri konsulluq və nümayəndəlik vasitəsilə həyata keçirmişdir.

Naxçıvan MSSR-in Maku, Xoy və Təbriz şəhərlərində konsulluğu, Türkiyənin Qars şəhərində RSFSR konsulluğu yanında müvəkkilliyi yaradılmışdı. Muxtar Respublikanın Bakı, İrəvan və Tiflis şəhərlərində daimi, ZSFSR yanında iqtisadi, eləcə də ayrıca dəmir yolu nümayəndəsi olmuşdur. Əziz Şərif uzun illər Naxçıvan MSSR-in Gürcüstanda, sonra isə ZSFSR-də daimi nümayəndəsi olmuşdur.

Gümrü müqaviləsinin tələblərinə əsasən, Naxçıvan MSSR-də yerləşdirilmiş türk qoşunları Türkiyənin Naxçıvan MSSR-dəki hərbi nümayəndəliyi vasitəsi ilə idarə olunurdu. Lakin türk qoşunlarının ərazidən çıxarılması, sovet-türk münasibətlərində sərinləşmənin əmələ gəlməsi 1924-cü ilin iyul ayında Türkiyə Cümhuriyyətinin Naxçıvan MSSR-dəki hərbi nümayəndəliyinin bağlanmasına səbəb oldu.

İranın Naxçıvan MSSR-dəki konsulluğu 17 noyabr 1938-ci ilədək fəaliyyət göstərmişdir. B.Şahtaxtinski Qars konfransında çıxış edərkən demişdir: “Azərbaycan şura hökumətidir. Naxçıvana veriləcək muxtariyyət Rusiyadakı sistemə görə olacaqdır. Naxçıvan uzaqda (Azərbaycandan – İ.H.) yerləşdiyi üçün ona verilən idarə üsulu muxtariyyətdən də artıqdır. Xalq komissarlarından təşkil olunmuş bir məclis vardır”.

Naxçıvan əhalisi həmişə Azərbaycanın tərkibində (protektoratlığında, himayəsində olsa da belə) olması uğrunda mübarizə aparmışdır və son nəticədə buna nail olmuşdur. Naxçıvan əhalisi ölkəni heç vaxt Azərbaycandan ayrı təsəvvür etməmişdir.

## Nadir muxtariyyət modeli

Bir çox Avropa siyasətçiləri Naxçıvanın muxtariyyətini beynəlxalq unikal bir model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirirlər. Məsələ burasındadır ki, Naxçıvanın muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə müəyyən olunub. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsinin hələlik mövcud olmaması və muxtariyyətin konstitusional səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən əsas amillərdəndir. Unitar dövlət olan Azərbaycanın tərkibində muxtar dövlətin, parlamentli respublikanın mövcud olması da onu fərqləndirir.

Naxçıvanın muxtariyyət modeli 30 oktyabr 2013-cü il tarixdə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd edilib. Sessiyada “Avropada xüsusi statusa malik region və ərazilər” adlı hesabatda Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu xüsusi qeyd edilərək belə bir modelin çox faydalı olduğu vurğulanıb. Bu cür dəyərləndirmə 1997-ci ildə Venesiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinə verdiyi rəydə də öz əksini tapıb.

Beləliklə, bir daha aydın olur ki, unitar dövlətin tərkibində muxtar respublikanın olması ona heç bir mənfi meyllər yaratmır. Konkret olaraq Naxçıvan Muxtar Respublikasına gəldikdə isə bunun unitar dövlətə, onun ərazi bütövlüyünə, siyasi-hüquqi statusuna heç bir maneçiliyi yoxdur, əksinə xeyri vardır. 1990-cı ildə Ermənistan SSR Naxçıvan ərazisinə hərbi müdaxilə edəndə Naxçıvan muxtariyyət statusundan, Qars müqaviləsinin müddəalarından istifadə edərək SSRİ tərkibindən çıxdığını bəyan etdi.

1992-ci ilin may ayında Sədərək rayonuna ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul edərək 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan muxtariyyətinin qarantı olduğunu bütün dünyaya çatdırdı. Türkiyə, nəinki bilavasitə özünün fəal siyasi-diplomatik gedişləri ilə Naxçıvanın müdafiəsinə qoşuldu, eyni zamanda, onun dəstəyi ilə 1992-ci ilin may ayında düşmənin hərbi əməliyyatları genişləndirdiyi bir vaxtda dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi ki, bu da, bütövlükdə, real nəticəyə gətirib çıxaran böyük diplomatik uğur idi.

## Naxçıvan muxtariyyətinin tarixi əhəmiyyəti

Keçmiş SSRİ deyilən ölkədə muxtariyyətləşmə siyasəti 1918-ci ildə başlamış və 1924-cü ilə qədər davam etmişdir. Artıq 1924-cü ildə SSRİ tərkibində muxtar vilayətlərin və muxtar respublikaların yaradılması başa çatdırılmışdı. Bunlardan ancaq Naxçıvan və Acarıstan xüsusi beynəlxalq müqavilələrlə muxtar ərazi statusuna malik olmaq hüququ qazanmışdır. Azərbaycan Respublikasının tərkibində olan Naxçıvan Muxtar Respublikası heç bir halda milli amilə söykənmir və özünün yaranma tarixi və şərtlərinə görə dünyada yeganədir.

Qalan muxtariyyətlər Sovet Rusiyasının mərkəzi dövlət hakimiyyəti orqanlarının aktları əsasında təşkil edilmişdi. Belə bir cəhət də qeyd edilməlidir ki, Naxçıvan Muxtar Respublikası üç xarici dövlətlə sərhədə malikdir və indiki halda Azərbaycanla quru sərhədi yoxdur. Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti Azərbaycanla Naxçıvan arasında yolların açılmasına, blokadanın aradan qaldırılmasına xidmət edir.

Ümumiyyətlə, beynəlxalq müqavilələrdə (Moskva və Qars müqavilələrində) yer alan ayrıca bəndlərə əsasən, Naxçıvan Azərbaycanın tərkibində özəl status qazanmış və həmin statusun pozulması, habelə Naxçıvan ərazisinin dəyişdirilməsi və onun başqa dövlətə birləşdirilməsini qadağan edən müddəaya Rusiya ilə Türkiyə beynəlxalq təminat vermişdir.

Bununla belə, yüz illik tarixi ərzində Rusiya, eləcə də SSRİ tərəfindən bu təminata heç də həmişə əməl olunduğunu söyləmək olmaz. Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi statusunun dəyişdirilməsinə cəhd, ərazisinin azaldılması bilavasitə Sovet Rusiyasının və SSRİ-nin qeyri-obyektiv və ikili mövqeyi sayəsində olmuşdur.

Azərbaycanın tərkibində Naxçıvan vilayətinə muxtariyyət statusunun verilməsi tarixi əhəmiyyət kəsb etmişdir. Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun həyati əhəmiyyətini yüksək qiymətləndirərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir.

Naxçıvan əhalisi ərazini Azərbaycanın tərkib hissəsi kimi qoruyub saxlamaq üçün 74 minə yaxın övladını itirmişdir. Naxçıvanlıların qəhrəmanlığına Azərbaycan rəhbərləri yüksək qiymət verdiyi kimi, düşmənlərimiz də bunu etiraf etməyə məcbur olmuşdur. Naxçıvanın fədakar və qəhrəman övladları təkcə erməni daşnakları ilə mübarizə aparmamışlar, onlar həm də Rusiyanın, İngiltərənin və ABŞ-ın məkrli oyunlarını başa düşmüş, onların məqsədlərinin reallaşmasına imkan verməmişlər. Ona görə də əldə olunan muxtariyyət statusu və Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi nailiyyət kimi dəyərləndirilir. Bu isə Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusunda ifadə olunur.

Yüz illik yubileyi qeyd olunan Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyət orqanları Azərbaycan ilə üzvi surətdə bağlıdır və qarşılıqlı şəkildə ahəngdar fəaliyyət göstərirlər. Hələ 1921-ci ilin əvvəlində keçirilən rəy sorğusunda mahalın əhalisi Naxçıvan ərazisinin respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi. Naxçıvanın muxtar ərazi təşkil etməsi Moskva və Qars beynəlxalq müqavilələrilə təsdiq olundu. N.Nərimanov bununla əlaqədar olaraq demişdir ki, Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratı altında müstəqil respublika elan olunur. Orada nümayəndəmiz olacaq və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik.

B.Şahtaxtinskinin 1921-ci il 10 noyabr tarixli bəyanatında deyilirdi ki, Naxçıvan vilayəti “Muxtar Xalq Sovetləri respublikaları” sırasına daxil edilir və bununla yanaşı, Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS, Azərbaycanın isə yeni dövlətdə nümayəndəsi olacaqdır.

Naxçıvan diyarı əhalisinin qətiyyətli mövqeyi və Türkiyə Milli hökumətinin ardıcıl və səmərəli diplomatik fəaliyyəti nəticəsində bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu. Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvan muxtar ölkəsi haqqında Əsasnamədə və Naxçıvan MSSR haqqında yeni Əsasnamədə Azərbaycan SSR daxilində muxtar respublika elan etməyi, ona Naxçıvan MSSR adını verməyi qərara almışdır.

Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Konstitusiyası, həm də Naxçıvan Konstitusiyası ilə təsbit olunub.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının muxtariyyət tarixi araşdırılarkən bir sıra maraqlı və əhəmiyyətli əlamətləri müəyyən etmək olar. Beləki, bir sıra ölkələrin tərkibində muxtariyyətlər mövcuddur. Bu muxtariyyətlər həmin ölkənin tərkibində yaşayan azyaşlı xalqların mədəni cəhətdən inkişaf etmələri üçün yaradılıb. Yeni, muxtar qurumlar milli-etnik əlamətlər əsas götürülərək yaradılmışdır.




Muxtariyyətlərin müxtəlif formalarına təsadüf edilir. Azsaylı muxtariyyətlər vardır ki, onlar beynəlxalq müqavilələr əsasında yaradılıb. Naxçıvanın muxtariyyət statusu da beynəlxalq müqavilələr əsasında yaradılıb. Burada milli-etnik amil yoxdur. Çünki bu ərazidə yaşayanlar azərbaycanlılardır. Naxçıvan muxtariyyətinin yaranması tarixi, siyasi və coğrafi səbəblərlə əlaqədardır. Ərazinin işğal təhlükəsindən qorunması üçün muxtariyyət forması qəbul edilmişdir.

Naxçıvan vilayətinə muxtar respublika statusu verməklə ona müəyyən səlahiyyətlər də verilmişdir. Sovet Rusiyası sonradan bu səlahiyyətləri azaltmaqla muxtar respublikanı muxtar diyara çevirmişdir. Bu beynəlxalq müqavilələrə zidd olduğundan muxtar respublika statusu bərpa edilmiş və 1924-cü ildə Naxçıvan Muxtar Respublikası yaradılmışdır.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Unudulmaz sənətkarlar

# Gəncə Teatrının bakılı aktyoru

**Xəbər verilidiyi kimi, ötən ay Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına və Gəncə Dövlət Dram Teatrına Azərbaycan Respublikası Baş nazirinin qərarı ilə “Milli” Teatr statusu verilib. Milli teatr sənətinin inkişafında böyük rolu olan hər iki sənət məbədinin yaradıcı heyəti buna layiq olduğunu illər boyunca sübut edib. Bu gün aramızda olmayan sənətkarların da ruhu şaddır. Onlardan biri Gəncə teatrının “külüng” vuranlarından olmuş Əməkdar incəsənət xadimi Həsən Ağayevdir.**



Teatr tariximizdə öz yeri olan Gəncə Dövlət Milli Dram Teatrı yetirdiyi onlarca müqtədir sənətkarla fəxr edir. Bu barədə söhbət acarkən, ömrünü fədakarcasına sənətə həsr edən, tanınmış rejissor Həsən Ağayevi xatırlamamaq mümkün deyil.

Həsən Səfər oğlu Ağayev 1910-cu ildə Bakıda anadan olub, orada teatr məktəbində təhsil alıb, bir neçə il paytaxtda – Türk İşçi Teatrında çalışdıqdan sonra İrəvana gedib və oradakı Dövlət Azərbaycan Dram Teatrında aktyorluq edib. Eyni zamanda, rejissor sənətinə böyük maraq göstərib. Elə bu marağın nəticəsi olaraq Moskvada Anatoli Lunaçarski adına Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsində təhsilini davam etdirib. Bu çətin sənətin bütün sirlərinə vaqif olub.



O, 1939-cu ildə Gəncəyə gəlib. Müəyyən fasilələrlə 1939–1942 və 1962-1965-ci illərdə Gəncə Dövlət Milli Dram teatrının baş rejissoru kimi fəaliyyət göstərib. Cəfər Cabbarlının “Yaşar”, “1905-ci ildə”, “Aydın”, “Solğun çiçəklər”, “Almaz”, Səməd Vurğunun “Fərhad və Şirin”, Sabit Rəhmanın “Xoşbəxtlər”, “Əliqulu evlənir”, Nəcəf bəy Vəzirovun “Hacı Fərəc”, “Müsibəti-Fəxrəddin”, “Hacı Qənbər” (“Yağışdan çıxdıq, yağmura düşdük”), Mirzə Fətəli Axundzadənin “Hacı Qara”, “Lənkəran xanın vəziri”, Üzeyir bəy Hacıbəylinin “Ər və arvad”, Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, Süleyman Sani Axundovun “Eşq və intiqam”, Cəlil Məmmədquluzadənin “Ölülər”, Zülfüqar bəy Hacıbəylinin “Əlli yaşında cavan”, Abdulla Şaiqin “Gözəl bahar”, Hüseyn Cavidin “Səyavuş” kimi əsərlərinə maraqlı səhnə həyatı bəxş edib.

Teatr 1945-ci ildə klassik əsərlərin tamaşaya qoyulması üzrə Ümumittifaq müsabiqəsində N.V.Qoqolun “Müfəttiş” komediyası ilə iştirak edib. Məhz Həsən Ağayevin rejissor işinə görə kollektivin yaradıcılıq nailiyyəti yüksək qiymətləndirilib. Onun verdiyi quruluşlarda hər zaman müasirlik və ideya-bədii cəhətin dərki prinsipləri nəzərə alınmaqla, uğurlu səhnə təfsiri təqdim olunub. Çağdaş Azərbaycan dramaturqlarının əsərlərinin səhnə həyatı bu baxımdan nümunə sayılıb.

Məçid Şamxalovun 7 şəkildən ibarət 4 pərdəli “Qaynana” komediyasını ilk vaxtlar Bakıda teatr ictimaiyyəti zəif əsər kimi səciyyələndirmişdi. Lakin bu pyesə məhz 1957-ci ildə Gəncə Dövlət Milli Dram teatrının rejissoru Həsən Ağayev müraciət edərək cəsarətli addımı sayəsində komediyanın dəyərli səhnə həyatı yaşamasına nail olub. Tamaşanın quruluşçu rəssamı Bəhram Əfəndiyev, bəstəkarı isə Şəfiqə Axundova idi. Azərbaycan səhnəsinin ilk Qaynanası – Cənnət arvad obrazını isə Gürcüstan Respublikasının Əməkdar artisti Reyhan Tağıyeva ifa edib. Məhz Həsən Ağayevdən sonra Məçid Şamxalovun “Qaynana”sı digər Azərbaycan teatrlarında da səhnəyə qoyulmağa başlayıb və bu pyesin motivləri əsasında eyni adlı bədii filmi də çəkilib.

Gəncə Dövlət Milli Dram teatrının səhnəsində Jan Batist Molyerin “Jorj Danden”, “Mıqqı Kərim” (Vasvası xəstə), Mixail Lermontovun “İki qardaş”, Konstantin Simonovun “Vətən oğlu” (Bizim şəhərli oğlan), “Rus məsələsi”, Uilyam Şekspirin “Otello”, Lev Şeynin və Tur qardaşlarının “Fövqəladə qanun”, Nikolay Qoqolun “Müfəttiş”, Leonid Malyuginin “Köhnə dostlar”, Vasili Şkvarkinin “Özgə uşağı”, Anatoli Boryanovun “O tayda”, Karlo Qoldoninin “Məzəli hadisə”, Rabindranat Taqorun “Fəlakət” romanı əsasında Aleksandr Ginzburqun “Qanq qızı” (Kəmalə), Borus Lavrenyovun “Hücum”, Kita Buaçidzenin “Həyətdə qapan it var”, Mustay Kərimin “Aygül diyarı” pyesləri rejissor Həsən Ağayevin maraqlı səhnə təsviri verdiyi əsas tərcümə əsərlərinin bir qismidir. Hər zaman bu pyeslərin səhnə mizanlarında özünün prinsipial yanaşmalarına daha çox üstünlük verən Həsən Ağayev elə bu keyfiyyətlərinə görə daim uğur qazana bilib.

Gəncə Dövlət Milli Dram teatrının rejissoru, mərhum Xalq artisti Vaqif Şərifov sənətkar haqqında xatirələrində yazırdı: “Həsən Ağayev mənim yaddaşımda hər zaman böyük bir şəxsiyyət olaraq xatırlanır. Bu insan çox alicənab, həm də müdrik dünyagörüşlü bir şəxsiyyət idi. O, həm də bizimlə rəftarında ölcülü-bicili davranışı ilə böyük bir nümunə idi. Həm də yaddaşlarda məşqlər zamanı həddən ziyadə tələbkar olması ilə iz salıb. Biz onun məşq proseslərinə özünün icazəsi olmadan zalda əyləşib baxa bilməzdik. Həsən Ağayev mənim sənət müəllimlərimdən biri idi. Onun sənət məktəbindən biz gənc rejissorlar çox öyrənməli idik”.

Teatr sahəsindəki xidmətlərinə görə 1958-ci il may ayının 20-də Həsən Ağayev Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub. O, 1986-cı il iyunun 20-də Gəncə şəhərində vəfat edib. Ruhu şad olsun.

***Anar Ərtoğrul BURCƏLİYEV***
***Teatrşünas***

AYB – 90

# Milli varlığımızın ədəbi məbədgahı

**Azərbaycan Yazıçılar Burliyinin (AYB) Natəvan klubunda mötəbər yaradıcılıq təşkilatının 90 illiyinə həsr edilmiş “Milli ədəbi-bədii, ictimai-siyasi təfəkkür” kitabının təqdimatı olub.**

Bu sanballı araşdırma əsəri haqqında ilk olaraq III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı çərçivəsində AYB-nin 90 illiyinə həsr edilmiş paneldə məlumat verilmişdi. AMEA-nın prezidenti akademik İsa Həbibbəyli daim azərbaycançılıq ideologiyasına şərəflə xidmət edən Azərbaycan Yazıçılar Birliyinin sovet hakimiyyətinin ən sərt illərində belə ədəbiyyatımızı, milli kimliyimizi, ana dilimizi qorumaq üçün əsl qəhrəmanlıq nümayiş etdirdiyini vurğulamış və Ədəbiyyat İnstitutu tərəfindən 90 illiyə töhfə olaraq sanballı monoqrafiyanın hazırlandığını bildirmişdi.



Akademiya rəhbərinin kitaba yazdığı “Ön söz əvəzi”ndə vurğuladığı kimi, Yazıçılar Birliyi ədəbi-ictimai fikrin əsas inkişaf mərkəzlərindən biridir. Buraya daxil olan kimi müqəddəs məkan ab-havasına düşürsən. Portretlərdən boylanan dahi Nizami, Nəsimi, Vaqif, Sabir, Əhməd Cavad, Müşfiq sanki bunu adama təlqin edirlər. Birliyin otaqlarında kimlər oturmayıb?.. Məmmədkazım Ələkbərli, Seyfulla Şamilov, Rəsul Rza, Süleyman Rəhimov, Səməd Vurğun, Mirzə İbrahimov, Mehdi Hüseyn, İmran Qasımov, İsmayıl Şıxlı, hazırda Anar... Bu gün isə burada bizim nəsil – qələm dostlarımız Çingiz Abdullayev, Rəşad Məcid, İlqar Fəhmi, Səlim Babullaoğlu və başqaları rəhbər heyətdə təmsil olunurlar. Hər bir yazar üçün doğma məkandır AYB.




Elə dəhliz divarlarındakı portretlər – “Xalq şairləri”, “Xalq yazıçıları”, “Nakam taleli yazarlarımız”, “Şəhid şairlərimiz”, “Alimlər, tənqidçilər” guşələri 90 yaşlı şeir-sənət məbədinin tarixini pıçıldayır... Oradan keçib unudulmaz tarixi toplantıların ünvanı olan Natəvan klubuna daxil olduq. Təqdimat mərasimini AYB-nin 1-ci katibi Çingiz Abdullayev açaraq, bütün qələmdaşlarını yubiley münasibətilə təbrik etdi, 90 illiyə əsl töhfə olan kitabın çapını dəyərləndirərək, müəllif və tərtibçilərə təşəkkürünü bildirdi.

Filologiya elmləri doktoru, professor Asif Rüstəmli AYB-nin tarixindən, onilliklərlə ziyalı ocağı olmasından danışdı, kitab haqqında özəl mülahizələrini bölüşdü. Azərbaycan Yazıçıları Həmkarlar İttifaqının sədri, şair Firuzə Məmmədli təbriklərini çatdırdı və birliyin fəaliyyətində fərqlənən əməkdaşları mükafatlandırdı. AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologoya elmləri doktoru Vaqif Yusifli birlikdə ilk üzvlük sevincindən, hazırda üzvlərinin sayı 3 mini ötən yaradıcılıq təşkilatının mənəvi tərbiyədə rolundan bəhs etdi. “Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə mədəniyyət tariximizə diqqətin vacibliyini qeyd etdi, AYB-nin və dəyərli söz sənəti tribunası olan “Azərbaycan”ın 1 əsrlik xidmətlərini önə çəkdi.

Yeni kitabın işıq üzü görməsində fədakarlığı ilə seçilən filologiya üzrə elmlər doktoru Salatın Əhmədli, filologiya elmləri doktoru, professor Təyyar Salamoğlu və başqaları da yubiley və kitabla bağlı ürək sözlərini söylədilər.

Kitabın tərtibçisi – şair, ədəbiyyatşünas, publisist Gülxani Pənah yubileyə töhfə kimi hazırladığı toplunun mündəricatı və ayrı-ayrı bölümləri barədə məlumat verdi və söylənən xoş sözlərə görə minnətdarlığını bildirdi. Sonda məclisin iştirakçılarına yeni kitabın nüsxələri hədiyyə edildi.

Yubiley silsiləsindən ilk tədbir hər kəsdə gözəl təəssürat yaratdı.

***Ə.ƏLİYEV***
***XQ***

Səsi dünyadan gələn soydaşımız

# “Çağ”ın söz palitrasını yaratmış filosof

**Düz 30 il əvvəl Masallıda tanış olduq. Rahid Ulusel yerli “Yeni həyat” qəzetinin baş redaktoru idi, mənsə AzTV-nin bölgə müxbiri. Ölkə üzrə ilk dəfə Masallıda aqrar islahatlara start verilmişdi. O vaxtkı icra başçısı, daha öncə Moskvada TASS-ın müxbiri olmuş jurnalist Teymur Yəhyayev heç birimizə nəfəs dərməyə imkan vermədən, islahatların gedişindən reportajlar, təhlili yazılar hazırlamağı tövsiyə edirdi. Hər dəfəsində də Rahid müəllim “Oldu, yaxşı”, – deyir və üz ağartmağa çalışırdı.**

Sonra mən də, elmlər namizədi olan Rahib də Bakıda işlədik. Az-az görüşürdük, amma Rahid Uluselin elm sahəsində qazandığı uğurlardan xəbər tuturdum. İllər sonra bir dəfə Azərbaycan Yazıçılar Birliyində (AYB) kiminsə kitabının təqdimatında rastlaşdıq və isti-isti hal-əhval tutduq. O, artıq Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Azərbaycanda Atatürk Mərkəzinin elmi işçisi, Fəlsəfə Cəmiyyətlərinin Beynəlxalq Federasiyasının üzvü, fəlsəfə elmləri doktoru, professor idi. Bir daha gördüm ki, elə vaxtilə Masallıda olduğu kimi, indi də üz ağartmağında, baş ucaltmağındadır.




Rahid Uluselin “Çağlar. Düşünərliyin zaman qatları” kitabına məhz poeziya və fəlsəfənin vəhdətindən yoğrulan ayrıcları – ikilik, dördlük və rübailəri (poetik aforizmin yeni örnəkləri), bir neçə seçmə şeiri daxil edilib. Kitab bütöv bir dünyagörüşünün bir-birinə bağlı seçkin təzahür mənzərələrini yaradan “Mütəfəkkir”, “Varlıq çağı”, “İnsan çağı”, “Duyğu çağı”, “Dəyər çağı” “Həqiqət çağı”, “Söz çağı”, “Ox çağı”, “Çağların körpüsü” və “Səndən başlayıb məndə bitməyən dünya” bölümlərindən ibarətdir. Hər yazısı düşündürücü təsir bağışlayan, özəl müəllif yanaşmaları ilə diqqət çəkən toplunun redaktorları filosof Niyazi Mehdi və şair Vaqif Bəhmənlidir.

Onun “Düşüncə vadisi. Aforizmlər” (“An Oasis of Thoughts. Aphorisms”) adlı digər kitabı Azərbaycan, Türkiyə, Rusiya və İrandan sonra Almaniyada da çap olunub. Professorun fəlsəfi yaradıcılığında mühüm yer tutan bu aforizmlər insanla dünyanı vəhdətə gətirən ən qırılmaz telləri daha da möhkəmləndirmək, həyatımızın məna bolluğunun dərinliyinə varmaq, çatışmazlıqları görüb qətiyyətlə üzə çıxarmaq enerjisini daşıyır. Onlar ümumən aforizmin janr palitrasını (deyimlər, atmacalar, maksimlər, lakonizmlər, paradiqmalar və s.) özünəməxsus forma biçimində, məzmun zənginliyində əks etdirir. Kitabın əsas məqsədi yaşadığımız tarixi zamanın – XXI əsrin yaradıcı ideya qaynaqlarını oyatmaqdan, bəşəriyyətin epoxal inkişafı yönündə qarşılaşdığı çətinlik, gərginlik və böhranlara refleksiya vermək gərəyindən ibarətdir.

Azərbaycanlı filosofun ayıq və məsuliyyətli düşüncəni insanlığın universal dəyərlərinin necə yaşadılması üzərində cəmləyən bu kitabı Avropanın mötəbər kitabxanalarında və “Amazon” da daxil olmaqla dünyanın bir sıra aparıcı saytlarında satışa təqdim edilir. Ümumiyyətlə, alimin 22 dəyərli kitab və monoqrafiyası çap olunub.

Rahid Uluselin bədii-fəlsəfi kitabları özünün tərcüməsində xarici ölkələrdə də çapdan çıxıb. Bu fakt yadıma salır ki, onun gəncliyinin daşar axtarış çağlarından bəri könül verib sevdiyi, haqqında esselər yazdığı, əsərlərindən tərcümələr etdiyi, Şərqlə Qərbin sənət və fəlsəfə məktəblərinin “məzun”u Cibran Xəlil Cibran bütün dünyada 100-dən çox dildə 10 milyonlarla tirajda çap edilərək yayıan məşhur “Peyğəmbər” əsərinə qrafik illüstrasiyaları da özü çəkərək, sanki, ruhunu cismaniləşdirib. Adının mənası Allahı sevən, ruh adamı olan Rahid Ulusel də öz əsərlərini özü tərcümə etməklə məna ruhunu qorumağa çalışıb.

Rahid Ulusel 1954-cü ildə Masallı rayonunun Kəlbəhüseynli kəndində dünyaya gəlib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Rayonda müəllim, icra hakimiyyəti başçısının müavini, baş redaktor vəzifələrində çalışıb. 1990-cı ildə “Humanitariya metasistemi” konsepsiyasına görə keçmiş SSRİ Təhsil Nazirliyinin medalına layiq görülüb. 2007-ci ildə Bakı Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib. Bir ara Qərb Universitetində fəlsəfə və kulturologiya üzrə mühazirələr aparıb. “Qlobalistika və Sivilizasiologiya” Elmi Araşdırmalar İctimai Birliyini yaradıb. Rəhbəri olduğu bu təsisat 2011-ci ildə bütün Cənubi Qafqazda ilk elmi qurum olaraq Fəlsəfə Cəmiyyətlərinin Beynəlxalq Federasiyasına üzv qəbul edilib.

Rahid Ulusel 1989-cu ildən Yazıçılar Birliyinin üzvüdür, yaradıcı şəxs kimi Prezident təqaüdçüsü olub. Biokosmologiya Assosiasiyasının Yaxın Şərq üzrə vitse-prezidenti, “Biokosmologiya – neo-Aristotelizm” jurnalının redaksiya heyətinin üzvü olub. Hazırda AMEA Fəlsəfə İnstitutunun Dissertasiya Şurasının, Ədəbiyyat İnstitutunun Elmi Əsərləri – “Poetika.izm”in redaksiya şurasının üzvüdür. XXII və XXIII Dünya Fəlsəfə Konqresləri (Koreya, Seul Universiteti, 2008 və Yunanıstan, Afina, 2013), VIII Dünya Konqresi (İsveç, Stokholm, 2010), II Beynəlxalq Konfrans (ABŞ, Harvard Universiteti, 2011) və bir sıra digər beynəlxalq tədbirlərdə Azərbaycanı layiqincə təmsil edib. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə “Azərbaycanın dünya birliyinə inteqrasiyası: Mədəniyyətlərin İpək Yolu” (2009) layihəsini həyata keçirib, layihə çərçivəsində müvafiq kitabları çap etdirib. Dövri mətbuatda esseləri və əsasən, elmi jurnallarda fəlsəfə, estetika, kulturologiya, filologiya problemlərinə dair 200-dən çox məqaləsi dərc olunub. Elmi nailiyyətlərinə görə 2917-ci ildə AMEA tərəfindən “İlin alimi” adına layiq görülüb.

Ömrünün 70-ci baharını yaşayan, kitabları dünyanı gəzən alim dostumuza daha böyük uğurlar diləyi ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Ulduz”un yeni poeziya ulduzları



**“Ulduz” aylıq ədəbiyyat dərgisi və Azərbaycan Yazıçılar Birliyi (AYB) Ədəbiyyat Fondunun unudulmaz Xalq şairi Vaqif Səmədoğlunun 85 illik yubileyinə həsr edilmiş, 35 yaşa qədər qələm adamları arasında keçirdikləri poeziya müsabiqəsinin qalibləri mükafatlandırılıblar.**

Müsabiqənin informasiya dəstəkçisi olan “Ədəbiyyat və İncəsənət” portal xəbər verir ki, AYB-nin Natəvan klubunda keçirilən mərasimdə ədəbiyyat və ictimaiyyət xadimləri, media nümayəndələri iştirak ediblər.

AYB-nin sədri, Xalq yazıçısı Anarın təşəbbüsü ilə keçirilən müsabiqənin münsiflər heyətinin sədri qurumun katibi, şair Səlim Babullaoğlu, üzvləri isə tənqidçi Seyfəddin Hüseynli, filoloq Günay Səma Şirvan, şair Taleh Mansur, yazıçı Varis idi. Onlarla iştirakçının qatıldığı yarışmanın qalib və mükafatçıları elan olunub. Cavid Qasımov 1-ci yerə layiq görülüb. Rəşad Nağı Mustafa və Allahşükür Ağa 2-ci, Eminquey, Seyyidəli Sübhi və El Roman 3-cü yerlərdə qərarlaşıblar.

Tədbirin aparıcısı – Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru Varis Xalq şairi Vaqif Səmədoğlu yaradıcılığından söz açıb, onun xatirəsinə təşkil edilmiş müsabiqənin böyük maraqla qarşılandığına diqqət çəkib. Sonra Xalq yazıçısı Anar Vaqif Səmədoğlu ilə dostluğunun tarixçəsinin maraqlı məqamlarını xatırladıb, ölməz şairin yaradıcılığının əsas məziyyətlərindən söz açıb və qalibləri təbrik edib.

AYB sədrinin müavini Rəşad Məcid Vaqif Səmədoğlu ilə bağlı xatirələrini bölüşüb, şairin şeirlərindən nümunələr səsləndirib. “Ulduz” jurnalının baş redaktoru Qulu Ağsəs müsabiqənin əhatə dairəsi haqda məlumat verib. Vaqif Səmədoğlunun ömür-gün yoldaşı Nüşabə Vəkilova 85 illiklə bağlı tədbirlərə qiraət müsabiqəsi ilə start verildiyini diqqətə çatdıraraq, bu müsabiqənin növbəti addım olduğunu qeyd edib. Müsabiqənin münsiflər heyətində təmsil olunan Seyfəddin Hüseynli və Taleh Mansur ayrı-ayrı iştirakçıların uğurlu poetik nümunələrindən söz açıblar.

Diplom və pulla mükafatlandırılan qaliblər sonda öz şeirlərini səsləndiriblər. Qeyd edək ki, müsabiqənin təşkilati dəstəkçisi “Kəpəz hospital” idi.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Pakistan–Çin tərəfdaşlığı Hindistanı niyə narahat edir?

**Bu günlərdə Pakistanın baş naziri Şahbaz Şərif Çinə səfər edib. Pekində bir sıra mühüm görüşlər keçirən pakistanlı nazir ölkəsinə razı qayıdıb. Çin strateji müttəfiqi adlandırdığı Pakistana bundan sonra sərmayə yatıracağını bildirib. Ancaq iki ölkənin əlaqələrini daha da gücləndirməsi Hindistanda narahatlıqla qarşılanıb, çünki Yeni Delhinin Çin və Pakistan ilə ərazi mübahisələri var və hər belə yaxınlaşma induslarda qıcıq yaradır.**



Pakistanın Baş naziri Şahbaz Şərif ilə görüşdə Çin Xalq Respublikasının sədri Si Cinpin bildirib ki, Pekin çoxtərəfli mexanizmlər çərçivəsində İslamabad ilə koordinasiyanı gücləndirməyə və əməkdaşlığı möhkəmləndirməyə, dünyanın bərabərhüquqlu və nizamlı çoxqütblülüyünü və ictimai və inklüziv iqtisadi qloballaşmanı birgə təşviq etməyə, inkişaf gündəminə diqqət yetirməyə, təhlükəsizlik problemlərini dəf etməyə, qlobal idarəetməni təkmilləşdirməyə, inkişaf etməkdə olan ölkələrin ümumi maraqlarını və beynəlxalq ədaləti müdafiə etməyə hazırdır. Eyni zamanda, Çin lideri görüşdə vurğulayıb ki, Pekin Pakistanın milli suverenliyini və ərazi bütövlüyünü qorumaqda, onun milli şəraitinə uyğun inkişaf yolu tutmaqda və terrorizmlə mübarizədə qətiyyətlə dəstəkləməyə davam edəcək.

Baş nazir Şahbaz Şərif isə görüşdə bir daha bildirib ki, heç bir qüvvə Çinin inkişafını və böyüməsini dayandıra, Pakistan və Çin arasındakı möhkəm dostluğu sarsıda bilməz. Onun sözlərinə görə, Pakistan həmişə Çinin ən etibarlı dostu və tərəfdaşı olaraq qalacaq. "Vahid Çin" prinsipi Pakistan hökumətinin sarsılmaz öhdəliyidir və Tayvan Çinin ayrılmaz hissəsidir. Bundan başqa, cənab Şərif diqqətə çatdırıb ki, Pakistan Tayvan, Sitsyan, Sincan və Cənubi Çin dənizi kimi məsələlərdə Çinin mövqeyini qətiyyətlə dəstəkləməyə davam edəcək.

Bundan başqa, Pekin qonşu ölkəyə sərmayə qoymağa davam edəcəyinə də söz verib. Eyni zamanda, Pakistan Kəşmirdəki vəziyyətlə bağlı Çin tərəfini də məlumatlandırıb. Ancaq bu müzakirə Hindistanda birmənalı qarşılanmayıb. Hindistan hökuməti ilə əlaqəli olan "Hindustan Times" qəzeti yazıb ki, bu mesaj xüsusilə ciddi narazılıq doğurub. Çünki pakistanlıların Çində Kəşmir barədə danışmaları xəbəri Narendra Modinin baş nazir kimi and içdiyi vaxtda verilib. Bu xəbər Hindistan sosial mediasında da qəzəb dalğasına səbəb olub. İnduslar Pakistan Baş nazirinin Çində Kəşmir barədə danışmasını Modinin hakimiyyətə qayıtmasına mane olmaq cəhdi kimi qiymətləndiriblər.

Əslində, Çin prezidenti Si Cinpin və Pakistanın baş naziri Şahbaz Şərifin birgə bəyanatında birbaşa Kəşmirdən bəhs edilmir. Pekin həmişə bu cür sənədlərdəki ifadələri diqqətlə yoxlayır. Yalnız qısaca qeyd edilən BMT Təhlükəsizlik Şurasının 1948-ci il qətnaməsidir ki, bu qətnamə həm Hindistanı, həm də Pakistanı öz qüvvələrini Kəşmirdən çıxarmağa çağırır. Bununla belə, sənədin özü Pakistan-Çin münasibətlərinin hazırkı durumuna, eləcə də onların perspektivlərinə işıq salır. "Reuters" agentliyinin məlumatına görə, Çin hasilat sənayesinə, xüsusən də dənizin dibindəki neft, qaz ehtiyatlarına, quruda isə dəmir filizlərinin hasilatı və Pakistan müəssisələrində onların emalına investisiya qoymağa davam edəcək. Buradan aydın olur ki, Pakistana 65 milyard dollara yaxın sərmayə yatıran Çin bununla kifayətlənmək fikrində deyil.

Pekin və İslamabad, həmçinin Çin-Pakistan İqtisadi Dəhlizini "Bir kəmər, bir yol" təşəbbüsü əsasında əməkdaşlıq modelinə çevirməyi vəd ediblər. Bu baxımdan Çinin dənizə çıxışı olmayan şimal-qərb bölgəsindən Hind okeanına gedən marşrutun son nöqtəsi kimi Qvadar limanının əhəmiyyəti vurğulanıb. Düzdür, bəyanatdan belə nəticəyə gəlmək olar ki, gələcəkdə Pekinin yardımı bazar prinsiplərinə əsaslanacaq. Siyasətə gəlincə, tərəflər strateji tərəfdaşlıq və sarsılmaz dostluq münasibətlərini bundan sonra da inkişaf etdirəcəklərini açıqlayıblar. Pakistan vahid Çin, yəni Tayvanın Çin Xalq Respublikasına mənsub olması prinsipinə sadiqliyini bir daha təsdiqləyib.

Bəs nə üçün Pakistan və Çin liderləri arasında aparılan danışıqlar və sonrakı bəyanatlar Hindistanda belə emosional reaksiya doğurub? Məsələ ondadır ki, Cammu və Kəşmir ərazilərində müqəddəs yeri ziyarət etmək istəyən hindu zəvvarlarını daşıyan avtobusa atəş açılıb. Nəticədə 10 nəfərin öldüyü bildirilir. Hindistanlı analitiklər hesab edirlər ki, bu hadisə Kəşmirin Hindistan-Pakistan münasibətlərində qaynar nöqtə olaraq qaldığını təsdiqləyir. Çin isə geosiyasi səbəblərdən öz tərəfdaşını dəstəkləməyə davam edir.

***S.ELAY***
***XQ***

# "Azercell" abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədilə 2024-cü il iyulun 1-dən etibarən, fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş ödəniş (danışıq) kartlarının nominalına uyğun olaraq istifadə müddəti aşağıdakı kimi tətbiq ediləcəkdir:

| Kartın nominalı (AZN ilə) | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 | 5 |
| 2 | 10 |
| 3 | 20 |
| 5 | 30 |
| 10 | 60 |
| 25 | 90 |
| 50 | 120 |
| 100 | 120 |

Bütün nominallı (1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN) ödəmə (danışıq) kartlarında yeni ödəmə kartı yükləmə müddəti ödəmə kartlarının nominalından asılı olaraq müəyyən edilən kartın istifadə müddəti + 180 gün kimi saxlanılır. Beləliklə də, abunəçi bu müddət ərzində yeni ödəmə kartı yükləyib istifadə imkanını yeni müddətə artırmaqla, eyni zamanda həmin yeni müddət bitənədək həm daha əvvəl yüklənmiş və istifadə edilməmiş məbləğlərdən, həm də yeni yüklədiyi ödəmə kartının məbləğindən istifadə imkanına malik olacaqdır.

Göstərilənlərlə yanaşı, fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin balasına elektron ödəniş üsulları ilə sərbəst seçilən nominalda pul vəsaitinin yüklənməsi imkanı təmin edilir. Fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş 1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN nominallarının əvəzinə, elektron ödəniş üsulları vasitəsilə həyata keçirilən ödənişlərə görə aşağıdakı cədvəldə göstərilən aralıqda məbləğlər və müvafiq istifadə müddətləri təyin edilir:

| Ödəniş məbləğinin aralığı | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 AZN-dən - 1,99AZN-dək | 5 |
| 2 AZN-dən – 2,99 AZN-dək | 10 |
| 3 AZN-dən – 4,99 AZN-dək | 20 |
| 5 AZN-dən – 9,99 AZN-dək | 30 |
| 10 AZN-dən – 24,99 AZN-dək | 60 |
| 25 AZN-dən – 49,99 AZN-dək | 90 |
| 50 AZN-dən 99,99 AZN-dək | 120 |

Elektron ödəniş üsulları vasitəsilə ödəniş üçün daxil edilən məbləğin minimal həddi 1 AZN təşkil edir.

**Qeyd – a**bunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

İDMAN

# Basketbolçularımızın yolu yeni zirvələrədir

**Azərbaycan idmanı tarixində komanda növləri arasında Olimpiya Oyunlarına ilk dəfə lisenziya əldə edən qadınların 3x3 basketbol millisi bu günlərdə daha bir uğurlu çıxışla yadda qaldı. Paris Olimpiadası ərəfəsində Avropa Kubokunun final mərhələsinə vəsiqənin əldə edilməsi komandamızın güclü potensialının daha bir göstəricisidir.**




Avropa Kubokunun təsnifat mərhələsində qadınların uğurunu kişilər də təkrar edib. Azərbaycanın həm kişi, həm də qadın komandasının Avropa Kubokunun final mərhələsinə çıxması isə ölkəmizdə bu idman növünün son vaxtlar inkişafının bariz nümunəsidir.

**Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisinin üzvü Dina Ulyanova açıqlamasında bu cür yarışlardakı nəticənin Azərbaycan basketbolu üçün böyük əhəmiyyəti olduğunu deyib:**

– Yüksək səviyyədə basketbol oynadığımızı bir daha sübut etdik. Qarşıda bizi, həmçinin Paris Yay Olimpiya Oyunları gözləyir. Olimpiadada, həm də Avropa Kubokunun əsas mərhələsində ölkəmizi layiqincə təmsil etmək üçün səylərimizi artıracağıq.

**Kosovoda Avropa Kubokunun təsnifat mərhələsindəki görüşlərdən danışan qadınlardan ibarət 3x3 basketbol millisinin baş məşqçisi Ratomir Deliç isə qeyd edib ki, turnirdə qalib gəlmək vacib idi. Komanda istəyinə nail olub. Zədələrlə bağlı bəzi problemlər yaşansa da, qızlar toparlanıb, niyə favorit olduqlarını hamıya göstəriblər. Baş məşqçi Olimpiadaya hazırlıqdan da danışıb:**

– Komandamız 8 ən güclü yığmadan biridir. Olimpiya Oyunlarında qələbə üçün meydana çıxacağıq. Ona görə imkanlarımızdan tam istifadə edib, oyunlara lazımi səviyyədə hazırlaşmalıyıq. Bütün idmançıların arzusudur li, Olimpiya Oyunlarında iştirak edib, yaxşı nəticə qazansınlar. Məğlubedilməz komanda yoxdur.

Kişi basketbolçularımızın Avropa Kubokunun təsnifat mərhələsindəki görüşləri də gələcək uğurlar üçün əsas yaradır. Yığmanın üzvü Zaur Paşayev Kiprlə turnirdəki iki matçın çətin keçdiyini söyləyib. O, sonda qələbə qazanmağın tam başqa hisslər olduğunu dilə gətirib.

Kişi basketbolçulardan ibarət U-20 komandasına məşqçi təyin olunan Z.Paşayev etimada görə, minnətdarlığını bildirib. Vurğulayıb ki, hazırda "Cəlilabad" komandasının oyunçusudur və gələn ilin sonunadək klub karyerasını davam etdirmək istəyir.

Avstriyanın paytaxtı Vyana şəhərində təşkil olunacaq Avropa Kuboku ilə bağlı fikirlərini bölüşən millinin digər üzvü Amil Həmzəyev qələbəyə kökləndiklərini bildirib. O vurğulayıb ki, Avropa Kubokunun əsas mərhələsinin qrupunda oynasalar da, təəssüf ki, qrupu adlaya bilməyiblər. Basketbolçu budəfəki yarışda yüksək nəticə üçün əllərindən gələni edəcəklərini diqqətə çatdırıb.

Qeyd edək ki, Avropa Kubokunda qadınların turnirində Azərbaycanla yanaşı, Avstriya (ev sahibi), Niderland (2023-cü ilin qalibi), Fransa, Almaniya, Macarıstan, İspaniya və İtaliya komandaları iştirak edəcək. Kişi basketbolçularımızın rəqibləri isə Avstriya, Serbiya (2023-cü ilin qalibi), Litva, Hollandiya, Fransa, İspaniya və Xorvatiya komandaları olacaq.

Bratislava (Slovakiya) və Buxarest (Rumıniya) şəhərlərində iyunun 15-16-da keçiriləcək seçmə turnirlərdən sonra daha 4 komanda Avropa Kubokunun final mərhələsinə vəsiqə qazanacaq.

Sayca 9-cu dəfə keçiriləcək Avropa Kubokunda 12 kişi və 12 qadın komandası mübarizə aparacaq.

***L.QURBANOVA***
***XQ***

# Hərbi Prokurorluq əsgərin ölümünü araşdırır

**Xəbər verildiyi kimi, Azərbaycan Ordusunun əsgəri Ceyhun Tofiq oğlu Hüseynov iyunun 9-da Sərur rayonunun Günnüt yaşayış məntəqəsi istiqamətində naməlum şəraitdə itkin düşmüşdü.**

Müdafiə Nazirliyinin dünən yaydığı məlumatda bildirilir ki, əsgər Ceyhun Hüseynovun meyiti dünən səhər Günnüt istiqamətində aşkar edilib. Hərbi Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda isə deyilir ki, əsgərin ölümü ilə bağlı araşdırma aparılır. Prokurorluğun əməkdaşları hadisə yerinə və meyitə baxış keçirib, müvafiq izahatlar alıblar. İstintaq davam etdirilir.

***XQ***

# "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC

## hava kompressorunun satın alınması üçün

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 2 iyul 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (+994 12) 599 00 03 (daxili 3705).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

# Azərbaycan tolerantlığı gürcü mediasında

**Gürcüstanın "Sakartvelos Respublika" qəzetində şərqşünas-alim, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadənin "Azərbaycan Respublikasının İslam dünyasında yeri və rolu" məqaləsi dərc olunub. Yazı "Alyans Gənclər Mərkəzi"nin "Maddi-mənəvi irsimizin təbliği" layihəsi çərçivəsində dərc edilib.**

Yazıda Azərbaycan Prezidentinin 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan etməsi haqqında sərəncamının əhəmiyyəti qeyd olunur. Bildirilir ki, Azərbaycanın İslam dünyasındakı yeri və rolu bu sərəncamda çox yığcam, aydın və məntiqli şəkildə əksini tapıb.

Qəzetin bir səhifəsini əhatə edən məqalədə qeyd olunur ki, ölkəmizdə yaşayan əhalinin 96 faizini müsəlmanlar təşkil edir. Azərbaycan bu gün dünyanın inkişaf etmiş dövlətləri sırasında dayanan, həm daxili, həm də xarici siyasətində demokratik prinsipləri rəhbər tutan tolerant dövlətdir. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların birgə, dinc şəkildə yaşamasının unikal nümunəsidir. Bu gün Azərbaycanda 50-yə yaxın kilsə, ibadət evi, sinaqoq mövcuddur. Bunlardan 6-sı rus pravoslav, 4-ü gürcü pravoslav, 5-i erməni qriqorian, 1-i Roma katolik kilsəsidir.





***Paşa ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
# XQ
xalqqazeti.az

№ 123 (30527) 12 iyun 2024-cü il, çərşənbə

Bakı – 12 iyun 2015-ci il

# Avropa Oyunları idman dünyasına Azərbaycan paytaxtından pərvazlandı

**Hər dəfə planetin hər hansı guşəsində Olimpiya oyunlarından, onların tarixindən söz düşəndə dərhal Afina, Yunanıstan göz önünə gəlirsə, Avropa Oyunları deyəndə də ən əvvəl qitəmizin idmançılarının bu ali yarışlarının ilk paytaxtı əziz Bakımız və Oyunların vətəni qüdrətli Azərbaycan Respublikası xatırlanır. Tarixi 2015-ci il iyunun 12-dən hesablanan və on yeddi gün ərzində, iyunun 28-dək səhərdən axşama qədər fəxrlə izlədiyimiz Avropa idmanı nümayəndələrinin dostluq və həmrəylik startlarının əzəmətli Bakı Olimpiya Stadionunda təntənəli açılış mərasimindən artıq 9 il ötür.**

O vaxtdan bugünədək paytaxtımızın idman həyatında baş verən ən mühüm hadisələrdən biri də bu yaxınlarda, mayın əvvəlində Bakının 2026-cı il üçün dünyanın idman paytaxtı seçilməsidir. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının bir ay əvvəl bu barədə qəbul etdiyi qərar Azərbaycan paytaxtının imkanlarına, idman ənənələrinə, müasir bazalarına, onun sakinlərinin səmimiyyətinə və qonaqpərvərliyinə verilən yüksək dəyərin təzahürüdür.



Hələ I Avropa Oyunları startlarından təxminən bir il əvvəl qitəmizin idman hərəkatında yeni səhifə açmış “Bakı-2015”in xarici ölkələrdə—Yunanıstan və Fransa, Türkiyə və Almaniya, İsveçrə və Rumıniya, Macarıstan və İtaliya, Belçika və Böyük Britaniyada təqdimat mərasimləri maraqla qarşılanmış, hər yerdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi Avropa Oyunlarının Təşkilat Komitəsinin yarışlara hazırlıq istiqamətində həyata keçirdiyi böyük işlər, təxirəsalınmaz tədbirlər yüksək qiymətləndirilmişdi. Bununla da dünya Azərbaycan dövlətinin, onun idman təşkilatlarının nəyə qadir olduğunu bir daha aydın hiss etmişdi.

Ən başlıcası isə, Bakıda birinci Avropa Oyunlarının uğuru Azərbaycan dövlətinin, şəxsən onun rəhbəri, artıq 27-ci ildir ki, Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkənin bütün idman təşkilatlarını vahid komanda şəklində birləşdirib, məqsədə doğru inamla irəli aparan cənab İlham Əliyevin respublikamızda idmanın inkişafına göstərdiyi daimi qayğı və diqqətin parlaq nəticəsi idi. Ölkə vətəndaşlarının ürəkdən dəstəklədiyi Avropa Oyunlarının ən yüksək səviyyədə təşkili, bu zaman bütün məqamların nəzərə alınması, “Köhnə qitə”nin 50 ölkəsinin idman nümayəndə heyətinə öz imkanlarını tam nümayiş etdirmələri üçün hər cür şərait yaradılması Avropa Milli Olimpiya Komitələri Assosiasiasının qitə idmanında yeni mərhələ açan yarışların təşkilini Azərbaycan Respublikasına etibar etməkdə yanılmadığını qətiyyətlə sübuta yetirdi. Böyük zəhmət və çox vaxt tələb edən hazırlıq işləri qısa müddətdə yüksək sürətlə həyata keçirilmişdi.

Əgər Bakının ən yaxşı idman bazalarında əvvəldən axıradək kəskin rəqabət şəraitində davam edən ağır sınaqlarda Azərbaycan komandasının əla çıxış edərək, ümumi hesabda 56 medalla (21+15+20) yalnız Rusiya kollektivindən geri qalıb, ikinci yeri tutduğunu da xatırlasaq, həm yarışların təşkilində, həm də qazanılan medalların sayında ümidlərimiz tam doğrulmuşdu. Qitənin idman rəhbərləri və mütəxəssislərinin yekdil fikrincə, Bakıda Avropa Oyunları Olimpiya oyunları səviyyəsində keçirilmiş, təkcə idman ictimaiyyəti yox, bütün xalq tarixdə ilk dəfə təşkil edilən yarışlara öz töhfəsini vermişdi.

Ölkə üçün çox mühüm əhəmiyyətli iş uğurla yerinə yetirilmişdi. Heç kim ümummilli layihə, möhtəşəm idman bayramı hesab edilən “Bakı-2015” birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili tədbirlərindən geri qalmamışdı. Bakı yüksək etimadı şərəflə doğruldub, öz missiyasının öhdəsindən layiqincə gəlmişdi.

Təəccüblü deyil ki, yarışlardan çox-çox sonralar da hər yerdə “Bakı-2015”in əla təşkili, Oyunların bütün iştirakçıların və qonaqların qəlbində xoş xatirələr yaratdığı, onların beynəlxalq standartlara uyğun keçirildiyi, medallar uğrunda mübarizənin ədalətli rəqabət şəraitində davam etdiyi yekdilliklə qeyd olunurdu. Bir sözlə, Bakıda birinci Avropa Oyunları Azərbaycan dövləti və idmanının əsl zəfər marşı idi.

Sonralar Azərbaycan paytaxtının başladığı iş 2019-cu ildə Minskdə davam etdirildi, 2023-də Belarus paytaxtından estafeti Polşanın Krakov şəhəri qəbul etdi, 2027-ci ildə isə Avropa idmanının ulduzları qardaş Türkiyənin İstanbul şəhərində parlayacaqlar.

“Bakı-2015” birinci Avropa Oyunları 10 yaşına tezliklə, iyulun sonunda Parisdə starta çıxacaq XXXIII Yay Olimpiya Oyunları ilində qədəm qoyur. Yenə iki həftə ərzində dünyanı olimpiya həyəcanları bürüyəcək. Azərbaycan idmanının liderləri artıq Olimpiadaya 40-a qədər lisenziya qazanmışlar. Çox güman ki, bu say bir qədər də artacaq və ölkəmiz Fransa paytaxtında kifayət qədər mötəbər nümayəndə heyəti ilə təmsil olunacaq.

Olimpiya ili boksçularımız üçün ikiqat əlamətdar ildir. Bu il Azərbaycan Boks Federasiyası yaradılmasının 100 ili tamam olur. Şübhəsiz, rinq ustalarımız bir əsrlik yubileyi layiqincə qeyd etmək əzmindədirlər. Onlar Olimpiadada medallar uğrunda beş çəki dərəcəsində döyüşəcəklər.

Azərbaycan boksçuları 2000-ci ildə Sidney Olimpiadasından başlayaraq Tokio-2020-dək bütün Olimpiya oyunlarından respublikamıza medal gətirmişlər. Yubiley ilində həmin mükafatların sahiblərini xatırlamaq yerinə düşər: Avstraliyada Vüqar Ələkbərov, Afina—2004-də Fuad Aslanov və Ağası Məmmədov, 2008-ci ildə Pekində Şahin İmranov, bundan dörd il sonra London rinqində Teymur Məmmədov və Məhəmmədrəsul Məcidov bürünc medal qazanmışlar, Rio-de-Janeyro-2016-da kubalı legionerimiz Lorenso Sotomayor yalnız final görüşündə uduzub, fəxri kürsünün gümüş pilləsinə yüksəlmiş, onun komanda yoldaşı Kamran Şahsuvarlı üçüncü mükafatçı olmuş, Tokio-2020-də millimizin digər kubalı üzvü Alfonso Domingesə bürünc medal təqdim edilmişdi.

İndi isə olimpiya rinqində fərqlənmək növbəsi Nicat Hüseynov (51 kq), Məlik Həsənov (63,5 kq), Murad Allahverdiyev (80 kq), yenə A.Dominges (92 kq) və Məhəmməd Abdullayevindir (+ 92 kq). Onların hər birinin qələbə və medalı Azərbaycanda boksun inkişafının 100 illiyinin qeyd olunduğu ildə olimpiya hərəkatına, bütün xalqımıza layiqli töhfə olar.

Bu gün Avropa Oyunlarının vətəni Azərbaycan və onun baş şəhəri tarixi hadisənin bir daha böyük sevincini yaşayacaq. Dünyanın Azərbaycan paytaxtını Avropa Oyunlarının ilk paytaxtı kimi tanıdığı gündən 9 il ötür.

Günün mübarək, “Bakı-2015”!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İDMAN

## “Qarabağ”ın xorvat qapıçısı

**“Qarabağ” komandası yeni mövsüm üçün ilk transferini reallaşdırıb.**




Qapıçı Fabiyan Buntiç heyətə cəlb edilib. Almaniya vətəndaşlığı olan 27 yaşlı xorvat qolkiperlə 3 illik müqavilə imzalanıb. O, 2027-ci ilin yayına qədər Ağdam klubunda çıxış edəcək.

F.Buntiçin son klubu 2022-ci ildən şərəfini qoruduğu Portuqaliya təmsilçisi “Vizela” olub. O, bunadək karyerasına başladığı Almaniyanın “İnqolştadt” klubunda forma geyinib.

Qeyd edək ki, Fabiyan Buntiç Xorvatiyanın U-18 və U-19 milli komandalarında da oynayıb.

## Badmintonçularımızın 9 Türkiyə medalı

**Azərbaycan badmintonçuları Türkiyənin Ankara şəhərində keçirilmiş “Türkdilli Dövlətlərin Beynəlxalq Badminton Turniri”ndə 9 medal qazanıblar.**




Badminton Federasiyasından “XQ”yə bildiriblər ki, yarışın son günündə 5 kateqoriya üzrə qaliblər müəyyənləşib. 5 kateqoriyadan 4-də finalda təmsil olunan badmintonçularımız 2 qızıl, 3 gümüş və 4 bürünc medal qazanıblar. Kişi badmintonçuların şəxsi yarışında milli komandamızın lideri Edi Reski Dviçayo digər təmsilçimiz Diki Pangestuya qalib gəlib. Edi-Diki tandemi kişi badmintonçuların qoşa yarışında da bütün qalib olub. Qarışıq-qoşa kateqoriyasında Edi Reski Dviçayo və Keişa Fatimə Zəhra turniri gümüş medalla başa vurub. Keişa badmintonçuların şəxsi yarışında da 2-ci olub.

Bundan əlavə, Era Maftuha qadın badmintonçuların şəxsi yarışında, Diki Pangestu-Era Maftuha qarışıq-qoşa, Leyla Camalzadə-Həcər Nuriyeva və Era Maftuha-Keişa Fatimə Zəhra qadınların qoşa mübarizəsində bürünc mükafata yiyələniblər.

## Avropa futbolunun ulduz millilər

**UEFA prezidenti Aleksander Çeferin Almaniyada keçiriləcək Avropa çempionatında favoritləri açıqlayıb.**



Almaniyanın DPA agentliyinə açıqlamasında funksioner Almaniya, Fransa, İngiltərə və Portuqaliyanı favorit hesab etdiyini qeyd edib. O deyib ki, İspaniyanı da heç vaxt zəif qəbul etmək olmaz. Eyni zamanda, Xorvatiya, Belçika, Niderland kimi komandalardan da nəticə gözləmək olar.

Qeyd edək ki, AVRO-2024 iyunun 14-də start götürəcək.

***L.QURBANOVA***
***XQ***

Hava

# Yağış, şimşək, duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 20-24°, gündüz 28-32° isti olacaq.**



Atmosfer təzyiqi 758 mm civə sütunu ,nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, əsasən dağlıq və dağətəyi rayonlarda şimşək çaxanda arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 29-34°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq



# Yayın qızmar çağında çaya nə say?

**Bəzi insanlar yay aylarında çay içmə vərdişinə əməl etməsələr də, çoxları bu əvəzsiz içkinin qəbulu qaydasını bilir. Ekspertlər isti havalarda çayı limonla içməyi məsləhət görürlər.**

Həkimlər bildirirlər ki, limonlu çay immuniteti gücləndirir. Buna görə maddələr mübadiləsini sürətləndirmək, dərini gözəlləşdirmək, hətta iştahı da azaltmaq üçün limonlu çay tövsiyə edilir.

Limonun tərkibindəki C vitamininin böyük faydaları çayla birlikdə qəbul ediləndə ortaya çıxır. Belə çay həm də həzm sisteminə müsbət təsir göstərir və bədəndən zərərli maddələrin çıxarılmasına kömək edir. Limonlu çay içmək dərini yaxşılaşdırmağa və çəkiyə nəzarət etməyə kömək edə bilər.

Çaya limon əlavə edəndə tərkibindəki C vitamini dəmirin həzm sistemindən qana keçməsini asanlaşdırır. Limonlu çay bədəndən artıq suyu çıxarmağa kömək edir, bununla da ödem əmələ gəlməsinin qarşısını alır.

Mütəxəssislər sərinləmək üçün limonlu çayı soyuq halda içməyin də eyni effekt verdiyini bildirirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4041
SİFARİŞ 1286
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00